23. Abhishek N. Dadhania, Vaibhav K. Patel, Dipak K. Raval // A facile approach for the synthesis of 3,4-dihydropyrimidin-2-(1H)-ones using a microwave promoted Biginelli protocol in ionic liquid. // J. Chem. Sci. Vol. 124, No. 4, July 2012, pp. 921–926.
24. Tanuja Kadre, Srinivasa Rao Jetti, Anjna Bhatewara, Pradeep Paliwal and Shubha Jain// Green protocol for the synthesis of 3,4-Dihydropyrimidin-2(1H)ones/thiones using TBAB as a catalyst and solvent free condition under microwave irradiation. // Archives of Applied Science Research, 2012, 4 (2):988-993.
25. Pankaj Attri, Rohit Bhatia, Jitender Gaur, Bharti Arora, Anjali gupta, Naresh Kumar, eun Ha Choi // Triethylammonium acetate ionic liquid assisted one-pot synthesis of dihydropyrimidinones and evaluation of their antioxidant and antibacterial activities. // Arabian Journal of chemistry 2014.
26. Jean Christophe Legeay, Jean Jacques Vanden Eynde, Loic Toupet, Jean Pierre Bazureaua // A three-component condensation protocol based on ionic liquid phase bound acetoacetate for the synthesis of Biginelli 3,4-dihydropyrimidine-2(1H)-ones // ARKIVOC 2007, V (III) 13-28.
27. Saeid Azimi, Marziyeh Hariri // Solvent-free and one-pot Biginelli synthesis of 3,4-dihydropyrimidin2(1H)-ones and 3,4-dihydropyrimidin-2(1H)-thiones using ionic liquid N,N-diethyl-N-sulfoethanammonium-chloride {[$Et_3N$–$SO_3H$]Cl} as a green catalyst // Payame Noor University, Iran. Chem. Commun. 3 (2016) 13-20.
28. Yonghong Zhang, Bin Wang, Xiaomei Zhang, Jianbin Huang and Chenjiang Liu // An Efficient Synthesis of 3,4-Dihydropyrimidin-2(1H)-Ones and Thiones Catalyzed by a Novel Brønsted Acidic Ionic Liquid under Solvent-Free Conditions // Journal Molecules 2015, 20, 3811-382.

29. Zhiqing Liu, Rong Ma, Dawei Cao and Chenjiang Liu//New Efficient Synthesis of 3,4-Dihydropyrimidin2(1H) -ones Catalyzed by Benzotriazolium-Based Ionic Liquids under Solvent-Free Conditions // Journal Molecules 2016, 21, 462.
30. Abhishek N. Dadhania, Vaibhav K. Patel and Dipak K. Raval // A Convenient and Efficient Protocol for the One Pot Synthesis of 3,4-Dihydropyrimidin-2-(1H)-ones Catalyzed by Ionic Liquids under Ultrasound Irradiation // J. Braz. Chem. Soc., Vol. 22, No. 3, 2011, 511-516.
31. Дьяченко Е.В., Глухарева Т.В., Николаенко Е.Ф., Ткачев А.В., Моржерин Ю.Ю.// Известия Академии Наук Сер. хим. 2004. №6. С.1191-1198.
32. Kappe C. O. // Molecules. 1998. №3. P.1-94
33. Villemin D., Martin B., Bar N. // Molecules. 1998, 3, 88–93.
34. Lacova M., Gasparova R., Loos D., Liptay T., PronayovaN.// Molecules. 2000. No5. P.167-178.
35. Кубракова И.В, Мясоедова Г.В., Еремин С.А. //ЖАХ. 2006. С.27-34.
36. Логинов Д.Г., Никешин В.В. // Применение ионных жидкостей в химической промышленности // с.53-54.
37. Ahmad Shaabani, Abbas Rahmati // Ionic liquid promoted efficient synthesis of 3,4-dihydropyrimidin-2-(1H) -ones // Catalysis Letters, April 2005, Volume 100, Issue 3, pp 177-179.
38. Peng JJ, Deng YQ, 2001. //Ionic liquids catalyzed Biginelli reaction under solvent-free conditions. / Tetrahedron Letters, 42: 5917-5919.
39. Zohre Zarnegar, Javad Safari / Magnetic nanoparticles supported imidazolium-based ionic liquids as nanocatalyst in microwave-mediated solvent-free Biginelli reaction, J Nanopart Res (2014) 16:2509.
40. F.Heidarizadeh, E.Rezaee Nezhad, S.Sajjadifar / Novel acidic ionic liquid as a catalyst and solvent for green synthesis of dihydropyrimidine derivatives / Scientia Iranica,Transactions C:Chemistry and Chemical Engineering 2013.
41. Haline G. O. Alvim, Tatiani B. de Lima, Heibbe C. B. de Oliveira, Fabio C. Gozzo, Julio L. de Macedo, Patricia V. Abdelnur, Wender A. Silva, and Brenno A. D. Neto / Ionic Liquid Effect over the Biginelli Reaction under Homogeneous and Heterogeneous Catalysis / American Chemical Society Catal. 2013, 3, 1420−143.
42. Das P.J., Begum J. Synthesis of 3,4-Dihydro-2(1H)-Pyrimidones Via Biginelli Reaction in Organized Media Using Ionic Liquids and Solid Acid Catalysts. J Chem Applied Biochem. 2015;2(1): 116.
43. Dewan M., Kumar A., Saxena A., De A., Mozumdar S (2012) Biginelli Reaction Catalyzed by Copper Nanoparticles. PLoS ONE 7(8): e43078.
44. S. R. Roy, P. S. Jadhavar, K. Seth, K. K. Sharma, A. K. Chakraborti, *Synthesis*, **2011**, 2261-2267.
45. Imane Tebabel, Taoues Boumoud, Boudjemaa Boumoud and Debache Abdelmadjid. / Quaternary ammonium ionic liquid as a dual solvent-catalyst in biginelli reaction
46. Nandini Sharma, Upendra Kumar Sharma, Rajesh Kumar, Richa and Arun Kumar Sinha / Green and recyclable glycine nitrate ($GlyNO_3$) ionic liquid triggered multicomponent Biginelli reaction for the efficient synthesis of dihydropyrimidinones / RSC Adv., 2012,2, 10648-1065.
47. Jain, S.L., Joseph, J.K. & Sain, B. Catal Lett (2007) 115: 52.
48. Nagarajan, S., Shaikh, T.M. & Kandasamy, E. J // Chem Sci (2015) 127: 1539.
49. Murlidhar S.Shingare, Sandip A.Sadaphal, Kiran F.Shelke, Balaji R.Madje, G.K.Kakade //Solvent-free microwave assisted Biginelli reaction accelerate by ionic liquid and magnesium perchlorate/ Organic Chemistry: An Indian Journal, ISSN (PRINT):0974-7516.
50. Elhamifar D., Shábani A. / Manganese-containing periodic mesoporous organosilica with ionic-liquid framework (Mn@PMO-IL): A powerful, durable, and reusable nanocatalyst for the Biginelli reaction. / Chemistry. 2014 Mar 10, 20(11):3212-7.
51. Wang Zong-Ting; Wang Shu-Chao; Xu Li-Wen / Polymer-supported ionic-liquid-catalyzed synthesis of 1,2, 3,4-tetrahydro-2-oxopyrimidine-5-carboxylates via Biginelli reaction / Helvetica chimica acta 2005, vol. 88, no5, pp. 986-989.
52. Hishame Abd-Elnabi, Afaf Mohamed Abdel Hameed, Ramadan Ahmed Mekheimer, Reham R. Awed, Kamal Usef Sadek. // Garlic Clove Catalyzed Biginelli Reaction in Water at Ambient Temperature
53. R. A. Mekheimer, A. M. Abdel Hameed and K. U. Sadek, "Solar Thermochemical Reactions: Four-Component Synthesis of Polyhydroquinoline Derivatives Induced by Solar Thermal Energy," Green Chemistry, Vol. 10, No. 5, 2008, pp. 592-593.

54. K. U. Sadek, R. A. Mekheimer, A. M. Abdel Hameed, F. Elnahas and M. H. Elnagdi, "Green and Highly Efficient Synthesis of 2-Arylbenzothiazoles Using Glycerol with- out Catalyst at Ambient Temperature," Molecules, Vol. 17, No. 5, 2012, pp. 6011-6019.
55. K. U. Sadek, R. M. Shaker, M. AbdElrady and M. H. Elnagdi, " A Novel Method for the Synthesis of Polysubstituted Diaminobenzonitrile Derivatives Using Controlled Microwave Heating," Tetrahedron Letters, Vol. 51, No. 48, 2010, pp. 6319-6321.
56. Suresh Patil, Swati D. Jadhav, Sanjeevani Y. Mane // Pineapple Juice as a Natural Catalyst: An Excellent Catalyst for Biginelli Reaction/ International Journal of Organic Chemistry, 2011, 1, 125-131.
57. Manisha M. Kodape, Nandkishor D. Gawhale, Nikita V. Awjare // Synthesis of 3,4-dihydropyrimidin-2(1H)-ones (DHPMs) by natural L-ascorbic acid // Indian Journal of Chemistry, Vol. 54B, May 2015, pp.671-675.
58. Замараева Татьяна Михайловна / Реакция Биджинелли в ряду амидов ацетилуксусной кислоты / автореферат.
59. Бадалова Гюнель Ниязали кызы // Синтез 3,4-дигидропиримидинона с участием аллилацетоацетата // Международная Научная конференция «Актуальные проблемы современной химии и биологии» Гянджа, 2016, с.101-104.

2017. Volume 1, Number 2 Pages 148-152

UDC 576.809.5

# THE FORMATION OF SILVER NANOPARTICLES BY THE CULTURE OF *STREPTOMYCES SP.* BDU-C25

**GANBAROV KH.G., GASANOVA S.A., GULIEVA S.M., RAMAZANOV M.E., EYVAZOVA G.I., AGAMALIYEV Z.A., SHAHGELDIEVA N.A.**

Baku State University

Baku / AZERBAIJAN

*khganbarov@bsu.edu.az*

## ABSTRACT

The process of obtaining eco-friendly silver nanoparticles is as an important step in the field of nanotechnology. As an alternative to conventional physical and chemical methods, biological methods for the production of nanoparticles are considered to be much safer and more ecologically friendly. In this work we present our recent results on the formation of silver nanoparticles by the branched bacteria of *Streptomyces sp.* BDU-C25, which was isolated from the soil of the Azerbaijan. The production of silver nanoparticles was determined by the reduction of silver ions and the formation of stable crystalline silver nanoparticles in the solution. The existence of nanoparticles in the solution was proved both by the solution's color change from yellow to brown by the appearance of the peak at a wavelength of 420 nm in spectrophotometric analysis and by energy-dispersive x-ray spectroscopy. Scanning electron microscope also reveals the formation of particles of size 40-60 nm. As a conclusion, it is shown that silver nanoparticles can be effectively formed by the culture of *Streptomyces sp.*BDU-C25.

**Keywords:** *Streptomyces sp.*, BDU-C25, silver nanoparicles, spectrophotometer, scanning electron microscope, energy-dispersive x-ray spectroscopy.

## STREPTOMYCES Sp. BDU-25 KULTURASI VASİTƏSİLƏ GÜMÜŞ NANOHİSSƏCİKLƏRİNİN FORMALAŞMASI

## XÜLASƏ

Nanaohissəciklərin vacib istiqamətlərindən biri ekoloji cəhətdən ziyansız üsullarla güm üş nanohissəciklərinin alınmasıdır. Nanaohissəciklərin alınmasının fiziki və kimyəvi yollarla alınmasından fərqli olaraq, bioloji metodla alınması ekoloji baxımdan ziyansız sayılır. Təqdim olunan işdə Azərbaycanın Salyan rayonu ərazisindəki torpaqdan ayrılmış Streptomyces sp. BDU-25 bakteriyası vasitəsilə gümüş nanohissəciklərin biosintezinə aid nəticələr təqdim olunmuşdur. Gümüş nanohissəciklərinin formalaşması məhlulda gümüş ionlarının kristallik nanohissəciklərə reduksiya olunması ilə gedir. Nanohissəciklərin varlığı inkubasiya məhlulunun rənginin sarımtıldan qəhvəyiə dəyişməsi ilə, UV- spektrofotometrdə 420nm dalğa uzunluğunda udulmasının olması ilə və Rentgen struktur analis üsulu ilə sübut edilmişdir. Skanedici elektron mikroskopu vasitəsilə əmələ gəlmiş nanohissəciklərin 40-60 nm ölçüdə müəyyən edilmişdir. Streptomyces sp. BDU-25 bakteriya ştamı gümüş nanohissəciklərin aktiv produsenti olduğu göstərilmişdir.

**Açar sözlər:** Streptomyces sp. BDU-25 bakteriya ştamı gümüş nanohissəcikləri; UV- spektrofotometr, skanedici elektron mikroskop, rentgen struktur analiz.

## ФОРМИРОВАНИЯ АНОЧАСТИЦ СЕРЕБРА КУЛЬТУРОЙ STREPTOMYCES Sp. BDU-25

## РЕЗЮМЕ

Одим из важых этапов нанотехологии является екологически безвредный процесс получения наочастиц серебра. В отличие от возможных физических и химических методов, биологический метод получения наочастиц считается экологически безвредны. В настоящей работе представлены результаты по биосинтезу наочастиц серебра культурой Streptomyces sp. BDU-25, выделеной из почва Салянского района Азербайджана. Формироваие наночстиц в растворе присходит редукцией ионов серебра до кристаллических наночастич. Наличие наночастич серебра доказали изменением окраски раствора от желтого до каричневого, наличием поглощения при 420нм и UV- спектрофотометре и рентгенструктурнум анализом. С помощью санирующего электронного микроскопа установлен размер (40-60нм) наночКлючевые сова; Streptomyces sp. BDU-25, наночастицы серебра, UV- спектрофотометр, сканирующий электронный микроскоп, рентгенструктур анализ.

**Ключевые слова**: Streptomyces sp. BDU-25, наночастицы серебро, UV- спектрофотометр, санирующ электронный микроскоп, рентгенструктур анализ.

## Introduction

Numerous methods of producing silver nanoparticles are curently available in the literature. Conventional methods for obtaining nanoparticles can be divided into three following groups: 1) physical synthesis methods based on the formation of nanoparticles by physical impact; 2) chemical synthesis methods in which the formation of nanoparticles takes place using chemical reagents; and 3) biological methods based on the reduction of the metal compounds by enzymes of living organisms [1].

It is a well known fact that silver has strong toxicity towards the large number of microorganisms. For this reason many silver compositions have been extensively and successfully used against many bacteria. At the same time, silver compositions are effective in the treatment of burns and various infections. Some silver salts and their derivatives were also used as antibacterial agents. Silver nanoparticles have been studied as a medium for the synthesis of antibiotics and compounds used for disinfection and the covering of the filter material. According to the results of electron microscopy, the toxicity properties of silver in the silver-bacteria interaction strongly depends on the size of silver nanoparticles. In total, silver nanoparticles have a profound effect in the restriction of the growth, and even in the elimination of bacteria [2 - 4].

Many laboratories world over are actively seaching for effective biological methods for producing nanoparticles of different chemical nature. There are many reports on the biological ("green") synthesis of the gold, silver, selenium, platinum, quartz and other nanoparticles by the bacteria, actinomycetes, fungi and yeasts [ 5 - 7]. However, in spite of the stability, the biologically obtained nanoparticles are not uniform, and their synthesis mostly is a slow process. To overcome these problems, a comprehensive study of all the factors influencing the nanoparticle forming process is needed. For the increase of the nanoparticle synthesis speed, and for the improvement of the nanoparticle properties, biochemical, molecular, and cellular mechanisms of the microbiological methods of cultivation, extraction, and stabilization should be properly understood. Furthermore, in view of the very wide variety of microorganisms, it is necessary to conduct investigation in the direction of the screen of new promising producers and study their potential as biological material for the synthesis of nanoparticles [8 - 11].

The literature describing the production of sillver nanoparticles using actinomycetes are very few [12 - 14]. The aim of this work is to show the ability of the culture of *Streptomyces sp*. BDU-C25 to form silver nanoparticles.

## Matherials and Mehods

In ths study a strain of *Streptomyces sp.*BDU-C25, isolated from the rhizosphere of cherries in the territory of Azerbaijan was used. Before the nanoparticle production stage, a pure culture of actinomycete was stored in the mineral solid medium in a refrigerator at 4-6 ° C.

The actinomycete culture was grown aerobically (250 ml Erlenmeyer flask) on the liquid mineral medium of the following composition (g/l): soluble starch - 20; $K_2HPO_4$ - 0.05; $KNO_3$ - 0,1; $FeSO_4$ - 0,005; $MgSO_4$ -0,05. The liquid medium was inoculated with the actinomycete culture and incubated at 28°C for 10-14 days. After incubation, the biomass was filtered through a filter paper. The filtrate of the culture fluid (CF) was examined for the possibility to produce silver nanoparticles.

To the 50 ml of culture fluid was added 50 ml of an aqueous solution of 1 mM silver nitrate ($AgNO_3$). The mixture was incubated in an incubator at 28° C under dark room conditions. A control sample of the CF without $AgNO_3$ was also incubated under the same conditions.

The optical properties of the produced silver nanoparticles were analyzed by the spectrophotometer «SPECORD 250 plus» (Germany). The presence of silver nanoparticles was proved by the energy-dispersive x-ray spectroscopy (EDS-analysis). The size and morphological characteristics of the silver nanoparticles were investigated by the scanning electron microscope «JEOLJSM-7600F» (Japan).

## Results and Discussion

The formation of silver nanoparticles in the reaction mixture can be determined by observing the visible color change. After inoculation, such color change of the supernatant 1mM $AgNO_3$ solution was observed (Figure 1) on the third day. The color of the control suspension with no silver ions remained pale yellow (Figure 1A). However, the presence of silver ions in the solution changed the color to dark brown (Figure1B).

**Figure 1**. The colour change of the CF of actinomycete *Streptomyces sp*. BDU-C25 during the formation of silver nanoparticles: A – control; B – experiment.

A B



The color changed solution was further analysed by the UV and visible spectroscopy. Resulting optical spectrum showed a strong peak at a wavelength of 420nm, which is characteristic for silver nanoparticles (Figure 2).

**Figure 2.** UV spectrum of silver nanoparticles produced in the CF of *Streptomyces sp*. BDU-C25 (absorbtion at A 420 nm).




Optical absorption peak (Ag La1) with the EDS-analysis of the sample indicated the presence of pure metallic silver nanoparticles (Figure 3).

The size and morphological characteristics of silver nanoparticles was performed using a scanning electron microscope. It was found that the nanoparticles have roughly a spherical shape and their size was calculated to be about 45,3-50,3 nm (Figure 4). We also observed a significant aggregation of particles.

**Figure 3.** Energy-dispersion X-ray spectroscopy of the silver nanoparticles produced by the CF of *Streptomyces sp*. BDU-C25.




**Figure 4.** Scanning electron microscopy of silver nanoparticles produced by the CF of *Streptomyces sp.BDU-C25.*




## Conclusion

Current study shows that the culture of *Streptomyces sp*. BDU-C25 can be used for the producton of silver nanoparticles. Reduction of silver ions in the aqueous solution of 1mM AgNO3 during the contact with enzymes of *Streptomyces sp*. BDU-C25 was observed by the UV-Vis spectroscopy revealed presence of silver nanoparticles. These silver nanoparticles are found to have characteristic absorption peak at 420 nm . The SEM analysis showed the particle size between 45,3-50,3nm. The EDS elemental analysis of the Ag-NPs. indicates the presence of the silver (Ag). Thus branched bacteria *Streptomyces sp*. BDU-C25 is a good candidate for the synthesis of silver nanoparticles.

**REFERENCES**


1. Kannan N. and Subbalaxmi S. Bio genesis of nanoparticles - a current perspective //Rev. Adv. Mater. Sci., 2011, v. 27, pp. 99-114.
2. Kato H. In vitro assays: tracking nanoparticles inside cells //Nature Nanotechnology, 2011, v. 6, N.3, pp. 139–140.
3. Baker C., Pradhan A., Paktis L., Pochan D. J., Shah S. I. Antimicrobial activity of silver nanoparticles // J. Nanosci. Technol, 2005, v.5, pp.2 44-249.
4. Majdalawieh A., Kanan M.C., El-Kadri O., Kanan S.M. Recent advances in gold and silver nanoparticles: synthesis and applications // J.Nanosci. Nanotechnol., 2014, v.7, pp. 4757-4780.
5. Ganbarov Kh.G., Ahmadov I.S., Ramazanov M.A., Musayev E.M., Eyvazova G.S., Aghamaliyev Z.A. Silver nanoparticles synthesized by the Azerbaijanian evrironmental isolated Aspergillus niger. //Jour. Microbiol. Biotechnol. Food Sciences, 2014, V. 4 (2), pp.137 - 141
6. Ganbarov Kh.G., Ahmadov I.S., Ramazanov M.A., Musayev E.M., Eyvazova G.S., Aghamaliyev Z.A. The concentration effect of the formation of silver nanoparticles by the mold fungus Aspergillus niger BDU A4. //Jour. Biotechnol., 2014, V. 185, p.28
7. Gasanova S.A. Gguliyeva S.M,Eyvazova G.I., Aghamaliyev Z.A., Shaxgeldiyeva N.A. Ramazanov M.A., Ganbarov Kh.G Investigation of the formation of silver nanoparticles by culture Streptomyces sp. BDU-17 // Microbial Biotechnology fundamental and applied aspects, Minsk, 2015, T.7, pp. 326-334
8. Ganbarov Kh.G., Jafarov M.M., Hajiyeva F.T., Huseynova S.I., Bozkurt H.C., Ramazanov M.A., Aghamaliyev Z.A., Eyvazova Q.I., Ahmedov I.S. Mycogenic Formation of Silver Nanoparticles by the Azerbaijanese Environmental Isolate Candida macedoniensis BDU-MI44// International Journal of Research Studies in Biosciences (IJRSB), 2016, V. 4 (5), 2016, pp. 1-5
9. Sastry M., Ahmad A., Khan M.I., Kumar R. Biosynthesis of metal nanoparticles using fungi and actinomycete // Curr. Sci., 2003, Vol. 85, pp. 162 – 17
10. Chou W. L., Yu D. G., Yang M. C. Silver nanoparticles in waret treatment // Polym. Adv. Technol, 2005, v.16, pp. 600-608.
11. Duron N., Marcato P. D., Alves O. L., Gabriel I. H., Souza D. E., Esposito E. J. Extracelluar biosynthesis of silver nanoparticles using culture supernatant of Streptomyces species // J. Nanobiotechnol., 2005, v.3, pp. 1-7
12. George M., Anjumol A., George G., Mohamed Hatha A.A. Distribution and bioactive potential of soil actinomycetes from different ecological habitats // African Journal of Microbiology Research, 2012, Vol. 6, N. 10, pp. 2265 – 2271
13. Sukanya M. K., Saju K. A., Praseetha P. K., Sakthivel G. Therapeutic Potential of Biologically Reduced Silver Nanoparticles from Actinomycete Cultures // Journal of Nanoscience, 2013, pp. 1 – 8
14. Udaya Prakash N.K., Bhuvaneswari S., Prabha S.B. Green Synthesis of Silver Nanoparticles using Airborne Actinomycetes // International Journal of ChemTech Research., 2014, Vol. 6, N. 9, pp. 4123 – 4127

*JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY - CHEMISTRY AND BIOLOGY*
***2017. Volume 1, Number 2*** ***Pages 153-159***

*UOT:582.4*

# ARDIC (*JUNIPERUS L.*) CİNSİNİN FENOLOGİYASININ ÖYRƏNİLMƏSİ

**Afaq Aydın qızı RZAYEVA**
Bakı Mühəndislik Universiteti
Bakı / AZƏRBAYCAN
*afrzayeva@beu.edu.az*

**XÜLASƏ**

Ardıc (Juniperus L.) cinsinin Abşeron yarımadasında bioekoloji xüsusiyyətlərinin və ekoloji amillərə davamlılığının öyrənilməsinin həm elmi və həm də təcrübi əhəmiyyətini nəzərə alaraq AMEA Dendrologiya İnstitutunda bir sıra elmi-tədqiqat işləri aparılaraq introduksiya olunmuş bitkilərin Abşeron şəraitində fenoloji fazaları və inkişaf xüsusiyyətləri öyrənilmişdir. Azərbaycanın seyrək arid meşəliklərində ikinci yarus odunlaşmış gövdəli bitkilər arasında çox mühüm yer tutan ardıc bitkisi ətraf mühit faktorlarına qarşı az tələbkar olmaqla yanaşı havanın təmizlənməsində də müstəsna rol oynayır. Məhz bu xüsusiyyəti əsas götürülərək AMEA Dendrologiya İnstitututu ərazisində ardıc cinsinin dekorativ əhəmiyyətli adi ardıc (Juniperus communis L.), ağıriyli ardıc ( Juniperus foetidissima Willd ) və çoxmeyvəli ardıc ( Juniperus polycarpus K.Koch ) növlərinin inkişafı izlənilmiş və bu fazalar Azərbaycanın arid meşələrində təbii halda bitən eyni növə aid bitkilərin uyğun fazaları ilə müqayisə olunmuşdur. Təbii halda ardıc bitkiləri Turyançay Dövlət Təbiət qoruğunda və Naxçıvan NR Şahbuz rayonu ərazisində yarımstasionar olaraq müşahidə olunmuş, 2012, 2013, 2014cü illərdə fenoloji fazaları qeydə alınmışdır.

**Açar sözlər**: fenologiya, adi ardıc, ağıriyli ardıc, çoxmeyvəli ardıc.

**ИЗУЧЕНИЕ ФЕНОЛОГИИ РОДА МОЖЖЕВЕЛЬНИК (JUNIPERUSL.)**

**РЕЗЬЮМЕ**

Учитывая научно – экспериментальную важность изучения биоэкологических свойств рода можжевельник, на территории Апшеронского полуострова в Институте Дендрологии Академии Наук Азербайджанской Республики были проведены ряд научных исследований и изучены фенологические фазы и особенности развития можжевельника. Можжевельник встречается в составе второго яруса аридного редколесья и играет непоссредственно важную роль в очищении воздуха. Учитывая всех этих особенностей как обьекта исследования мы взяли четырех интродуцированных видов: можжевельник обыкновенный (J. communis), можжевельник пахучий (J.foetidissima), можжевельник красный (J. rufescens) и можжевельник многоплодный (J. polycarpos) , изучали их фенологию.

**Ключевые слова**: фенология, можжевельник обыкновенный, можжевельник пахучий,можжевельник многоплодный.

**STUDY OF PHENOLOGY OF JUNIPER GENUS**

**SUMMARY**

Taking into account the scientific and experimental importance of studying the bioecological properties of the juniper genus, a number of scientific studies were carried out in the area of Apsheron Peninsula in the Institute of Dendrology of the National Academy of Sciences of Azerbaijan , and the phenological phases and peculiarities of juniper development were studied. Juniper is found in the second tier of arid woodlands and plays an irrelevantly important role in the purification of air. Considering all these features as a research object, we took four introduced species: J. communis, J.foetidissima, J. rufescensand J. polycarpos, studied their phenology.

**Key words**: phenology, Juniperuscommunis, Juniperusfoetidissima, Juniperuspolycarpos.

**Giriş:** Hazırki dövrdə planetimizdə baş verən ekoloji gərginlik fonunda bitkilərin əhəmiyyətinin öyrənilməsinə maraq artmışdır və planetin "ekoloji xilaskarı" hesab olunan yaşıl bitkilərin müxtəlif qruplarının öyrənilməsi, onların arealının genişləndirilməsi baxımından mühafizəsi problemləri çox aktualdır. Bitki qrupları arasında az tələbkar olan, havanı daha yaxşı təmizləyən bitkilər daima tədqiqatçıların diqqət mərkəzində olmuşlar. Bu baxımdan Azərbaycanda bitki ehtiyatlarının mühafizəsində müxtəlif şəraitdə bitən ardıc meşələrinin əhəmiyyəti böyükdür.

**Tədqiqatın obyekti və metodikası :** Tədqiqatın obyekti olaraq Respublikamızda azmeylli yamaclarda, rütubətli və münbit torpaqlarda və həmçinin də qayalıqlarda, quru və daşlı sahələrdə rast gəlinən ardıc ( Juniperus L. ) bitkisi götürülmüşdür. Ardıc bitkisinin sistematik mövqeyinə nəzər salsaq, məlum olar ki, o, iynəyarpaqlılar (Pinopsida) sinfi, iynəyarpaqlılar (Pinidae) yarımsinifi, iynəyarpaqlılar (Pinales)sırası, Sərvkimilər (Cupressaceae) fəsiləsi ardıckimilər (Juniperoideae ) yarımfəsiləsinə aiddir [1]. R.P.Adams ardıc və tuyaların 15-17 cp DNT region taksonomik şəcərəsində [4,7]yerini müəyyən edərək, bu bitkilərə başlanğıc verən şaxənin iynəyarpaqlılar sinfinin digər yarımsiniflərinə görə daha mütəşəkkil olduğunu göstərmişdir. Ardıckimilər ( Juniperoideae) yarımfəsiləsi bütün dünyada yalnız bir ardıc (Juniperus L.) cinsi ilə təmsil olunmuşdur. Ardıclar əsasən sərilmiş formalı kollar və ya çox az hallarda hündürlüyü 10m-ə çatan ağaclardır. Ardıcın bəzi növlərinə dəniz səviyyəsindən 4000m hündürlükdə dağlarda rast gəlinir[2]. Onlar torpağın üst qatlarında sərilərək möhkəm kök sisteminin köməyilə dağ yamaclarını əhatə edirlər. Ümumilikdəbütün ardıclar işıqsevən və şaxtaya davamlıdırlar. Onların əksəriyyəti uzunömürlü və gec böyüyən növlərdir. Dağ zonalarında onlar 800-1000 il yaşayırlar. Krımda, Qafqazda, Azərbaycanda və Orta Asiyada əvvələr çox yayılmış ardıc meşələrinə indi çox kiçik hissələr şəkilində təsədüf olunur. Bu meşələrin yaşı yüz illərlə hesablanır. Onların 8-10 il yaşayan iynələri bəzən pulcuqvari yarpaqları böyük miqdar da efir yağları ifraz edirlər ki, bu da havanın təmizlənməsində böyük rol oynayır. Lakin atmosferin çirklənmə əmsalı yüksək olduqda ardıclar inkişaf edə bilmir və tələf olurlar. Ardıclar ikievli bəzən birevli bitkilərdir [6]. Onların xırda erkək və dişi qozları payızda formalaşır. Yazda isə çox tez inkişaf edir. Dişi " giləmeyvəyəbənzər" qozalar 3-8 örtücü pulcuqdan ibarətdir. Mayalanmadan sonra pulcuqlar birləşir, lətləşir və beləcə şirəli " giləmeyvəyəbənzər" qozanı əmələ gətirir. Bu qozalarındaxilində [3]2-10 sayda toxumu olur. Elə bu xüsusiyyəti ilə də ardıckimilər başqa fəsilələrdən seçilir. Onların dişi qozları bəzi növlərdə birinci il, bəzilərində ikinci, bəzilərində üçüncü il yetişir.Toxumların yayılması heyvanların, xüsusəndə quşların vasitəsilə baş veirir. Bu zaman onların möhkəm toxum qabığı toxumu zədələnmədən qoruyur. Yarpaqları iynəyarpaqdır, adətən üçər olmaqla topa şəklində yerləşirlər. Birillik zoğlarının yanında cüt-cüt qarşı-qarşıya düzülmüş çoxlu sayda pulcuqvari erkəkciklər yerləşir. Tozcuqları kürə şəkilindədir. Dişi qozları kiçik şar şəkilində olub, qoltuq sahələrində yerləşir. Hər qozada 2-yə qədər yumurtacıq olur.

Bu bitki Azərbaycanda torpaq və bitki ehtiyatlarının səmərəli istifadə və mühafizəsində müstəsna əhəmiyyəti olan arid seyrək meşələrin əsas tərkib hissəsidir. Təbii halda Azərbaycanın bitki örtüyü xəritəsində ən geniş ardıclıq sahələrinə Kiçik Qafqazın cənub rayonlarında orta dağ qurşağının quru daşlaşmış yerlərində rast gəlinir. Yaşıllaşdırma tədbirlərinin həyata keçirilməsi baxımından ardıc ( Juniperus L.) bitkisinin yeni ərazilərə introduksiyası və eyni zamanda introduksiya olunduğu ərazilərdə fenologiyasının öyrənilməsi olduqca mühüm əhəmiyyət daşıyır.

AMEA Dendrologiya İnstitutu ərazisinə introduksiya olunmuş adi ardıc (Juniperus communis L.) ən geniş areala malik ardıc növüdür[5]. Beynəlxalqmühafizə statusu LC – Least Concern ( Az qayğı tələb edən ).\The İUCN Red List of Threatened Species\. Çoxillik, 1-3 m hündürlüklü, gövdəsinin diametri 0,2m, tünd yaşıl, boza çalan rəngli çətiri olan koldur. Yavaş böyüyür, illik boy artımı 10-12 sm-dir. Budaqları qırmızımtıl – qonur rənglidir. Erkək bitkilərdə çətir konusşəkilli-yumurtaşəkilli, dişi bitkilərdə isə kənarlara səpələnmiş budaqlı olur[8]. Yarpaqları iynəşəkilli , 16-20 mm uzunluqlu 0,7-7,5 mm enində, üçküncdür. 3-3 olmaqla topalar halında yerləşir. Yarpaqları bitki üzərində 4 ilə yaxın qala bilir. İkievli bitkidir. Qozameyvələri çoxsaylı , 5-9 mm diametrli , uzunsov –yumurtaşəkilli və ya şarşəkilli açıq yaşıl rənglidir.

Yetişmiş meyvələri tünd- göy qaramtıl , üzəri mumabənzər örtüklü olub, ikinci və ya üçüncü ilin payızında yetişirlər. Qozada üç ( bəzi hallarda bir və ya iki ) üçkünc toxum yerləşir. Bəzən tam yetişməmiş meyvələr ellipsşəkilli görünüşlü olur. Qozameyvənin tərkibində 42%-ə qədər şəkər, boyaq maddələri, üzvi turşular (qarışqa, sirkə, alma), qatran (2%), iynəyarpaqlarında 0.27 % askorbin turşusu vardır.

Çoxmeyvəli ardıc (Juniperus polycarpos K.Koch.) 5-10 m hündürlüklü ağaclardır. Mühafizə statusu LC-Least Concern (Az qayğı tələb edən)\The İUCN Red List of Threatened Species\. Çətiri sıx, qırmızımtıl -boz rənglidir- cavan budaqları nazik olur (1,5mm). Yarpaqları uzunsov, ucdan itidirlər. Qoza-meyvələri 1,2 sm diametrli , sarşəkilli bərkdirlər.Dəriciklərinin altında ağaclaşmış qata malikdirlər. 2-3, nadir hallarda 4 toxumludurlar. Toxumları hamar, oval, 6-7,5 mm diametrlidirlər. Yanlardakı meyvələri enli, üzəri hamar, ortadakılar üzrə qabırğacıqlıdırlar. Cavan meyvələr ağ rəngdə olub, üzərlərindəki iki qabırğacıqa görə asan fərqlənirlər, yaşlı meyvələri isə tünd rəngli olur.

Ağıriyli ardıc (J.foetidissima Xilld.) Mühafizə statusu LC-Least Concern (Az qayğı tələb edən).\ The İUCN Red List of Threatened Species\[ 9 ]. 5-6 bəzən 16-m-ə kimi hündürlüklü piramida şəkilli çətirə malik ağac və ya 1.5 m hündürlüklü koldur. Gövdəsinin qabığı boz , cavan ağaclarda qonur-qırmızımtıl olur. Budaqları yoğundur, dördkünclüdür. İynəyarpaqları tünd yaşıl, yumurta və ya lansetşəkilli, bəzən uzunsov rombşəkillidir, 2-10 mm uzunluqluqdur. Yarpaqlarını əzdikdə xoşagəlməz iy verir.

İkievli bitkidir. Qoza-meyvələri 7-13 mm diametrli , yumurta və ya sarşəkilli, qara-qırmızımtıl rənglidir . Toxumları 1-2, bəzən 3 ədəd olub, oval və ya yumurtavari ,açıq – qəhvəyi rənglidir. Aprel-may aylarında tozlanır. Toxumla, çiliklə çoxalır. Qozameyvələri ikinci il oktyabr - dekabr aylarında tamam yetişir. Tozlanması anemofildir. Torpağın quraqlığına və istiliyinə davamlıdır.

Torpaq qrunt şəraitinə tələbkar deyil, torpağın şoranlığına nisbətən davamlıdır. Bu ağaclar dəniz səviyyəsindən 1600 m-dək yüksəklikdə , qayalıqlarda bitir və 300 ilədək yaşayırlar.

Ardıc cinsinin təbii seyrək meşələrinin yayıldığı Turyançay Dövlət Təbiət qoruğu Bozdağın arid meşə landşaft kompleksinin qorunmasında müstəsna rol oynayır. Geomorfoloji cəhətdən burada arid denudasiya relyef tipi səciyyəvidir. İqlimi quru subtropikdir, burada qışı quraq keçən mülayim isti və qışı quraq keçən mülayim isti yarımsəhra və bozqır iqlim tipləri hakimdir (Şəkil 1,2). Orta illik temperatur 14,0°C, ərzində yağıntının miqdarı 500 mm, yağıntılı günlərin sayı isə 90 günə çatır. Qoruğun ərazisində qəhvəyi dağ-meşə , bozqırlaşmış dağ – qəhvəyi, qonur, allüvial çəmən – meşə torpaqları inkişaf etmişdir. Bu torpaqlar nəmliklə nisbətən yaxşı təmin olunmuşdur. Yağıntılar əsasən payız-qış – yaz mövsümündə düşür. Yay vaxtı bu torpaqlar həddən artıq qurudur. Qoruq ərazisindəki torpaqlar əsasən karbonatlı süxurlar üzərində formalaşmışdır. Qoruq ərazisində torpaqların diaqnostik xüsusiyyətləri: torpaq profilinin böyük qalınlığı (1,5-2m), humus qatının qalınlığı ( 60-70 sm ), humusla zənginliyi (4-6%), humusun fulvatlı – humatlı tərkibi, torpaq profilinin yüksək gilləşməsi, yüksək udma tutumu, üst horizontların neytrala yaxın vəkarbonatlı horizontların qələvi reaksiyası, əsaslarla tam doyması, humuslu horizontların yaxşı strukturluluğu və bununla əlaqədar əlverişli fiziki xassələri, profildə karbonatların olmasıdır.

**Şəkil1.** Turyançay Dövlət Təbiət Qoruğunda ardıcın yayıldığı arealın görünüşü

**Şəkil 2** Türyançay Dövlət Təbiət Qoruğunda temperatur və yağıntı rejimi




Abşeron yarımadası üçün isə öz növbəsində yayı quru keçən yarımsəhra və quru çöl iqlimi ilə xarakterizə olunur.Ümumi sahəsi 12 ha olan Dendrologiya İnstitutu Abşeronun şimal şərqində Xəzər dənizindən 3.2 km, Bakı şəhərindən 40 km məsafədə yerləşir. ərazi dəniz səviyyəsindən 8,2 m hündürlükdə olub, orta illik temperatur 13-15 ° C,rütubət qış aylarında 8-8,2 %, yay aylarında 35-40% olur. İllik yağıntı 120-270 mm, torpaq qələvi olub ( PH=8-9 ), boz gilli və qumsal torpaq tipinə aiddir. Ərazidə orta illik temperatur 13.5-14.6 arasında dəyişir. İsti ayların temperaturu xeyli yüksəkdir ( 23.0-25.5 ) . Nisbətən isti qış mövsümündə temperatur 2.6-3.6º C-dən aşağı düşmür . Fəal temperaturların cəmi 4200-4500 arasında dəyişir. Yağıntıların əsas hissəsi ilkin yaz və payız aylarında düşür, illik miqdarı isə 110-232 mm arasında dəyişir. İllik buxarlanma (947-1210 mm) illik yağıntının miqdarından bir neçə dəfə yüksəkdir. Rütubətlənmə əmsalı 0.25-0.09 –a bərabərdir. Torpaqda üzvi maddələrin miqdarı az olub, 0.3-0.8 % təşkil edir, azotun , fosforun və kaliumun miqdarı buna müvafiq olaraq cüzi miqdar təşkil edir. Karbonatların miqdarı geniş həddə (3-29 % arasında dəyişir və başlıca olaraq ana süxurların və balıqqulağı qırıntılarının miqdarından asılı olur.Müşahidə və müqayisələrin nəticələri aşağıdalı cədvəldə verilmişdir (Cədvəl 1).

**Nəticələr və onların müzakirəsi:**Türyançay qoruğu ərazisində ardıc ağaclarının fenoloji fazlarının öyrənilməsi göstərir ki, Abşeron yarımadası ərazisində fenoloji fazalar təxminən 15 – 20 günlük gecikmə ilə baş verir ( Cədvəl 1 ) . Bu fərq orta illik temperatur fərqi ilə izah oluna bilməz, çünki orta illik temperatur bu iki ərazidə demək olar ki, eynidir. Lakin yağıntının miqdarında Abşeron yarımadası Turyançay ərazisindən kəskin fərqlənir. Ardıc kimi kserofit bir bitki üçün üçün yağıntının miqdarı fenoloji fazalara o qədər həlledici təsir göstərə bilməz və ardıcın Abşeron yarımadasında fenoloji fazalarda ləngiməsi buradakı sıx bitki örtüyünün torpağın temperatur rejimini ekoloji cəhətdən yumşaltması ilə izah oluna bilər.Türyançay Dövlət Təbiət Qoruğunun ərazisində torpaq 20-30 % arası bitki ilə örtüldüyü halda Dendrologiya İnstitutu ərazisində bitki örtüyü dəfələrlə sıx, beləcə su və temperatur rejimi daha yumşaqdır.

Naxçıvan Muxtar Respublikası ərazisində kəskin kontinental iqlim və yüksək dağlıq ərazilərdə iki əsas ardıc növü: Ağıriyli ardıc (*Juniperus foetidissima*) və çoxmeyvəli ardıc (*Juniperus polycarpos*) yayılmışdır.

**Cədvəl 1** J.*rufescens* , *J.foetidissima* , *J. polycarpusun* Turyançay Dövlət Qoruğu ərazisndə fenoloji inkişaf fazalar (*Tozlanma fazası göy, giləmeyvəyəbənzər qozaların əmələ gəlməsi qırmızı, toxumların yetişməsi yaşıl rənglə göstərilmişdir*.)




**Cədvəl** *J.communis* , *J.foetidissima* , *J. polycarpusun* Abşeron yarımadasında fenoloji inkişaf fazaları






*J.foetidissima* , *J. polycarpusun* Respublikanın cənub-qərb meşələrində fenoloji inkişaf fazaları










Burada fenoloji fazalar hər iki regionu: həm Turyançay Dövlət Təbiət Qoruğu və həm də Abşeron yarımadasını qabaqlayır. Demək iqlim şəraiti kontinental olduqca ardıc daha tez inkişaf etməyə başlayır. Torpaqda aşağı temperaturun təsirindən təbii stratifikasiyaya məruz qalan ardıc havanın temperaturunun artması ilə makro- və mikrostrobillər əmələ gətirərək tozlanmaya başlayır. Abşeron yarımadasında Dendrologiya İnstitutunun ərazisndə sıx bitki örtüyü torpaqda temperaturun kəskin dəyişilməsinin qarşısını alır.Məhz bu səbəbdən də bu ərazidə introduksiya olunmuş ardıc kolları fenoloji fazalara görə ləngiyir.

Turyançay Dövlət Qoruğu ərazisndə J.*rufescens* , *J.foetidissima* , *J. polycarpusun* fenoloji inkişaf fazaları 2012 , 2013, 2014 cü illərdə qeydə alınmışdır. Cədvəldən də göründüyü kimi, ağıriyli ardıc aprel ayının əvvəlləri və ortasında tozlanmağa başlayır. 2013 və 2014 cü illərdə orta illik temperatur 2012 –ci ildən yüksək olduğundan fenoloji fazalarda da bu tendensiya özünü göstərir. Qozaların əmələ gəlməsi iyun ayında, toxumların yetişməsi isə oktyabr noyabr aylarına təsadüf edir. Qırmızı ardıc aprel –may aylarında tozlanmağa başlayır, qoza meyvələr iyul ayında əmələ gəlir, toxumlar isə noyabrda yetişir.

Respublikanın cənub-qərb meşələrində Naxçıvan MR ərazisində yalnız ağıriyli və çoxmeyvəli ardıc yayılmışdır. Onların fenoloji fazaları cədvəldə əks olunmuşdur. Cədvəldən də göründüyü kimi, ağıriyli ardıc aprelin ortalarında və əvvəlində, çoxmeyvəli ardıc isə aprelin ortasında tozlanmağa başlayır.Hər iki növ iyun ayının ortalarında qoza meyvə əmələ gətirir və bu meyvələrdə toxumlar noyabrın əvvəllərində yetişir.

Dendrologiya İnstitutunun ərazisində ağıriyli ardıc, çoxmeyvəli ardıc və adi ardıcın fenoloji fazaları yarımstasionar şəraitdə qeydə alınmışdır. Adi ardıc aprel ayının ortalarında tozlanmağa başlayır, qoza meyvələrin əmələ gəlməsi iyun ayının axırlarına təsadüf edir və toxumlar əsasən noyabr ayında yetişir.

**ƏDƏBİYYAT SİYAHISI**


1. Əsgərov A.M. Azərbaycanın ali bitkiləri (Azərbaycan florasının konspekti) Bakı: Elm, c. I, 2006
2. Məmmədov T.S. "Azərbaycan dendroflorası". Üç cilddə Bakı,«Elm»2011-2016
3. Qurbanov E.M. Ali bitkilərin sistematikası, Bakı Dövlət Universiteti Nəşriyyatı-2009, səh:117-119
4. Базилевская Н.А. Теория и методы интродукции растений. М, Изд. МосковскогоУниверситета 1964, стр. 129.
5. Adams, R. P. and A. E. Schwarzbach. 2012. Taxonomy of Juniperus section Juniperus: Sequence analysis of nrDNA and five cpDNA regions. Phytologia 94(2): 280-297.
6. Adams, R. P. and A. E. Schwarzbach. 2013. Phylogeny of Juniperus using nrDNA and four cpDNA regions. Phytologia 95(2): p. 179-187
7. Adams R.P. Junipers of the World / The genus Juniperus / 4th Edition, 2015 (online ) 415 p
8. Adams, R. P., V. Farzaliyev, A. N. Tashev and A. E. Schwarzbach. 2015. Juniperus communis f. pygmaea in Azerbaijan: analyses of nrDNA and cpDNA regions. Phytologia 97(1): 6-11
9. http//www.iucn.org/themes/ssc/sis/redlist.html

2017. Volume 1, Number 2 Pages 160-167

UOT: 635.92

# WILD ORNAMENTAL GRASSES IN QUBA-QUSAR DISTRICTS OF AZERBAIJAN

**P.N. AGHAYEVA, P.X. QARAKHANI**
Institute of Botany
Azerbaijan National Academy of Sciences
Baku / AZERBAIJAN
*apn_aghayeva@yahoo.com*

**ABSTRACT**

Present article deals with wild ornamental plants collected in Quba and Qusar districts during 2013-2016 years. In total about 400 herbarium specimens were identified, the identification was based on main diagnostic features and 178 taxa residing to the various plant groups were registered. Taxonomic structure based on new nomenclature, the live forms and morphological types, diversity of plants depending on altitude and their relation to the light and humidity were reflected. Rare and endemic species were also indicated.

**Key words:** plant, taxa, species, genera, family, diversity.

**AZƏRBAYCANIN QUBA VƏ QUSAR RAYONLARININ YABANI DEKORATİV OTLARI**

**XÜLASƏ**

Məqalədə Quba və Qusar rayonlarından 2013-2016-cı illərdə toplanılmış yabanı dekorativ ot bitkiləri barədə məlumat verilir. Bütövlükdə toplanılmış 400-dən artıq herbari nümunəsi mühüm morfoloji əlamətlər nəzərə alınaraq təyin edilmişdir və 178 taksa müəyyən edilmişdir. Dekorativ ot bitkilərinin yeni nomenklaturaya əsaslanaraq taksonomik strukturu, taksonların həyatı formaları, morfoloji tipləri, hündürlükdən asılı olaraq yayılması, işığa və rütubətə münasibəti qeyd edilmişdir. Endem və nadir növlər göstərilmişdir.

**Açar sözlər:** bitki, takson, növ, cins, fəsilə, müxtəliflik.

**ДИКОРАСТУЩИЕ ДЕКОРАТИВНЫЕ ТРАВЫ ГУБИНСКОГО И ГУСАРСКОГО РАЙОНОВ АЗЕРБАЙДЖАНА**

**РЕЗЮМЕ**

В статье приводятся данные о дикорастущих декоративных травянистых растениях, собранных в 2013-2016 годах в Губинском и Гусарском районах Азербайджана. В целом собрано и определено более 400 гербарных образцов, учтены важные морфологические признаки, выявлено 178 таксонов. Основываясь на новую номенклатуру указаны таксономическая структура декоративных травянистых растений, жизненные формы, морфологические типы, распространение в зависимости от высоты, и влажности. Выявлены эндемичные и редкие виды.

**Ключевые слова:** растения, таксон, вид, род, семейство, разнообразие.

## Giriş

Bioloji müxtəlifliyin qorunmasında prioritet strategiya yabanı floranı öyrənməkdir. Otlar dünyanın yaşıl örtüyünün mühüm, lakin çox zaman etinasız yanaşılan hissəsidir. Böyük Qafqazın Cənub Şərqində yerləşən Quba və Qusar rayonlarında gözəl çiçəkləyən yabanı bitkilər çoxluq təşkil edir [13]. Burada hündürlükdən asılı olaraq fərqli qurşaqlarda, fərqli ekoloji mühitlərdə bitən və dekorativ xüsusiyyətinə görə diqqəti cəlb edən növlərə tez-tez rast gəlinir. Onların arasında tək-tək bitən, kiçik və ya böyük sahələrdə örtük əmələ gətirən ot bitkiləri də vardır. Hələ ötən əsrin 40-cı illərində Qafqazın bitki ehtiyyatlarının öyrənilməsinin nəticəsi kimi 600 növ, 50-ci illərdə isə 1176 dekorativ bitki növü qeyd edilirdi [9, 10, 15]. Bir qədər sonra aparılmış tədqiqatlar nəticəsində Böyük Qafqazın Azərbaycan hissəsi üçün göstərilən çiçəkli bitkilərin 40% -nin dekorativ-çiçəkli olması və onlardan bu məqsədlə istifadə imkanları göstərilmişdir [16].

Ot bitkilərinin əksəriyyəti erkən yazdan başlayaraq, bol işıq dövründən faydalanır və qar əridikdən dərhal sonra, bəzən nazik qar təbəqəsini yararaq altından qalxır və sonrakı iki ay ərzində meyvələmə də daxil olmaqla yerüstü inkişaflarını tamamlayırlar. Daha sonra onlar yenidən tumurcuqlayır, sakitlik dövrünə keçirlər. Yaz bitkilərinin əhəmiyyətli hissəsini efemerlər təşkil edir. Yaz efemerləri termini mahiyyət etibarilə dəqiq müəyyən edilməmişdir, lakin 40-60 gündən ibarət çox kiçik epigey (yalnız torpaqüstü cücərtilərin olduğu) inkişaf dövrünü əhatə edir. Bu bitkilər fenoloji cəhətdən çox müxtəlif olsalar da onları birləşdirən ümumi cəhətlər az deyildir. Epigey inkişaf dövründə çoxillik bitkilər karbohidratları toplayır və növbəti ildə inkişaf üçün tumurcuqlar əmələ gətirirlər. Onların sakitlik dövrü çox da dərin deyil, belə ki, yayda sükünətdə olan orqanın tumurcuğunda differensasiya prosesi davam edir [6]. May ayının sonu və iyun ayının əvvəlindən bir çox bitkilər kütləvi çiçəkləməyə başlayırlar, bir sıra bitkilərdə çiçəkləmə sentyabr və oktyabr aylarınadək davam edir.

Otları tipik olaraq birillik, ikillik və çoxillik növlərə ayırırlar. Birillik otlar, adından məlum olduğu kimi inkişaflarını bir ildə tamamlayırlar və bir müddət onların toxumları təbiətdə qalır. Onlar adətən ekosistemə daxil olduqları ilk illərdə çox da nəzərə çarpan deyillər. Yerli mühitə uyğunlaşdıqdan sonra bu bitkilərin eksponensial artımı və geniş yayılması müşahidə edilir. Məlum olduğu kimi bir sıra otların həyat tsikli iki ildir və birinci ildə yarpaq, qısa gövdə və kök əmələ gətirərək, soyuq aylarda sükunət dövrünə keçirlər. Növbəti ildə gövdə uzanır, bitki çiçəkləyir və məhv olmazdan əvvəl meyvə və toxumlar əmələ gəlir. Lakin ekstrim şəraitlərdə ikilliklər həyat tsiklini əhəmiyyətli şəkildə qısa müddətə (hətta 3-5 ay) tamamlayırlar. Buna görə də bəzən ikillik bitkilər birilliklər kimi qəbul edilirlər. Çoxillik otların ömrü iki ildən artıqdır, təkrar yanmalar və otarılmalara qarşı davamlıdırlar. Onlar vegetativ yollarla və toxumla çoxalır, payızda və ya qışda məhv olur, yenidən yazda və yayda çiçəkləyirlər. Otları həyatı formalarına görə fərqləndirmək ekoloji nöqteyi-nəzərdən faydalıdır, belə ki, bu üç geniş bitki tipi üçün təsirlər və potensial nəzarət strategiyaları fərqlidir [7].

Bu məqalədə tədqiqatin məqsədi Quba və Qusar rayonlarında yaz və yay fəsillərində rast gəlinən dekorativ ot növlərinin müxtəlifliyi araşdırılır, ekoloji mühitdə onların bitmə şəraiti və hündürlükdən asılı olaraq rast gəlinməsi qeyd edilir.

## Material və metodlar

Tədqiqat materialları Quba (2574 km$^2$) və Qusar (1542 km$^2$) rayonları ərazisindən 2013-2016-cı illərdə yaz və yayda müxtəlif marşrutlar üzrə toplanmışdır. Bitkilərin bitmə yerləri çöl ekspedisiyaları zamanı müəyyən edilmiş, nümunələrin GPS koordinatları götürülmüşdür. Əsas tədqiqat sahələri kimi Quba rayonu ərazisində Qəçrəş, Qrız Dəhnə, Cek, Qələdüz, Təngəaltı və Qusar rayonu ərazisində Yeni Həyat, Urva, Xuray, Anığ, Şahdağ turizm kompleksinədək olan yol kənarı seçilmişdir. Ot bitkiləri fenoloji əlamətlər (çiçək, gövdə və yarpaq quruluşları) və estetik formalar nəzərə alınmaqla dekorativ baxımdan qiymətləndirilmişdir. Hər bir bitki nümunəsinin qısa xarakteristikası qeyd edilmiş, herbari nüsxəsi qurudulmuş və foto sənədləşməsi aparılmışdır. Bitki növlərinin təyinatında morfoloji əlamətlər nəzərə alınmış, bəzi bitkilərin çiçək və toxum quruluşlarını izləmək üçün stereo (dissecting) mikroskopdan istifadə edilmişdir. Növlərin təyinatı məlum flora, konspekt və təyinedicilər üzrə aparılmışdır [2, 3, 10, 11, 12, 14, 17]. Təyin edilmiş növlərin statusu “Global Compositae Checklist” (www.compositae.org) və "Kew Royal Botanic Gardens" (http://www.kew.org) internet portallarındakı məlumatlara əsasən və cinsdən yuxarı taksonlar müasir təsnifat sistemləri üzrə [4, 8] verilmişdir.

## Nəticələr və onların müzakirəsi

Quba və Qusar rayonları 500-4466 m d.s.h. təbii floristik zənginliyə malik fərqli yüksəklik (dağətəyi, aşağı, orta, yuxarı dağ qurşaqları, subalp, alp) qurşaqları üzrə yerləşirlər. Bu rayonların ərazilərində bitən otların əhəmiyyətli hissəsi istisnasız olaraq yaz florasına aiddir. Erkən yazda qar əriməyə başlayarkən bozumtul və yeknəsək görünən çəmənliklərdə təzə cücərən və görünüşü ilə cəlb edən parlaq çiçəkli növlər müşahidə edilir. Buraya fevral ayının sonu və mart ayında çiçəkləyən *Corydalis, Galanthus, Primula* və *Viola* cinslərindən olan növlər aiddir. Bir qədər sonra aprel ayında bu rəngarəngliyə *Adonis, Androsace, Dictamnus, Fritillaria, Ophrys, Orchis, Scilla, Matthiola, Nepeta, Ranunculus, Tulipa* və *Vinca* cinslərinin bəzi növləri də əlavə olunur. May ayında əvvəlki aylarda çiçəkləyən bir çox cinslərin nümayəndələri ilə yanaşı *Anacamptis, Aster, Bellis, Betonica, Caltha, Calystegia, Campanula, Cephalanthera, Glaucium, Himantoglossum, Limodorum, Matthiola, Papaver, Platanthera, Poligonatum, Reseda, Roemeri, Saxifraga, Sempervivum* və *Stachys* cinslərindən olan bitki növləri zənginliyi artırır. Bu bitkilər erkən yaz--dan başlayaraq meşə, çəmənlik, yol kənarına yaxın meşə zolaqlarında tək-tək, bəzən kiçik qrup--lar, bəzən isə xalılar əmələ gətirirlər. Onların əksəriyyətinin (*Galanthus caucasicus* (Baker) A. Grossh., *G. caspicus* (Rupr.) A.Grossh., *Viola alba* Bess., *V. odorata* L.) çiçəkləmə dövrü qısadır. Lakin aralarında yazdan başlayaraq yayın otralarınadək çiçəkləyən növlər (*Aster roseus* Desf., *Campanula elatior* (Fom.)A.Grossh., *Scutellaria orientalis* L.) də vardır.

***Dekorativ otların müxtəlifliyi.*** Təyin edilmiş növlər pteridofitlərin və örtülütoxumluların müasir filogenetik sistemləri nəzərə alınaraq təsnifləşdirilmişdir. Pteridofitlərdən yalnız Equisetales sırasından *Equisetum arvense* L., Polypodiales sırasından *Dryopteris filix-mas* (L.)Schott növünə təsadüf edilmişdir. Birləpəlilər (Monocot) iki sıra (Liliales, Asparagales) daxilində altı fəsiləyə və 19 cinsə aid 27 növlə təmsil olunmuşlar (Cədvəl 1). İkiləpəlilər (Eudicot, Core-Eudikots) 18 sıra (1 sıra qeyri-müəyyən olmaqla) daxilində 31 fəsilə və 77 cinsə aid 149 növü əhatə edir. Növ sayına görə Asparagales (23), Fabales (20), Lamiales (17) və Asterales (31) sıraları üstünlük təşkil edirlər. Fəsilələrə baxdıqda Orchidaceae (15), Violaceae (16), Fabaceae (19), Lamiaceae (17) və Asteraceae (25) növ sayına görə dominantdırlar. Cinslərin əksəriyyəti bir növlə qeydə alınmışdır.

**Cədvəl 1 .** Dekorativ otların taksanomik strukturu

| Bitki qrupları | Sıra | Fəsilə | Cins | Növ sayı |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| Pteridophyta | | | | 1 |
| Equisetopsida | Equisetales | Equisetaceae | *Equisetum* L. | |
| Pteridophyta | | | | 1 |
| Polypodiopsida | Polypodiales | Dryopteridaceae | *Dryopteris* Adans. | |
| Monocot | Liliales | Liliaceae | *Fritillaria* L., *Lilium* L., *Tulipa* L. | 3 |
| | Asparagales | Amaryllidaceae | *Galanthus* L., | 2 |
| | | Asparagaceae | *Polygonatum* Mill., *Ornithogalum* L., *Scilla* L. | 4 |
| | | Iridaceae | *Crocus* L., *Iris* L. | 2 |
| | | Orchidaceae | *Anacamptis* Rich., *Cephalanthera* Rich., *Epipactis* Zinn, *Gymnadenia* R.Br., *Himantoglossum* Spreng., *Limodorum* Boehm., *Ophrys* L., *Orchis* Tourn. ex L., *Platanthera* Rich. | 15 |

| | | | | |
|---|---|---|---|---|
| Eudicots | Ranunculales | Ranunculaceae | *Actaea* L., *Adonis* L., *Caltha* L., *Consolida* (DC.)Gray, *Ranunculus* L. | 10 |
| **1** | **2** | **3** | **4** | **5** |
| | | Papaveraceae | *Corydalis* DC., *Glaucium* Mill., *Papaver* L., *Roemeria* L. | 13 |
| Core Eudicots, Superrosids | Saxifragales | Crassulaceae | *Sempervivum* L. | 1 |
| | | Saxifragaceae | *Saxifraga* L. | 1 |
| Rosids | Oxaliales | Oxalidaceae | *Oxalis* L. | 1 |
| | Sapindles | Rutaceae | *Dictamnus* L. | 1 |
| | *Malpighiales | Euphorbiaceae | *Mercurialis* L. | 1 |
| | | Linaceae | *Linum* L. | 4 |
| | | Violaceae | *Viola* L. | 16 |
| Fabids | Fabales | Fabaceae | *Astragalus* L., *Galega* L., *Lathyrus* L., *Lotus* L., *Trifolium* L., *Vicia* L. | 19 |
| | | Polygalaceae | *Polygala* L. | 1 |
| | Myrtales | Lythraceae | *Lythrum* L. | 1 |
| | Rosales | Rosaceae | *Filipendula* Mill., *Potentilla* L. | 4 |
| Malvids | Brassicales | Brassicaceae | *Crambe* L., *Matthiola* W.T.Aiton | 4 |
| | | Resedaceae | *Reseda* L. | 1 |
| | | Geraniaceae | *Geranium* L. | 1 |
| Superasterids | Caryophyllales | Caryophyllaceae | *Gypsophila* L., *Melandrium* Roehl., *Silene* L. | 3 |
| Asterids | Eeicales | Balsaminaceae | *Impatiens* L. | 1 |
| | | Primulaceae | *Androsace* L., *Primula* L. | 5 |
| Lamiids | Gentianales | Apocynaceae | *Vinca* L. | 1 |
| | | Gentianaceae | *Gentiana* L. | 2 |
| | | Rubiaceae | *Galium* L. | 1 |
| | Lamiales | Lamiaceae | *Ajuga* L., *Betonica* C.Koch., *Calamintha* Mill., *Clinopodium* L., *Dracocephalum* L., *Nepeta* L., *Scutellaria* L., *Stachys* L., *Teucrium* L. | 17 |
| | | Orabanchaceae | *Diphelypaea* D.H.Nicol., *Orobanche* L. | 2 |
| | | Scrophulariaceae | *Rhynchocorys* Griseb., *Verbascum* L. | 2 |
| | Solonales | Convolvulaceae | *Calystegia* R.Br. | 1 |
| | Unranked | Boraginaceae | *Echium* L., *Nonea* Medik., *Symphytum* L., *Myosotis* L. | 4 |
| Campanulids | Apiales | Apiaceae | *Carum* L. | 1 |
| | Asterales | Asteraceae | *Aster* L., *Bellis* L., *Carduus* L., *Centaurea* L., *Crepis* L., *Eupatorium* L., *Inula* L., *Lactuca* L., *Lapsana* L., *Leucanthemum* Mill., *Pojarkovia* (Schischk.)Greuter, *Pyrethrum* Zinn, *Senecio* L., *Symphyotrichum* Nees, *Tanacetum* L., *Taraxacum* F.H.Wigg., *Tragopogon* L. | 25 |
| | | Campanulaceae | *Campanula* L. | 6 |
| | Dipsacales | Adoxaceae | *Scabiosa* L. | 1 |

**Qeyd:** (*) Qeyri- müəyyən yerləşdirmə

Dekorativ ot bitkilərini A.A.Qrosheim [10] tərəfindən təklif edilmiş bölgü üzrə qruplaşdırdıqda növlərin beş qrup üzrə birləşdiyini görürük. Birinci və üçüncü qrupa aid bitkilər ən çox rast gəlinənlərdir. Birinci qrup çoxillik otlar özlüyündə 15 tipi birləşdirir. Tədqiqat işində istifadə edilən bitkiləri taxıllar istisna olmaqla digər tiplərə aid etmək olar. Traqant (*Astragalus alpinus, A. glycyphyllos, A. kubensis, A. lentiginosus*), akant (*Verbascum,* bəzi *Astragalus* spp.), süpürüm (*Gypsophila elegans*), məxmər (*Teucrium, Stachys* spp., *Pojarkovia*), quruçiçəklilər (parlaq rəngli çoxilliklər), şoran-halofitlər, qijikimilər (*Dryopteris*), çətirçiçəklilər (*Carum carvi*), çobanyastı-ğıkimilər (*Pyrethrum, Aster, Bellis*), peygəmbərçiçəklilər (*Centaurea, Psephellus*), süsənlər (*Fritillaria, Lilium, Tulipa*), qiş sukkulentləri (*Sempervivum*), yay bitkilərindən (yarpaq şəkilli yay bitkiləri *Driopteris*) iriçiçəkli (*Papaver*) və adi yay bitkiləri (*Delphinium*, *Consolida*, *Trifolium*, *Galega*, parlaq bənövşəyi çiçəkli *Astragalus onobrychis, Lathyrus, Silene, Echium, Dracocephalum, Betonica, Geranium, Filipendula, Linum, Viola, Dictamnus*), nəhayət xalı əmələ gətirənlər (*Potentilla*, *Primula*, *Ranunculus*) aiddir. İkinci qrupa tez çiçəkləyən birilliklər - efemerlər (*Campanula*, *Papaver*, *Roemeria*) daxildir. Üçüncü qrupda soğanaqlı və kökümsovlu bitkilər (*Tulipa, Lilium, Fritillaria, Scilla, Muscari, Iris, Galanthus, Orchis, Cephalanthera*) yerləşir. Dördüncü qrupa çim əmələ gətirən bitkilər aid edilir ki, onlar dekorativ baxımdan çox da gözəgəlimli deyillər. Beşinci qrupa sukkulent (*Sempervivum*) və yastıqşəkilli tipləri (*Saxifraga, Potentilla, Campanula*) əhatə edən qaya bitkiləri daxildir. Altıncı qrupa su bitkiləri aid edilir ki, bunlar tədqiqat işində nəzərə alınmamışdır.

***Dekorativ otların həyati formaları:*** Ərazidən toplanılan dekorativ otları həyati formalarına görə bir neçə qrupa ayırmaq olar (Cədvəl 2). Çoxillik otlar bir- və ikilliklərlə müqayisədə sayına və müxtəlifliyinə görə üstünlük təşkil edir. Birilliklərin (*Androsace barbulata* Ovcz., *Glaucium corniculatum* (L.) Curt., *Ranunculus scleratus* L., *Vicia sativa* L., *Viola vesperina* Klok.) həyat tsiklinin tamamlanması bitmə şəraitindən və digər ekoloji amillərdən asılı olaraq iki və ya daha çox il tələb edə bilər. Oxşar tendensiya ikilliklərdə (*Carum carvi* L., *Reseda microcarpa* L.) də müşahidə edilir. Bəzi bitkilər (*Senecio squalidus* subsp. *rupestris* (Walds et Kit) Greuter, *Silene latifolia* Poir.) isə bir, iki və çoxillik ola bilirlər.

**Cədvəl 2.** Dekorativ otların həyati formaları

| Həyati formalar | Növlərin sayı | %-lə |
|---|---|---|
| Birilliklər | 23 | 12.9 |
| İkiilliklər | 6 | 3.4 |
| Çoxilliklər | 135 | 75.8 |
| Bir və ikilliklər | 7 | 4 |
| İki və çoxilliklər | 4 | 2.2 |
| Bir, iki və çoxilliklər | 3 | 1.7 |
| Cəmi | 178 | 100 |

***Dekorativ otların morfoloji tipləri***: Tədqiqat işinə daxil edilmiş otları aşağıda qeyd edilən morfoloji tiplərə ayırmaq olar: düz qalxan gövdəli, rozet əmələ gətirənlər, megafitlər, yastıqcıqlar və sarmaşan bitkilər. Düz qalxan gövdəli bitkilərədən *Centaurea cheiranthifolia* Trautv., *Campanula latifolia* L., *C. elatior* L. və s. göstərmək olar. Müxtəlif fəsilələrdən olan, əsasən Asteraceae və Brassicaceae fəsilələrinə aid ikilliklər roset əmələ gətirirlər. Buraya *Gentiana cruciata* L.,*Taraxacum officinale* (L.)Weber ex F.H. Wigg, *Primula algida* Ad., *P.woronowii* A.Los., *Sempervium stoloniferum* və s. qeyd etmək olar. Megafit (*Campanula latifolia* L.) və yastıqcıqlar (topalar) əmələ gətirənlər (*Saxifraga mollis* Smith.), sərilmiş gövdəli (*Astragalus alpinus*, *A. lentiginosus* Dougl. ex Hook) və sarmaşan (*Vicia crassa* L., *V. sepium* L.) bitkilər də aid edilir.

***Dekorativ otların yüksəklikdən asılı olaraq yayılması.*** Otların yüksəklikdən asılı olaraq yayılması əsasən çöl səfərləri zamanı nümunələrin toplanılma yerinə görə müəyyən edilmişdir. Bu məlumatlar bəzi taksonlar üçün Azərbaycan florası çöxcildliyində verilənlərlə və institutun herbarisində saxlanılan nüsxələrlə müqayisə edilmişdir. Ümumiyyətlə növlərin əksəriyyəti birdən çox yüksəklikdə təsadüf edilir (Cədvəl 3). Bunu nəzərə alaraq bitkiləri daha çox təsadüf edilən yüksəkliyə görə formal olaraq qruplaşdırmışıq.

Ancaq düzənlikdə yayılan növlər (*Mercurialis perennis* L., *Tragopogon pratensis* L., *Vicia crassa* L.) çox deyildir. Belə ki, düzənlikdən yuxarı dağ qurşağınadək (*Filipendula hexapetale* Gilib. *Lotus caucasicus* Kupr., *Polygala anatolica* Boiss. & Heldr., *Trifolium montanum* L., *T. repens* L.), düzənlikdən subalpadək (*Campanula hohenackeri* F. et M., *Equisetum arvense* L., *Senecio vernalis* Waldst. & Kit.), düzənlikdən orta dağ qurşağınadək (*Campanula lambertiana* A.D.C., *Cephalanthera damasonium* (Mill.) Druce, *Lotus corniculatus* L., *Ophrys oestrifera* M.Bieb., *Ranunculus poly anthemos* L., *Trogopogon graminifolius* DC., *Viola* spp.), həm subalp, həm də alp yüksəkliyində (*Betonica grandiflora* Willd., *Caltha polypetala* Hochst., *Trifolium trichocephalum* M. Bieb., *Viola somchetica*) yayılan növlər vardır. Aşağı və orta dağ qurşağında daha çox sayda növə (*Cephalanthera longifolia* (Huds.)Fritsch., *Consolida divaricata* (Ledeb.)Schröd., *Corydalis angustifolia* (M.Bieb.) DC., *Crocus adamii* J.Gay., *Galanthus caucasicus*, *Iris caucasica* Hoff., *Orchis corifophora* L., *Tulipa bibersteiniana* R. et Sch.) təsadüf edilir.

**Cədvəl 3.** Dekorativ otlarının hündürlükdən asılı olaraq yayılması

| Qurşaqlar | Növlərin sayı | %-lə miqdarı |
|---|---|---|
| Düzənlik (20-400 m d.s.h.) | 34 | 19.1 |
| Dağətəyi (400-800 m d.s.h.) | 41 | 23 |
| Aşağı dağ qurşağı (600-1000 m d.s.h.) | 42 | 23.6 |
| Orta dağ qurşağı (800-1200 (1800) m d.s.h.) | 31 | 17.4 |
| Yuxarı dağ qurşağı (1800-2400) | 16 | 9 |
| Subalp | 11 | 6.2 |
| Alp | 3 | 1.7 |
| Cəmi | 178 | 100 |

***İşığa münasibət.*** Otların əksəriyyəti heliofitlər - bol işıq sevənlərdir. Çəmənliklərdə yayılan növlər üstünlük təşkil edir. Onları daha çöx **dağ çəmənliklərində** yayılanlara (*Poligonatum polyanthemum* (M.Bieb)Dietr., *Primula algida, Ranunculus elegans* C.Koch, *Viola oreades* M.Bieb., *Viola somchetica, V. vespertina* Klock.), rütubətli çəmənlərdə məkunlaşanlara (*Orchis caucasica* (Klinge)Soo), **əkin və çay kənarı** çəmənliklərdə bitənlərə (*Consolida divaricata, C. orientalis* (J.Gay)Schrod., *Coridalis conorhiza* Ledeb., *V. Rupestris* F.W.Sch., *V. suavis* M.Bieb.), **otlu yamaclarda** rast gəlinənlərə (*Ornithogalum sigmoideum* Freyn & Sint., *Gymnadenia conopsea* (L.)R.Br., *Crocus adamii, Iris caucasica, Anacamptis pyramidalis* (L.)Rich., *Ranunculus cicutarius* Schlecht, *Papaver arenarium* M.Bieb., *P. commutatum* F. et M., *P. oreophilum* Rupr., *Viola odorata, Melandrium album* (Mill.)Garcke, *Vinca herbacea* Waldst. et Kit., *Filipendula hexapetala* Gilib., *Potentilla inclinata* Vill., *P. obscura* Willd., *Campanula* spp., *Aster ibericus*, Stev., *Tanacetum parthenifolium* (Willd.) Sch.Bip., *Scabiosa columbaria* L.), **əkinlər və quru yerlərdə** məskunlaşanlara (*Adonis aestivalis* L., *Ajuga pseudochia* L., *Astragalus onobrychis* L., *Carduus nutans* L., *Consolida orientalis*, *Crambe tatarica* Sebeók, *Dictamnus caucasicus* (Fisch.)A.Grossh., *Geranium robertianum* L., *Glaucium corniculatum, G. elegans* F. et M., *Linum luteolum* M.Bieb., *Lythrum salicaria* L., *Papaver arenarium* M.Bieb., *P. hybridum* L., *Potentilla obscura*., *P. inclinata, Reseda microcarpa, Roemeria refracta* DC., *Scutellaria orientalis, Stachys fruticulosa* M.Bieb., *Teucrium orientale* L., *Tulipa bibersteiniana*) ayırmaq olar.

Lakin ***meşədə, kolluqda*** bitən kölgəyə davamlı bitkilərə (fakultativ heliofitlər) də təsadüf edilir ki, bunlara aid *Equisetum arvense, Lilium monodelphum, Myosotis alpestris* Schmidt, *Nonea lutea* (Desr.)DC., *Ophrys coriophora* (Pollini), *O. palustris* Yacq., *O. caucasica* (Klinge)Soo., *Impatiens noli-tangere* L., *Lythrum salicaria* və s. qeyd etmək olar. Tam kölgəsevən bitkilərə (sisiofitlər) əsasən *Driopteris filix mas* (L.)Schott., *Mercurialis perennis, Oxalida acetosella* L. və s. növləri göstərmək olar. Buraya parazit növ olan *Diphelypaea coccineae* (M. Bieb.) D.H.Nicolson da aiddir.

**Nisbətən rütübətli** yerlərdə yayılmaqla mezofitlər ən çox rast gəlinən bitki qrupunu təşkil edir. Onlardan *Aster*, *Bellis*, *Galium*, *Tanacetum*, *Trifolium* və s. cinslərinin növlərini göstərmək olar.

***Gilli, quru gilli torpaqlarda bitənlər*** *Ranunculus cicutarius, Matthiola odoratissima, Reseda micro carpa, Viola Kitabeliana, V. occulta, Gypsophila elegans, Astragalus humilis, Scutellaria orientalis, Stachys fruticulosa, Linum luteolum* növləridir.

***Nadir və endem növlər.*** Baxılan növlərdən bir qismi Azərbaycan florasının nadir və endem növləri hesab edilir. *Astragalus kubensis* Grossh. (VU D2), *Crocus adamii* (VU B1 ab(iii,iv)+2ab(iii)), *Diphelypaea coccineae* (NT), *Epipactis palustris* (L.)Crantz (VU B1 ab(iii,iv) +2ab(iii)), *Himantoglossum formosum* (Steven) K.Koch. (EN A2acd+3bc; c1), *Limodorum abartivum* (L.) Swartz. (VU D2), *Ophrys oestrifera* (EN B1ab(iii)+2ab (iii)), *Platanthera chlorantha* Cust. ex. Rchb. (VU D2), *Primula algida* (VU A2c+3c), *Tulipa bibersteiniana*(VU A2c+3c) növləri Qırmızı Kitabın 2-ci nəşrinə daxil edilmişdir (Qırmızı Kitab 2013). Qeyd olunan növlərə tədqiqat ərazisində az-az rast gəlinir.

Tədqiq edilmiş növlərdən *Fritillaria lutea* M.Bieb., *Galantus caucasicus*, *Campanula hohenackeri* F.et M., *Iris caucasica*, *Linum hipercifolium* Salisb., *Matthiola odoratissima* (Pall.) R.Br., *Nepeta amoena* Stapf., *Pojarkovia pojarkovae* (Schischk.) Greuter (Syn.: *Senecio pojarkovae* Schischk.), *Primula woronowii* (NE), *Pyrethrum leptophyllum* Steven ex M.Bieb., *Symphyotrichum novae-angliae* (L.) G.L.Nesom (Syn.: *A. roseus* Desf.) (NE), *Stachys macrantha* (C.Koch) Stearn, *Platanthera chlorantha*, *Ranunculus elegans* və *Vicia alpestris* Stev. endem növlərdir.

Dekorativ bitkilərə həmişə böyük maraq olmuşdur. Ticari məqsədlə bütün dünyada 150-200 növ bəzək bitkisi intensiv olaraq çiçəkçilikdə istifadə edilir. Buraya otaq bitkilərini də əlavə etmək olar [5]. Bu növlərin əksəriyyəti yabanı formalardan seçmə və becərmə hesabına yaranmışdır. Avropanın bir sıra ölkələrinin botanika bağlarında, bitki mərkəzlərində mütəxəssislər tərəfindən toplanmış kolleksiyalar (bromeliya, səhləb, kaktus, sukkulent, novruzçiçəyi və s.) nəzərə alınmazsa yalnız xüsusi kolleksiyalarda 12000 növ və növ müxtəlifliyi aşkar edilmişdir. Yabanı dekorativ otların müxtəlifliyini üzə çıxarmaq, onların növ tərkibini aydınlaşdırmaq və onlardan gələcəkdə istifadə imkanlarını araşdırmaq böyük əhəmiyyət kəsb edir.

***Minnətdarlıq***

*Müəlliflər Botanika İnstitutunun Ali bitkilərin sistematikası şöbəsinin əməkdaşlarına göstərilmiş köməkliyə görə təşəkkürlərini bildirirlər.*

**ƏDƏBİYYAT**

1. **Azərbaycan Respublikasının Qırmızı Kitabı.** 2013. Nadir və nəsli kəsilməkdə olan bitki və göbələk növləri. İkinçi nəsr. Bakı,. 676c.
2. **Əsgərov A.** 2008.Azərbaycanın alı bitkiləri. Azərbaycan florasının konspekti. Bakı: Elm, I c. 2005. 247s., II c. 2006. 283s., III c. 240 s.
3. **Çolak A.H., Sorger F.** 2004. Türkiye çiçekleri. Genişletilmiş ikinci baskı. Ankara: Lazer Ofset Matbaa Tesisleri San. ve Tic. Ltd. Şti. 600 s.
4. **Angiosperm Phylogeny Group.** 2016. An update of the Angiosperm Phylogeny Group classification for the orders and families of flowering plants: APG IV. Botanical Journal of the Linnean Society. v.81, p. 1-20.
5. **Heywood V.** 2003. Conservation and sustainable use of wild species as sources of new ornamentals. In proceedings IS on sustainable use of plant biodiversity. Acta Horticulture. v. 598, p.43-53.
6. **Lapointe L.** 2001. How phenology influences physiology in decidupus forest sprong ephemerals. Physiologia plantarum. №103: 151-157.
7. **Milton S.J.** 2004. Grasses as invasive alien plants in South Africa. South African Journal of Science v. 100, №1, p. 69-75.

8. **Smith A.R., Pryer K.M., Schuettpelz E., Korall P., Schneider H., Wolf P.G.** 2006. A classification for extant ferns. Taxonomy. v. 55, №3, p. 705-731.
9. **Гаджиев В.Д.** 1962. Субальпийская растительность Большого Кавказа. Изд-во АН Азерб. ССР. Баку, 172 с.
10. **Гроссгейм А.А.** 1946. Растительные ресурсы Кавказа. Баку: Изд-во АН Азерб. ССР. 671с.
11. **Гроссгейм А.А.** 1949. Определитель растений Кавказа. М., 747 с.
12. **Зернов А.С.** 2010. Растения Российского Западного Кавказа. Полевой атлас. Москва: Товарищество научных изданий КМК, 448с.
13. **Карягин И.И.** 1928. Материалы по растительности Кубинского уезда. Изв. Азерб. Гос. Ун-та. №7, с. 121-141.
14. **Конспект флоры Кавказа.** Изд.-во Санкт-Петербургского университета. I том, 2003, 202с.; II том. 2006, 466с.; Товарищество научных изданий КМК, III(1)том 2008, 469с.; III(2) том 2012, 623с.
15. **Сердюков Б.В.** 1955. Обзор декоративных травянистых растений дикорастущей флоры Кавказа. Труды Тбил. бот. ин-та, т. XVII. с. 299-317.
16. **Тутаюк В.Х., Гаджиев В.Д., Вагабов З.В.** 1961. Дикорастущие декаративные растений в горах Большого Кавказа. Изв. АН Азерб. ССР. сер. биол. и мед. наук. №8, с.3-13.
17. **Флора Азербайджана.** Изд-во АН Азерб. ССР. Баку. Iт. 1950. 369с., II т. 1952. 317с., III т. 1952. 407с., IV т. 1953. 401с., v т. 1954. 578 с.,VI т. 1955. 539с.,VII т. 1957. 646с., VIII т. 1961. 688с.

2017. Volume 1, Number 2 Pages 168-175

UOT:612.43;591.147

# QARACİYƏR TOXUMASINDAN DİOSSİNİNİN TƏCRİD EDİLMƏSİNƏ MÜXTƏLİF KİMYƏVİ-TOKSİKOLOJİ AMİLLƏRİN TƏSİRİ

**İSKƏNDƏROV Q.B., HÜSEYNQULIYEVA K.F.**

Azərbaycan Tibb Universiteti, Ümumi və toksikoloji kimya kafedrası

Bakı / AZƏRBAYCAN

*k-f-h-82@mail.ru*

**XÜLASƏ**

İşdə diossininin qaraciyər toxumasından təcrid edilməsinə müxtəlif kimyəvi-toksikoloji amillərin təsirinin öyrənilməsi istiqamətində aparılan eksperiment tədqiqatların nəticələri şərh edilir. Tədqiqatlar diossininin iribuynuzlu qaramalın xırdalanmış qaraciyərinə əlavə etmə üsulu ilə hazırlanmış model sınaqlarda yerinə yetirilmişdir. Diossininin qaraciyərdən çıxarış edilməsinin optimal şəraiti müəyyən edildi: çıxarıcı həlledici – 90%-li etanol; bioloji material və çıxarıcı həlledici nisbəti – 1:3; bioloji materialla çıxarıcı həlledicinin təmas müddəti – 6 saat; çıxarışın sayı – 3 dəfə; mühitin pH-ı – neytral; temperatur rejimi – adi otaq şəraiti.Təklif edilən optimal şərait kimyəvi-toksikoloji analiz təcrübəsində diossinini bioloji materialdan təcrid etmək üçün uğurla istifadə edilə bilər.

**Açar sözlər:** diossinin, qaraciyər, kimyəvi-toksikoloji amillər.

**ВЛИЯНИЕ РАЗЛИЧНЫХ ХИМИКО-ТОКСИКОЛОГИЧЕСКИХ ФАКТОРОВ НА ИЗОЛИРОВАНИЕ ДИОСЦИНИНА ИЗ ТКАНЕЙ ПЕЧЕНИ**

**РЕЗЮМЕ**

В работе представлены результаты экспериментальных исследований по изучению влияния различных химико-токсикологических факторов на изолирование диосцинина из тканей печени. Исследование проводили на модельной пробе диосцинина с мелкоизмельченной тканью печени крупного рогатого скота методом добавок. Определены оптимальные условия изолирования диосцинина из печени: растворитель для изолирования – 90% этанол; соотношение биологического материала и изолирующего растворителя – 1:3; время контакта биологического материала с растворителем – 6 часов; кратность изолирования – 3 раза; pH среды – нейтральная; температурный режим – обычная комнатная температура. Установленные оптимальные условия с успехом могут применяться в химико-токсикологическом анализе для изолирования диосцинина из биологического материала.

**Ключевые слова:** диосцинин, печень, химико-токсикологические факторы.

**INFLUENCE OF VARIOUS CHEMICAL-TOXICOLOGICAL FACTORS ON ISOLATION OF DIOSCININ FROM LIVER TISSUE**

**ABSTRACT**

The paper presents the results of experimental investigations on studying of the effect of various chemical-toxicological factors on isolation of dioscinin from liver tissue. The investigation was carried out on a test model of dioscinin with finely ground liver tissue of cattle by supplements method. Were determined optimal conditions for isolation of dioscinin from the liver: the solvent for isolation - 90% ethanol; the ratio of the biological material and insulating solvent – 1 : 3; the contact time of the biological material with the solvent - 6 hours; the multiplicity of isolation - 3 times; pH - neutral; temperature control – a normal room temperature. Established optimum conditions can be successfully applied in the chemical-toxicological analysis for isolation of dioscinin from biological material.

**Key words:** dioscinin, liver, chemical-toxicological factors.

## Giriş

Diossinin dioskoreya bitkisindən Sovet alimləri tərəfindən 1967-ci ildə əldə edilmiş spirostan sıralı steroid qlikozid – yəni saponindir [1, 2]. Diossinin kimyəvi təbiətinə görə diosgeninin tetraozidi olub, karbohidrat zənciri 2 mol D-qlükoza və 2 mol L-ramnoza ilə təmsil olunur. Sovet alimləri diossininin dioskoreya bitkisindən alınma üsulunu işləyib hazırlamış və onun kimyəvi quruluşunu tam olmasa da qismən müəyyən etmişlər.

Həmin bitkinin müxtəlif növlərinin kökümsovlarından əldə edilmiş diosponin və polisponin dərman preparatları ateroskeleroz xəstəliyinin müalicə və profilaktikasında uzun müddət ərzində geniş istifadə edilir [3, 4]. Bu preparatların əsas bioloji fəal maddəsi həmin bitkinin tərkibində tapılan və suda yaxşı həll olan steroid tipli saponinlər məcmusudur. Lakin dioskoreya bitkisinin bir növünün (*Dioscorea caucasica*) xammal ehtiyatı qurtardığı üçün diosponin preparatının istehsalı müvəqqəti olaraq – yəni xammal ehtiyatı yaranana qədər – dayandırılmışdır [5]. Odur ki, bir tərəfdən həmin bitki növünün becərilməsi işinə ciddi fikir verilir [6], digər tərəfdən isə tərkibində göstərilən maddə olan yeni bitki xammallarının axtarılması istiqamətində çox geniş elmi-tədqiqat işləri yerinə yetirilir [6, 7]. Bu xammal ehtiyatlarına olan tələbat ödənildikdən sonra göstərilən preparatın istehsalının şübhəsiz yenidən bərpa olunacağı gözlənilir.

Qeyd etmək yerinə düşər ki, *Dioscorea* bitkisinin qlikozidlərinin genin hissəsi diosgenin olduğundan və bu maddə steroid hormon preparatlarının sintezi üçün ucuz başa gələn əlverişli xammal olduğu üçün tərkibində diosgenin və onun yaxın törəmələri olan bitki xammallarının axtarılması və tədqiq edilməsi problemi ilə demək olar ki, bütün dünya alimləri, bu sahənin mütəxəssisləri – bioloqlar, botaniklər, kimyaçılar, əczaçılar, texnoloqlar – məşğul olurlar [6, 7].

Azərbaycan Tibb Universitetinin ümumi və toksikoloji kimya kafedrasının əməkdaşları uzun illərdən bəri respublikamızın florasında yayılan bir çox saponinli bitkilərin tədqiq edilməsi, saponinlərin zəhərli xassəsini nəzərə alaraq onların və saponinli dərman preparatlarının kimyəvi-toksikoloji analiz üsullarının işlənib hazırlanması kimi vacib bir problemlə məşğul olurlar [8]. Belə saponinli bitkilərdən biri də geniş xammal ehtiyatına malik sürünən dəmirtikan *Tribulus terrestris* L. bitkisidir [9]. Qeyd etmək yerinə düşər ki, həmin bitki heyvanlar və insanlar üçün zəhərli hesab edilən bitkilər qrupuna aiddir. Bitkidən həmçinin bir çox ölkə alimləri bir sıra dərman preparatları (tribestan, tribusponin) əldə etmiş və bunlar respublikamızın dərman bazarında geniş yer tutmuşdur [10, 11]. Buna baxmayaraq həmin preparatlar, həmçinin bioloji fəal maddəsi olan saponinlər kimyəvi-toksikoloji cəhətdən tədqiq olunmamışdır. Biz bu problemlə məşğul olmağı lazım bildik.

Məlumdur ki, kimyəvi-toksikoloji analiz müxtəlif tədqiqat obyektlərində yalnız zəhərli maddə və onların metabolitlərinin analizini deyil, həmçinin farmakoterapiya məqsədilə istifadə edilən maddələrin və onların metabolitlərinin müxtəlif bioloji mayelərdə təyini üsullarını işləyib hazırlamaq kimi olduqca önəmli vəzifəni də yerinə yetirir. Çünki bunlar olmadan dərman maddələrinin farmakokinetik və toksikokinetik qanunauyğunluqlarını aşkar etmək mümkün deyil. Bu amillər məlum deyilsə həmin preparatla yüksək səviyyəli, effektli müalicəyə, yəni səmərəli farmakoterapiyaya nail olmaq qeyri-mümkündür. Bir sözlə yüksək səviyyəli farmakoterapiyaya nail olmaq üçün preparatın farmakokinetik qanunauyğunluqları ciddi nəzərə alınmalıdır, bunun üçün isə əlverişli kimyəvi-toksikoloji analiz üsullarından istifadə etmək lazım gəlir.

Bu istiqamətdə tədqiqatlar aparmaq məqsədilə ilk növbədə göstərilən bitki xammalından fərdi steroid qlikozidlərini almaq üçün xüsusi üsul işləyib hazırladıq [12]. Fərdi maddələrin kimyəvi təbiətləri araşdırıldı, onların quruluşu müəyyən edildi. Xammaldan 4 fərdi qlikozid aldıq. Onlardan üçü diosgeninin, biri isə ruskogeninin qlikozididir. Bitkinin əsas bioloji fəal maddəsi olan diosgenin qlikozidlərindən biri monozid, ikincisi triozid, ücüncüsü isə tetraozid – diossinindir [13]. Apardığımız tədqiqatlar nəticəsində diossininin kimyəvi quruluşu müəyyən olundu: diosgenin 3-O-β-D-qlükopiranozil-(1→4)-O-α-L-ramnopiranozil-(1→2)-O-[α-L-ramnopiranozil-(1→4)]-O-β-D-qlükopiranozid [14, 15]. Diossinin bu bitkinin əsas qlikozidi olduğundan və onun tərkibində həm monozid, həm də triozid molekulları təmsil olunduğu üçün biz əsas araşdırmalarımızı diossinin timsalında aparmalı olduq.

Məlum olduğu kimi hər bir məqsədli maddənin kimyəvi-toksikoloji analizi bir neçə ardıcıl mərhələlərin kombinasiyasından ibarətdir [16, 17]:

1. Məqsədli maddənin (təbii maddələr və metabolitlər) bioloji materialdan təcrid edilməsi və bunun üçün əlverişli təcrid olunma üsulu işləyib hazırlamaq;
2. Bioloji materialdan təcrid edilmiş məqsədli maddənin kənar müşayiətedici qarışıqlardan azad etmək və bunun üçün əlverişli üsullar təklif etmək;
3. Məqsədli maddənin vəsfi sübutu, bunun üçün klassik kimyəvi üsullarla yanaşı müasir fiziki-kimyəvi üsullardan istifadə etmək;
4. Məqsədli maddənin miqdari sübutu. Bunun üçün seçici, həssas, dəqiq, sübutedici üsullar təklif etmək.

Göstərilən mərhələlərdən daha vacib, önəmli hesab edilən birinci mərhələ, yəni tədqiqat obyektindən məqsədli maddənin maksimal dərəcədə təcrid olunmasıdır. Bunun üçün elə üsullar seçmək və ya işləyib hazırlamaq lazımdır ki, bioloji materialdan məqsədli maddəni (saponini) maksimum, kənar qarışıqları isə minimum dərəcədə təcrid etmək mümkün olsun. Tədqiqat obyektlərindən məqsədli maddələrin təcrid edilmə əməliyyatının özü də bir çox kimyəvi-toksikoloji parametrlərdən asılıdır [18, 19]. Həmin parametrlərin araşdırılması nəticəsində tədqiqat obyektlərindən məqsədli maddənin maksimal dərəcədə təcrid edilməsi üçün optimal şərait seçmək mümkündür.

Biz bu işimizdə qaraciyər toxumasından diossininin təcrid edilməsinə kimyəvi-toksikoloji parametrlərin göstərdikləri təsiri eksperiment yolla araşdırmağı qarşımıza məqsəd qoymuşuq.

## Material və metodlar

Tədqiqatlar üçün məqsədli maddə kimi sürünən dəmirtikan bitkisinin qurudulmuş və xıradlanmış yerüstü hissəsindən xüsusi işləyib hazırladığımız üsul əsasında əldə edilmiş fərdi və saf şəkilli diossinin istifadə olunmuşdur. Tədqiqat obyekti kimi iribuynuzlu qaramalın qaraciyəri əsasında hazırlanmış model sınaqlar (nümunələr) götürülmüşdür. Diossininin qaraciyər toxumasından təcrid edilməsinə kimyəvi-toksikoloji amillərin göstərdikləri təsir araşdırılmışdır [16-19]: a) cıxarıcı həlledicinin təbiəti; b) obyekt və çıxarıcı həlledicinin miqdari nisbətləri (qr və ml); c) çıxarıcı həlledicinin obyektlə təmas müddəti; d) çıxarışın sayı; e) temperatur rejimi; f) mühitin pH-ı. Göstərilən amillərin təsirləri model sınaqlar əsasında araşdırılmışdır.

<u>*Qaraciyərlə model sınağın hazırlanması.*</u> Əlavəetmə üsulu əsasında aşağıdakı kimi hazırlandı: iribuynuzlu qaramalın qaraciyərindən 100 qr götürüldü, qayçı ilə xırda-xırda doğranıldı, üzərinə 50 mq diossininin 3 ml suda məhlulu az-az paylarla müntəzəm qarışdırmaq şərtilə əlavə olunaraq, yaxşı qarışdırıldı, 24 saat adi otaq şəraitində saxlanıldı və növbəti tədqiqatlar üçün istifadə olundu.

<u>*Model sınaqdan diossininin ilkin təcrid edilməsi.*</u> Hazırlanmış model sınaq nümunələrindən müəyyən sayda götürüldü, hər biri üzərinə ayrı-ayrılıqda qaraciyər toxumasını tam örtənə qədər

müvafiq həlledici əlavə olundu və 3 saat çıxarış aparıldı. Maye çıxarış bioloji materialdan ayrıldı, süzüldü, su hamamı üzərində həlledici tam uzaqlaşdırıldı, qalıq quruducu şkafda 80-90$^0$C temperaturda sabit kütləyə qədər quruduldu, qalığın, yəni ekstraktiv maddələrin kütləsi müəyyən edildi. Quru qalıq az miqdar təmizlənmiş suda həll edildi, həll olmayan kənar maddələri uzaqlaşdırmaq üçün qarışıq süzgəc kağızından süzüldü, filtrat ardıcıl olaraq əvvəl benzol, sonra isə petroleyn efiri ilə ayırıcı qıfda işlənildi. Üzvi faza ayrıldıqdan sonra su fazası *n*-butanolla (0,5 həcm) ardıcıl olaraq 2 dəfə ekstraksiya edildi. *n*-Butanollu çıxarışlar birləşdirildi və 10%-li ammonyak ilə ayırıcı qıfda işlənildi. *n*-Butanollu çıxarışdan üzvi həlledici tam qovuldu. Alınmış quru qalıq az həcm 90%-li etanolda həll edildi, məhlulun tərkibində olan diossininin miqdarı fotometriya üsulu ilə təyin edildi [20].

Bu cür yanaşma və tədqiqatlar ayrı-ayrı hallarda, yəni hər bir parametrin diossininin təcrid olunmasına göstərdiyi təsiri araşdırarkən tətbiq olundu. Eyni zamanda müxtəlif parametrlərin məqsədli maddənin qaraciyər toxumasından təcrid edilməsinə göstərdiyi təsir araşdırılan zaman hər bir növbəti tədqiqat əvvəlki eksperimentlər nəticəsində müəyyən edilmiş optimal şərait mütləq nəzərə alınmaq şərtilə həyata keçmişdir.

## Nəticələr və müzakirələr

Model sınaq nümunələrindən diossininin ilkin və şərti təcrid edilməsi üçün ilk növbədə münasib çıxarıcı həlledicinin seçilməsi istiqamətində araşdırmalar aparıldı. Çıxarıcı həlledicinin seçim meyarı kimi diossininin bu və ya digər həlledicilərdə yaxşı həllolma qabiliyyətinə istinad olundu. Bu qlikozidin təmizlənmiş su və spirtli-sulu məhlullarda çox yaxşı həll olması əsas götürüldü. Odur ki, diossinini qaraciyər toxumasından ilkin təcrid olunmasında təmizlənmiş su və müxtəlif qatılıqlı etanol məhlulu sınaqdan keçirildi. Aparılan elmi araşdırmaların nətcələri 1 saylı cədvəldə təqdim edilir:

**Cədvəl 1:** Diossininin qaraciyər toxumasından təcrid edilməsinə həlledicinin təbiətinin təsiri (100 qr qaraciyər + 50 mq maddə, n=5)

| *Həlledicilər* | *Təcrid olunan maddələr və miqdarları* | | |
|---|---|---|---|
| | *Ekstraktiv maddələr, qr* | *Diossinin* | |
| | | *mq* | *%* |
| *Su* | *14,38-15,12* | *12,48-13,01* | *24,96-26,02* |
| *10%-li etanol* | *12,21-12,74* | *12,96-13,21* | *25,92-26,42* |
| *30%-li etanol* | *9,64-10,02* | *13,48-13,74* | *26,96-27,48* |
| *50%-li etanol* | *6,32-6,98* | *18,21-18,68* | *36,42-37,36* |
| *70%-li etanol* | *4,26-4,97* | *18,92-19,34* | *37,84-38,68* |
| *80%-li etanol* | *4,18-4,64* | *24,62-24,97* | *49,24-49,94* |
| *90%-li etanol* | *3,42-3,68* | *26,41-27,01* | *52,82-54,02* |
| *95%-li etanol* | *3,18-3,33* | *26,58-27,06* | *53,16-54,12* |

Cədvəldən göründüyü kimi qaraciyər toxumasından diossininin nisbi yüksək çıxımını (49-54%) təmin edən ən əlverişli həlledici 80%, 90% və 95%-li etanoldur. Məqsədli maddənin maksimum, ekstraktiv maddələri isə minimum dərəcədə təcrid edilməsini təmin edir. Qeyd etmək lazımdır ki, diossinin adi halda göstərilən qatılıqlı etanolda həll olmasa da, bioloji materialın tərkibində olan təbii su etanolun durulaşmasına səbəb olur. Bu da həmin maddəni həll edərək qaraciyər toxumasından təcrid olunmasına zəmin yaradır. Etil spirtinin qlikozidi təcridetmə qabiliyyəti digər səbəblərlə də izah oluna bilər. Etil spirti müəyyən dərəcədə lipofil xassəyə malik olduğu üçün hüceyrə membranlarının lipid təbəqəsindən asanlıqla daha dərin qatlara keçir. Digər tərəfdən etanol suda yaxşı həll olduğu üçün hüceyrədaxili maye və sitoplazmatik tərkiblə də yaxşı qarışır. Doğrudur, bunu digər həllediciler üçün demək olmaz. Diossininin etil spirti ilə çıxımının yüksək dərəcədə olması onun duru spirtdə yaxşı həll olması ilə də izah olunur. Bu hal eyni zamanda etil spirtinin diossinin molekulunda zəngin hidroksil qruplarının bioloji toxumanın struktur elementləri ilə əmələ gətirdiyi rabitənin xarakterinə göstərdiyi təsir nəticəsində də özünü göstərə bilir.

Diossinin qlikozidinin suda yaxşı həll olmasına baxmayaraq, qaraciyər toxuması və digər bioloji materialdan onu təcrid etmək üçün təmizlənmiş su əlverişli deyil. Çünki, bioloji materialdan ekstraktiv maddələri həddən çox təcrid etdiyi üçün növbəti mərhələlərdə, yəni kənar müşayiətedici qarışıqların uzaqlaşdırılması əməliyyatında qlikozidin çıxım faizi xeyli azalır, bu isə obyektiv nəticə üçün kölgə yaradır. Beləliklə, apardığımız eksperiment tədqiqatlar göstərir ki, qaraciyər toxumasından diossinini təcrid etmək üçün ən münasib və əlverişli həlledici 80-90%-li etanoldur. Bu həm də iqtisadi cəhətdən əlverişlidir. Daha qatı 95%-li etanola ehtiyac qalmır.

Qaraciyər toxumasından diossininin təcrid edilməsinə təsir göstərən parametrlərdən biri də bioloji matertial və çıxarıcı həlledicinin miqdari nisbətlərinin optimal seçimidir. Diossininin qaraciyər toxumasından təcrid olunma dərəcəsinin bioloji material və çıxarıcı həlledicinin (90% -li etanol) miqdari nisbətlərindən asılılığı istiqamətində aparılan eksperimentlərin nəticələri 2 saylı cədvəldə təqdim edilir:

**Cədvəl 2:** Qaraciyər toxuması və çıxarıcı həlledicinin miqdari nisbətlərinin diossininin çıxımına təsiri (n=5)

| *Qaraciyər toxuması, qr* | *Diossininin nümunədə miqdarı, mq* | *Həlledicinin miqdarı, ml* | *Diossininin tapılan miqdarı* | |
|---|---|---|---|---|
| | | | *Mq* | *%* |
| *100* | *50* | *100* | *14,21-14,67* | *28,42-29,34* |
| *100* | *50* | *150* | *17,92-18,20* | *35,84-36,40* |
| *100* | *50* | *200* | *20,36-20,98* | *40,72-41,96* |
| *100* | *50* | *250* | *25,12-25,84* | *50,24-51,68* |
| *100* | *50* | *300* | *29,42-29,81* | *58,84-59,62* |
| *100* | *50* | *350* | *29,42-29,84* | *58,84-59,68* |
| *100* | *50* | *400* | *29,44-29,86* | *58,88-59,72* |

Cədvəldən göründüyü kimi qaraciyər toxumasından diossininin çıxım dərəcəsinə bioloji material və həlledicinin miqdari nisbətləri kifayət dərəcədə təsir göstərir. Göstərilən parametrlərin optimal seçimi 1:3 nisbətidir. Bu parametrin seçiminə düzgün əməl etdikdə diossininin çıxım dərəcəsi 60%-ə qədər arta bilir. Bu komponent nisbətlərinin ədədi qiymətinin (1:3,5; 1:4) artırılması heç də məqsədli maddənin çıxım dərəcəsini artırmır. Odur ki, kimyəvi-toksikoloji analiz üçün bu parametrlərin optimal nisbəti 1:3 hesab edilir. Növbəti parametrlərin araşdırılması məsələsində biz bu nisbəti tətbiq etdik.

Növbəti araşdırmalar üçüncü parametrin, yəni obyektlə çıxarıcı həlledicinin təmas müddətinin məqsədli maddənin çıxım dərəcəsinə göstərdiyi təsirin müəyyən edilməsi istiqamətində aparıldı. Eksperiment tədqiqatlar göstərdi ki, digər parametrlər kimi bu göstərici də heç də etinasız münasibət yox, diossininin çıxım dərəcəsinə nəzərə çarpacaq dərəcədə təsir göstərir. Aparılan eksperimentlərin nəticələri 3 saylı cədvəldə təqdim edilir:

3 saylı cədvəl göstərir ki, bioloji material ilə çıxarıcı həlledicinin təmas müddəti 1-5 saat olduqda diossininin çıxım dərəcəsi get-gedə çoxalır. Təmas müddəti 6 saat olduqda maddənin çıxım dərəcəsi ən yüksək səviyyədə – 63,06% olur. Sonrakı müddətlərdə isə nəzərə çarpacaq

əhəmiyyətli artım qeyd olunmur. Belə ki, sonrakı 7-9 saat ərzində eyni nəticələr əldə olunur, çıxım dərəcəsində cəmi 0,12% artım olur. Beləliklə, təmas müddəti 6 saatdan az olmamaq şərtilə qlikozidin maksimum çıxımı təmin edilir ki, bu da növbəti eksperimentləri aparmaq üçün ciddi nəzərə alındı.

**Cədvəl 3:** Qaraciyər toxuması ilə çıxarıcı həlledicinin təmas müddətinin diossininin çıxım dərəcəsinə təsiri (100 qr qaraciyər + 50 mq maddə, n=5)

| *Təmas müddəti, saat* | *Diossininin çıxım dərəcəsi* | |
|---|---|---|
| | *Mq* | *%* |
| *1* | *15,11-15,34* | *30,22-30,68* |
| *2* | *21,17-21,51* | *42,34-43,02* |
| *3* | *28,51-28,90* | *59,02-59,80* |
| *4* | *30,39-30,70* | *60,78-61,40* |
| *5* | *30,92-31,06* | *61,84-62,12* |
| *6* | *31,21-31,53* | *62,42-63,06* |
| *7* | *31,21-31,59* | *62,42-63,18* |
| *8* | *31,21-31,59* | *62,42-63,18* |
| *9* | *31,21-31,59* | *62,42-63,18* |

Kimyəvi-toksikoloji analiz təcrübəsində məqsədli maddənin tədqiqat obyektlərindən təcrid edilməsinə çıxarışın sayının da kifayət dərəcədə böyük təsiri vardır. Növbəti tədqiqatlarımız bu istiqamətdə aparıldı. Tədqiqatların nəticələri 4 saylı cədvəldə təqdim edilir:

**Cədvəl 4:** Qaraciyər toxumasından diossininin çıxım dərəcəsinə çıxarışın sayının təsiri (100 qr qaraciyər + 50 mq diossinin, n=5)

| *Çıxarışın sayı* | *Diossininin çıxım dərəcəsi* | | | |
|---|---|---|---|---|
| | *Mq* | | *%* | |
| | *dəfəlik* | *cəmi* | *dəfəlik* | *cəmi* |
| *1* | *31,21-31,53* | *31,21-31,53* | *62,42-63,06* | *62,42-63,06* |
| *2* | *6,20-6,48* | *37,41-38,01* | *12,40-12,96* | *74,82-76,02* |
| *3* | *1,70-2,10* | *39,11-40,11* | *3,40-4,20* | *78,22-80,22* |
| *4* | *0,08* | *40,19* | *0,16* | *80,38* |

Cədvəldən göründüyü kimi 1-3 dəfə çıxarış etdikdə bioloji materialdan diossininin çıxım dərəcəsi getdikcə artır və nəhayət 80,22%-də dayanır. 3-cü və 4-cü çıxarışlar arasında fərq bir tərəfdən olduqca azdır (0,16%), digər tərəfdən isə 4-cü çıxarış üçün 5 halın hamısı eyni nəticəni göstərir. Odur ki, bioloji materialdan diossinini təcrid etmək üçün 3 dəfə çıxarış aparmaq kifayətdir.

Göstərilən parametrlərdən başqa məqsədli maddənin bioloji materialdan təcrid edilməsinə digər 2 parametr – mühitin pH-ı və temperatur da təsir göstərir. Mühitin pH-ının diossininin qaraciyər toxumasından təcrid edilməsinə göstərdiyi təsiri araşdırarkən lazım gələn pH-a nail olmaq üçün istifadə edilən çıxarıcı həlledicinin tərkibinə əvvəlcədən müvafiq miqdar xlorid turşusu və natrium-hidroksid əlavə olunmuşdur. Bu əməliyyatı yerinə yetirərkən çıxarıcı həlledicini çıxarışdan qovduqda qlikozid təbiətli diossinin kimyəvi çevrilməyə məruz qalır, yəni hidroliz olunur. Bunu etanolu qovduqdan sonra alınan qalığın nazik təbəqəli xromatoqrafiya üsulu ilə tədqiqi də sübut edir. Belə ki, xromatoqram üzərində başlanğıc maddə nativ diossinin ilə yanaşı polyarlıq dərəcəsi nisbətən az olan spirostan təbiətli digər hidroliz məhsulları da aşkar edildi. Bu maddələrdən biri diossin (triozid), digəri isə trillin (monozid) kimi identifikasiya edildi, polyarlıq dərəcəsi bu iki qlikozid arasında olan üçüncü maddəni standart nümunə olmadığından identifikasiya edə bilmədik. Bu maddənin diosgeninin biozidi olmasına heç bir şübhə yeri qalmır. Çıxarıcı həlledicinin turşuluq dərəcəsi çox olduqda bu hal özünü daha əyani şəkildə biruzə verir.

Apardığımız eksperimentlər bir daha sübut edir ki, çıxarıcı həlledicinin pH-ı neytral mühitdən fərqli olduqda qlikozid xarakterli nativ maddə olan diossininin molekul tərkibi dəyişir. Belə ki, qismən hidroliz nəticəsində onun ara metabolitləri – monozid, biozid, triozid əmələ gəlir. Bu maddələr isə təbii ki, diossininin canlı orqanizm şəraitində fermentlər təsirindən parçalanması nəticəsində əmələ gələn metabolitlər ilə üst-üstə düşür. Odur ki, diossininin orqanizm şəraitində nə dərəcədə metabolizmə uğrama qabiliyyətini obyektiv qiymətləndirmək və hansı metabolitlərin əmələ gəlməsi haqqında dəqiq fikir söyləmək üçün çətinlik törədir. Ona görə də diossinini qaraciyər toxuması və digər orqanlardan təcrid etmək üçün çıxarıcı həlledici kimi istifadə olunan 90%-li etanolun tərkibində turşu və qələvi komponentləri olmamalıdır, həlledici mühiti neytral olmalıdır.

Qaraciyər toxumasından diossininin təcrid edilməsinə temperatur rejiminin dəyişməsi mənfi təsir göstərir. Çıxarış prosesinin otaq temperaturundan fərqli, yəni qızdırmaqla aparılması bir tərəfdən zülalların pıxtalaşmasına səbəb olur, toxuma həddən artıq bərkiyir, həlledicinin hüceyrə daxilinə keçməsi çətinləşir, nəticədə diossininin təcridi ümumiyyətlə mümkün olmur. Digər tərəfdən isə qlikozid nativ şəkildə yox, kimyəvi çevrilmələrə məruz qalaraq metabolit şəklində aşkar edilir. Bu isə öz növbəsində neqativ halların baş verməsinə səbəb olur. Demək temperaturu artırmaqla həyata keçən təcridetmə əməliyyatını əlverişli hesab etmək olmaz. Odur ki, qaraciyər toxumasından diossinini təcridetmə əməliyyatını apararkən ən optimal variant adi otaq temperaturudur.

Beləliklə, model sınaqlar əsasında aparılan eksperiment tədqiqatlar bir daha göstərdi ki, diossininin qaraciyər toxuması və digər bioloji materialda kimyəvi-toksikoloji analizini uğurla yerinə yetirmək, yəni məqsədli maddəni maksimum, kənar müşayiətedici maddələri minimum səviyyədə təcrid etmək üçün optimal şərait müəyyən edilmiş oldu: diossinini bioloji materialdan təcrid etmək üçün çıxarıcı həlledici – 90%-li etanol; bioloji material və çıxarıcı həlledici nisbəti – 1:3; bioloji materialla çıxarıcı həlledicinin təmas müddəti – 6 saat; çıxarışın sayı – 3 dəfə; mühitin pH-ı – neytral; temperatur rejimi – adi otaq şəraiti.

## Nəticələr

1. Diossininin qaraciyər toxumasından təcrid edilməsinə müxtəlif kimyəvi-toksikoloji amillərin təsiri müəyyən edildi.
2. Optimal variant təklif edildi: diossinini bioloji materialdan təcrid etmək üçün çıxarıcı həlledici – 90%-li etanol; bioloji material və çıxarıcı həlledici nisbəti – 1:3; bioloji materialla çıxarıcı həlledicinin təmas müddəti – 6 saat; çıxarışın sayı – 3 dəfə; mühitin pH-ı – neytral; temperatur rejimi – adi otaq şəraiti.
3. Təklif edilən optimal şəraitin kimyəvi-toksikoloji analiz təcrübəsində uğurla istifadə edilməsinə zəmanət verilir.

**ƏDƏBIYYAT**


1. Мадаева О.С., Рыжкова В.К., Панина В.В. Сапонины *Dioscorea polystachya* XIV. Диосцинин //Химия природных соединений, №3, с. 155-158, 1967
2. Панина В.В. Исследование в области сапонинов диоскореи. Автореферат диссертации на соиск. Ученой степени кандидата химических наук, Москва, 22 с., 1968
3. Соколова Л.Н., Киченко В.И., Ростоцкий Б.К., Губина Г.П. Диоспонин – новое лекарственное средство для лечения больных атеросклезером // Медицинская промышленность СССР, №7, с. 43-47, 1961

4. Лесков А.И., Мартынова Р.Г., Соколов С.Я. Полиспонин – новый лечебный препарат атеросклеротического действия // Химико-фармацевтический журнал, №1, с.147-150, 1976
5. Шретер Л.И., Задорожный А.М. Итоги работ ВИЛР по созданию новых лечебных препаратов растительного происхождения // Растительные ресурсы, №4, с. 539-547, 1982
6. Азаркова А.Ф., Стихин В.А., Кабанов В.С., Хоциалова Л.И., Майсурадзе Н.И., Черкасов О.Н., Рабинович А.М., Иванов В.Б. Изучение растений родов *Dioscorea, Costus* и *Allium* на содержание диосгенина // Химико-фармацевтический журнал, №2, с. 188-191, 1984
7. Корнева Е.И., Пикова Л.А., Матвеенко Л.Ф. Перспективы селекции стероидосодержащих видов *Solanum* L., на содержание диосгенина // Химико-фармацевтический журнал, №5, с. 77-79, 1979
8. Искендеров Г.Б. Исследование сапонинов лекарственных препаратов и их метаболитов в биологических средах. Автореферат диссертации на соиск. ученой степени доктора фармацевтических наук., Москва, 48 с., 1992
9. Флора Азербайджана, Баку, с.74, 1955
10. Ниткин Д.М., Севастьянов Н.С., Гринок Н.К. Применение препарата трибестан в лечении основных проблем мужского репродуктивного здоровья // Репродуктивное здоровье. Восточная Европа, №1 (19), с. 136-143, 2012
11. Кемертелидзе Э.П., Пхеидзе Т.А., Качухашвили Т.Н. Новый антисклеротический препарат трибуспонин // Химико-фармацевтический журнал, №1, с. 119-122, 1982
12. İskəndərov Q.B., Hüseynquliyeva K.F. *Tribulus terrstris* L. bitkisinin fərdi saponinlərinin alınması // Azərbaycan Metabolizm jurnalı, №1, s. 24-30, 2012
13. İskəndərov Q.B., Hüseynquliyeva K.F. Sürünən dəmirtikanın az və orta polyar steroid qlikozidlərinin kimyəvi tədqiqi // Kimya Problemləri, №3, s. 285-293, 2014
14. İskəndərov Q.B., Hüseynquliyeva K.F. Sürünən dəmirtikanın polyar steroid qlikozidinin kimyəvi tədqiqi // Azərbaycan Kimya jurnalı, №3, s. 59-66, 2015
15. Искендеров Г.Б., Гусейнгулиева К.Ф. Изучение стероидных гликозидов якорцев стелющихся, произрастающих в Азербайджане // Химия растительного сырья, №2, с. 47-52, 2016
16. Шорманов В.К. Судебно-химическое определение банкола // Судебно-медицинская экспертиза, №6, с. 39-43, 2010
17. Шорманов В.К., Зайцева А.С. Разработка методики химико-токсикологического определения трифлурамина // Судебно-медицинская экспертиза, №3, с. 50-54, 2011
18. Шорманов В.К., Бредихина Л.В. Особенности изолирования нитробензола из биологического материала // Судебно-медицинская экспертиза, №3, с. 28-30, 2000
19. Белоусова О.В., Шорманов В.К., Чигарева Е.Н., Владимиренко Е.Н. Определение дельтаметрина при судебно-химическом исследовании биологического материала // Курский научно-практический вестник «Человек и его здоровье», №1, с.146-152, 2011
20. Искендеров Г.Б., Мамедов Э.Ф. Хроматофотометрический метод определения метаболитов диосгенина в моче животных // Azərbaycan Əczaçılıq Jurnalı, № 1-2, s. 31–33, 2001

2017. Volume 1, Number 2 Pages 176-182

UOT: 557. 3. 043

# *CHARA FRAGILIS* CELLS - A NEW OBJECT FOR ELECTROPHYSIOLOGY RESEARCH

**A.HASANOVA[1], Sh.NAJAFALIYEVA[2], P.ALIYEVA[2], N.MUSAYEV[2]**

[1]Institute of Botany, National Academy of Science of Azerbaijan

[2]Department of Biophysics and Molecular Biology, Baku State University

Baku / AZERBAIJAN

*ahasanova89@gmail.com*

**ABSTRACT**

The results of the analysis of the potential distribution ($\phi_m$), resistance ($R_m$) of the plasma membrane and cell wall ($R_0$) by the number of cells of *Chara fragilis* under the standard conditions is being presented for the first time. The stationary values of the membrane potential and resistance were scattered in rather wide range: -90 ÷ -300 mV and 1 ÷ 32.6 Ohm·m$^2$, respectively. The average value of $\phi_m$ was -183 ± 4.9 mV, $R_m$ was 9 ± 1,2 Ohm·m$^2$. The differentiation of electrogenic activity of cells on two types of $K^+$-channels and $H^+$-membrane pumps has been carried out by application of standard modifiers of the transport characteristics of cell membranes. *Chara fragilis* cells are recommended for establishing mechanisms for modifying the transport characteristics of the plasma membrane under the influence of exogenous stimuli, stress factors, as a test-object.

**Keywords:** *Chara fragilis*, plasmalemma, membrane potential, membrane resistance, vanadate, TEA$^+$- iodide.

**CHARA FRAGILIS HÜCEYRƏLƏRİ – YENİ ELEKTROFİZİOLOJİ TƏDQİQAT OBYEKTİ KİMİ**

**XÜLASƏ**

Məqalədə ilk dəfə mühitin standart şəraitində hüceyrə qılafı ($R_0$) və plazmatik membranın potensialı ($\phi_m$), müqavimətinin ($R_m$) *Chara fragilis* hüceyrələrinin sayına görə paylanmasının analiz nəticələri verilmişdir. Membran potensialı və membran müqavimətinin stasionar qiymətləri kifayət qədər geniş intervala malik olmuşlar: -90 ÷ -300 mV and 1 ÷ 32.6 Om·m$^2$. Membran potensialının orta qiyməti -183 ± 4.9 mV, müqavimətin orta qiyməti isə 9±1,2 Om·m$^2$ təşkil etmişdir. Hüceyrə membranının daşınma sistemlərinin standart modifikatorlarının tətbiqi ilə hüceyrələrin elektrogen aktivliyinin iki tip $K^+$-kanalları və membranın $H^+$-nasoslara differensasiyası aparılmışdır. Ekzogen stimullar, stress faktorların təsiri altında plazmatik membranın daşınma sistemlərinin modifikasiya mexanizmlərinin müəyyənləşdirilməsi üçün *Chara fragilis* hüceyrələri test-obyekt olaraq tövsiyyə olunur.

**Açar sözlər:** *Chara fragilis*, plazmalemma, membran potensialı, membran müqaviməti, vanadat, TEA$^+$-yodid.

**КЛЕТКИ CHARA FRAGILIS - НОВЫЙ ОБЬЕКТ ЭЛЕКТРОФИЗИОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЙ**

**РЕЗЮМЕ**

В работе впервые представлены результаты анализа распределения потенциала ($\phi_м$), сопротивления ($R_м$) плазматической мембраны и клеточной оболочки ($R_0$) по числам клеток *Chara fragilis* в стандартных условиях. Стационарные значения $\phi_м$ и $R_м$ имели разброс в довольно широких интервалах: –90 ÷ –300 мВ и 1÷32,6 Ом·м$^2$, соответственно. Среднее значение мембранного потенциала составляло -183 ± 4,9 мВ, сопротивления - 9±1,2 Ом·м$^2$. С применением стандартных модификаторов транспортных свойств клеточных мембран проведена дифференциация электрогенной активности клеток на $K^+$-каналы двух типов и $H^+$- помпы плазматической мембраны. Клетки *Chara fragilis* рекомендованы для установления механизмов модификации транспортных свойств плазматической мембраны под влиянием экзогенных стимулов, стресс факторов, в качестве тест-объекта.

**Ключевые слова:** *Chara fragilis*, плазмалемма, потенциал, сопротивление мембраны, ванадат, TEA$^+$-йодид.

## Introduction

Experimental research on *Chara* algal contributed to the establishment of the kinetic characteristics of the components of the primary active transport of the plasma membrane of plant cells

[1-3], action of cellular mechanisms on the plasma membrane of a number of xenobiological, pharmacological agents and other modifiers of the transport properties of the membrane of plant cells [4, 5]. The possibilities of the usage of *Chara* algal as a test object are not limited to the study of the cellular mechanisms of action of the above emphasize dexogenous stimuli. Implementation of isolated cells of *Chara* algal for revealing the adaptive responses during modification of the transport properties of the plasma membrane by stress factors is very perspective [6]. The finding of new objects that differ with their electrochemical and kinetic characteristics could stimulate the establishment of mechanisms of adequate responses of isolated cells and whole plants to exogenous stimuli. In this work, we demonstrated the description of the bioelectrical parameters of *Chara fragilis* cells introduced for the first time into the practice of electrophysiological research by us. A differentiation of the electrogenic activity of *Chara fragilis* cells on the components of the primary active transport in the presence of specific modifiers of the transport properties of the plasma membrane was conducted.

## Materials and methods

In the search for a new object for electrophysiological research, we organized expeditions in the territory of Azerbaijan Republic. In the Tovuz region, on the territory of "Katib Bulagy" in a small pond which is a collector of sewage from several mountain springs, we found the *Chara fragilis* plant.*Chara fragilis* belongs to the family *Characeae Ag. Emand Hollerb* of *Charaphyceae class*. Family, species and class of plants were determined by their anatomical and morphological characteristics by using the determinant of freshwater algae of the USSR [7], with the kind support of the algologists of the Institute of Botany of the National Academy of Sciences of Azerbaijan.

The length of mature internodal cells of *Chara fragilis* reached 5-8 cm with 0.4-1 mmin diameter. The large size of the interstitial cells of *Chara fragilis* allows them to be used for several days of microelectrode studies. The mineral composition of the "Katib Bulagy" water, was determined by atomic absorption spectroscopy, corresponding to the mineral composition of artificial pond water (APW), with cations of 0.1M $K^+$, 1M $Na^+$, 0.4M $Ca^{2+}$, 0.3M $Mg^{2+}$ and $Cl^-$, $HCO^{3-}$, $NO^{3-}$, $PO_4^{3-}$, $SO_4^{2-}$, pH-6,9÷7,2.In our studies we used plants grown in APW, in aquariums 0.3 x 0.4 x 0.5 m dimension under room light condition (with intensity 6 W / m$^2$) on the windowsill of the laboratory room. The optimal temperature range for growing *Chara fragilis* was 18-23$^0$C. Increasing the temperature of the growing medium to 30$^0$C and higher led to death of plants.

Aim of research is the evaluation of genetic and metabolic resistance of the medicinal plants variety growing in Lenkoran region. Genetic and metabolic resistance of the variety of medicinal plants gathered from different populations of Lenkoran-Astara region were evaluated by the methods of genetic and biochemical analysis. Long-term follow-up shows that areal of distribution of some above-mentioned plants in region is decreased year after year by two reasons. Firstly, because of anthropogenic influences, namely, plants for the same or different reason cannot complete the vegetation period. Second reason- is decreasing of resistance. Taking into consideration this fact, we have defined the resistance level of these plants by means of conducting of experiments. Researches show that adaptive opportunities of Hypericum perforatium L., Foeniculum vulgare and Coronilla Hyrcana Prilipko does not exhaust entirely, their genetic and metabolic resistance are in norm. It was found partial decreasing of genetic and metabolic resistance of Allium Cemum.

**Keywords**: medicinal plants, resistance, chromosome aberration, antioxidant, adaptation.

İnsan yarandığı gündən başlayaraq təbiəti və orada mövcud olan bioloji növləri öyrənməyə, onlardan öz məqsədləri üçün istifadə etməyə çalışmışdır. Elmi texniki tərəqqiyə nail olduqca, insanın təbiətə müdaxiləsi daha da yüksəlmişdir. Elə bunun nəticəsidir ki, hal-hazırda Yer Kürəsində əhalinin sürətli artımı ilə əlaqədar olaraq insanın təlabatlarıda yüksəlmişdir. Təlabatların artması isə təbiətdə mövcud olan ehtiyatlardan daha çox istifadə olunmasına gətirib çıxarmışdır. Aparılan araşdırmalar göstərmişdir ki, bu istifadə çox vaxt səmərəsiz və həddən artıq olmaqla həyata keçirilmişdir. Ona görə də Yer Kürəsində ehtiyatların azalması və tükənməsi baş vermişdir. Təbiətə göstərilən antropogen təsirlər yüksəldikcə, təbiətin zənginləşməsi yox, kasadlaşması baş vermişdir. Bu amil Yer üzərində müxtəlif geoloji dövrlərdə baş vermiş cəmləşərək canlıların növ tərkibinin əhəmiyyətli dərəcədə dəyişilməsinə gətirib çıxarmışdır. Çox miqdarda növ və cinslər flora və faunadan itmişdir. Antropogen amillər artıqca bioloji növlər üçün risk həddi də yüksəlmişdir. Artıq bu gün bu risk elə bir həddə gəlib çatmışdır ki, heç vaxt bu qədər növ məhv olmaq təhlükəsinə məruz qalmamışdır [1; 2; 3; 5].

Ətraf yaşayış mühiti pisləşdikcə, bioloji növlərin adaptasiya olunmasıda dəyişmişdir. Yəni bioloji növlər də adaptasiya olunmağa çalışmışlar və bu imkanlarını müəyyən dərəcədə genişləndirmişlər. Lakin son yüz ildə ətraf yaşayış mühitində baş verən dəyişikliklər o qədər sürətlə baş verir ki, bioloji növlər uyğun adaptasiya imkanlarını aktivləşdirməyə macal tapmırlar.

Aparılan araşdırmalardan məlum olmuşdur ki, yaxın 20-30 ildə Yer üzərindəki növlərin 5 %-dən 15 %-ə qədəri ciddi itmək təhlükəsi ilə üzbəüz qalacaqdır [3; 5]. Dünyanın ən zəngin florasına malik bölgələrindən biri Azərbaycan Respublikasıdır. Azərbaycanda bu gün 4200-dən çox bitki növü vardır, onlardan 800-ə qədəri dərman əhəmiyyətlidir. Yerli ekspertlərin fikrinə görə Respublikada 10 %-ə qədər bitki növü itmək təhlükəsi altındadır [5].

Yuxarıda qeyd edilənləri nəzərə alaraq bu təcrübələrin məqsədi Lənkaran-Astara bölgəsinin müxtəlif populyasıyalarında toplanmış bir sıra dərman bitkilərinin genetik və metabolik davamlılıq vəziyyətini qiymətləndirməkdən ibarətdir.

## Material və metodika

**Obyekt:** Tədqiqat obyekti kimi Azərbaycan Respublikası Lənkaran - Astara bölgələrindən toplanmış *Hypericum perforatium L., Foeniculum vulgare, Coronilla Hyrcana prilipko., Allium cemum* dərman bitkisi götürülmüşdür.

**Kimyəvi maddələr və reaktivlər:** Təcrübələr zamanı aşağıdakı kimyəvi maddələrdən istifadə edilmişdir: Karmin (Siqma), Tioarbitur turşusu (Bekton), NaCl (Bekton), Üçxlorsirkə turşusu (Bekton), $NaH_2PO_4$ (Bekton), $H_2O_2$ (Samaramedprom, Rusiya Federasiyası), Qvayakol (Merck), aseton (LaCHEMA, Czech Republic), etanol (Samaramedprom, Rusiya Federasiyası), buzlu sirkə turşusu (Samaramedprom, Rusiya Federasiyası).

***Metodlar:***

I. Sitogenetik:

Dərman bitkilərinin toxumları cücərdilmiş ($25^0$ C-də termostatda) və onların rüşeym kökcüklərinin apikal meristem hüceyrələrində standart ana-telofaza metodundan istifadə etməklə xromosom aberrasiyalarının tezliyi analiz edilmişdir [6].

**Təcrübələr aşağıdakı qayda da aparılmışdır:** Dərman bitkilərinin hər birinin toxumları toplanmışdır. Toxumlar laboratoriyada normal şəraitdə bir müddət saxlanılmışdır kı, onlar daha yaxşı cücərsinlər. Sonra həmin bitki toxumları laboratoriyada $25^0C \pm 2^0C$ temperaturda distillə suyunda cücərdilmişdir. Cücərmiş toxumların 1,0-1,3 sm uzunluğunda olan rüşeym kökcükləri kəsilmişdir və onlar Karnua fiksatoruna (3:1 nisbətində etanol və buzlu sirkə turşusu) daxil edilmişdir. Bir gündən sonra kökcüklər fiksatordan çıxarılmışdır və Karmin rəngləyicisi ilə rənglənmişdir. Rənglənmiş bitki toxumları rüşeym kökcüklərinin apikal meristem hissəsi kəsilmişdir və ondan preparat hazırlanmışdır. Hazırlanmış preparat işıq mikriskopu ("Ceno-val" Almaniya) vasitəsilə öyrənilmişdir. Analiz zamanı anafaza mərhələsində olan 800-900 hüceyrə sayılmışdır.

II. Biokimyəvi:

a) Katalazanın aktivliyinin təyini: Bitkilərin təzə əzilmiş toxumlarından alınmış sulu ekstrakt ilə hidrogen peroksidin reaksiyasından sonra ayrılan oksigenin həcmini müəyyən edilməsinə əsaslanaraq katalazanın aktivliyi qazometrik təyin edilmişdir [7; 8].

**Təcrübələr aşağıdakı qayda da aparılmışdır:** 1,0 ±0,01 qr təzə əzilmiş toxum çəkilir, mühiti neytrallaşdırmaq üçün 0,5 qr $CaCO_3$ əlavə edilir və farfor çaşkasında şüşə tozu ilə qarışdırılır. Sonra 5 ml su əlavə edilir və təkrar qarışdırılır. Alınmış kütlə 100 ml-lik ölçü kolbasına keçirilir və ölçü yerinə qədər su əlavə edilir, 3-4 saat fermentlərin həlli üçün saxlanılır. Katalazanın təyini suspenziyada aparılır. Bunun üçün cihazın reaksiya qabına 10 ml suspenziya və onun içinə kiçik stəkanda 5 ml 3 %-li $H_2O_2$ əlavə edilir. Reaksiya qabı cihazın digər hissəsinə birləşdirilir və cihazda mayenin (5 %-li $H_2SO_4$) səviyyəsi tənzimlənir. Sonra reaksiya qabı sirkələnir ki, $H_2O_2$ -lə suspenziya qarışsın və reaksiya getsin. Ayrılan $O_2$ –nin miqdarı 3, 6, 9 –cu dəqiqələrdə ölçülür.

b) Peroksidazanın aktivliyinin təyini: Bitkilərin yetişməmiş toxumlarında peroksidazanın aktivliyi spektrifotometrik metodla təyin edilmişdir. Metod müəyyən aralıq zamanda qvayakol ($C_7H_8O_2$) ilə (oksidləşmə reaksiyası zamanı əmələ gələn məhsulların optik sıxlığının ölçülməsinə əsaslanmışdır [7; 8].

**Təcrübələr aşağıdakı qayda da aparılmışdır:** Yetişməmiş toxumlardan 200-500 mq az miqdarda fosfat buferi əlavə edilməklə həvəngdəstdə əzilir və 25 sm$^3$ -lik ölçü kolbasına keçirilir, ölçüyə qədər fosfat buferi əlavə edilir. 10 dəqiqə saxlanılır və 10 dəqiqə 4000-6000 dövr/dəqiqə sürətlə sentrafuqa edilir. Spektrofotometrin təcrübə küveytinə (1 sm enində) 0,5 sm$^3$ qvayakol, 1,5 sm$^3$ bifer, 0,5 sm$^3$ sentrafuqat və 0,5 sm$^3$ $H_2O$ əlavə edlir. $H_2O_2$ damcısı əlavə edilən kimi sekundamer işə salınır və ilk ölçmə 20 saniyədən sonra aparılır. 1 - 2 dəqiqə ərzində hər 20 saniyədən ölçmə aparılır.

***Statistik analiz:***

Təcrübələrdən alınmış nəticələr ümumi qəbul olunmuş statistik analiz kriteriyası – Styüdent kriteriyasının köməyi ilə aşağıdakı formullar əsasında hesablanmışdır [9].

***Xromosom aberrasiyaları üçün:***

$$M = \frac{n * 100}{N}$$

Harada ki,

**M** – xromosom aberrasiyalarının faizlə göstəricisi (%)

**N** - anafaza mərhələsində olan hüceyrələrin sayı

**n** - xromosom aberrasiyaları baş vermiş hüceyrələrin sayı

Təcrübələrin gedişində baş vermiş orta kvadratik səhv (m) aşağıdakı düstura görə hesablanmışdır:

$$m = \sqrt{\frac{(100-M)*M}{N}}$$

***Katalaza üçün:***

$$K = \frac{\sum}{9}$$

K- katalazanın aktivliyi

$\sum$ - 3, 6, 9 dəqiqələrdə alınmış göstəricilərin cəmi

9 - təcrübə vaxtı

***Peroksidaza üçün:***

A= $(D_2 – D_1)$ $V_1$ x 60 $(t_2 – t_1)$x$V_1$n

$D_1$ – ilkin ölçmə zamanı məhlulun optik sıxlığı

$D_2$ - təcrübə sonunda məhlulun optik sıxlığı

$t_1$ və $t_2$ – təcrübənin başlama və qurtarma vaxtı

n – toxumun çəkisi, qr

$V_1$ – sentrafuqatın ümumi həcmi, $sm^3$

$V_2$ – küveytdəki məhlulun umumi həcmi,$sm^3$

60 – dəqiqəyə çevirmə əmsalı

## Nəticələr və müzakirə

Məlumdur ki, xarici stress amillərin təsirinə qarşı biosistem genlərin ekspressiyasının, metabolizmin intensivliyinin, sərbəst radikalların, peroksidlərin, antioksidantların dəyişməsi ilə adaptiv cavab verirlər. İstənilən xarici təsirə mümkün cavablardan biri sərbəst radikal proseslərinin güclənməsi və bunun təzahürü kimi lipidlərin peroksidləşmə prosesinin aktivləşməsidir. Peroksidləşmə prosesinin inkişafı membranın quruluşunda və funksiyasında əhəmiyyətli dəyişikliklər törədir. Lakin peroksidləşmə ilə antioksidant mühafizə sistemləri arasında balans mövcuddur, hansı ki, hüceyrənin normal həyat fəaliyyətinin saxlanması üçün vacib şərtdir.

Son illərin işlərinin analizi göstərmişdir ki, bitkilərin ontogenezində müxtəlif toksikantların (zərərli abiotik faktorların) təsiri zamanı fermentativ bioantioksidantlar mühafizə rolu oynayırlar. V.Vao-qinq və b. qarğıdalı cücərtilərində quraqlığa davamlılıq yaradaraq peroksidaza və katalaza fermentlərinin aktivliyinin yüksəlməsini müşahidə etmişlər. Radyukina və b. göstərmişlər ki, *P.major*, *Th. halophila* bitkilərində duzluq şəraitində, peroksidazanın aktivliyinin yüksək konstitutuv səviyyəsi duz stressi şəraitində bu bitkilərdə hüceyrə homeostazının saxlanılmasında əsas rol oynayırlar [4; 10; 11; 12; 13; 14; 15].

Bundan çıxış edərək, dərman bitkilərinin itmək təhlükəsində olan növlərinin genetik və metabolik davamlılıq vəziyyətinin monitorinqini aparmaq üçün biz xromosom aberrasiyalarının tezliyini, fermentativ və qeyri fermentativ antioksidantların aktivliyinin öyrənilməsi metodlarından istifadə etmişik.

Təcrübələr yuxarıda göstərilən bitkilər üzərində aparılmışdır. Təcrübələrdə istifadə edilən bitkilər Lənkaran-Astara bölgəsinin müxtəlif zonalarından toplanılmışdır. Aparılan üzun müddətli müşahidələr göstərmişdir ki, adları yuxarıda göstərilən bitkilərin bəzilərinin yayılma arealı bölgədə ilbəil azalmaqdadır. Ədəbiyyat məlumatlarından və bu istiqamətdə aparılan uzun müddətli tədiqatlarımızın nəticələrinə əsaslanaraq bunun əsasən iki səbəblə əlaqədar olduğunu qeyd edə bilərik. Birincisi, bitkilərə göstərilən antropogen təsirlə, yəni onlar bu və ya digər səbəbdən vegetasiya müddətini başa vura bilmirlər. Ikincisi, davamlılıqlarının azalması ilə. Bunu nəzərə alaraq biz təcrübələr aparmaqla bu bitkilərdə davamlılığın səviyyəsini müəyyən etmişik.

İlk olaraq bitkilərin toxumları toplanılmış və onların rüşeym kökcüklərinin apikal meristem hüceyrələrində xromosom aberrasiyalarının tezliyi analiz edilmişdir. Analizin nəticələri 1-ci cədvəldə və 1-ci şəkildə təqdim edilmişdir. Təqdim edilmiş məlumatlardan aydın olur ki, *Foeniculum vulgare* və *Coronilla Hyrcana Prilipko*. Bitkilərinin rüşeym kökcüklərinin apikal meristem hüceyrələrində xromosom aberrasiyalarının tezliyi yol verilən norma həddində olmuşdur. Xromosom aberrasiyalarının tezliyi müvafiq olaraq 3,05±0,38 % və 3,09±0,35 % olmuşdur. Digər bitkilərdə bu göstərici bir qədər fərqli olmuşdur. Belə ki, *Hypericum perforatium L*. Bitkisində xromosom aberrasiyalarının tezliyi 3,65±0,41 % olmuşdur. Bu yol verilən norma həddindən bir qədər yüksəkdir. *Allium cemum* bitkisində isə xromosom aberrasiyalarının tezliyi 4,38±0,56 % olmuşdur. Bu göstərici tədqiq olunan bitkilər üzərində aparılmış təcrübələr zamanı alınmış nəticələr arasında ən yüksək nəticə olmuşdur. Nəticələrin əyaniliyi üçün xromosom aberrasiyalarının tezliyi göstəriciləri 1-ci şəkildə diaqram formasında göstərilmişdir. Bu diaqramdan da aydın olur ki, tədqiq olunan bitkilərin rüşeym kökcüklərinin apikal meristem hüceyrələrində xromosom aberrasiyalaraının tezliyində müəyyən fərq mövcuddur. Bu isə həmin bitkilərin davamlılıq səviyyəsinin eyni olmadığını bir daha sübut edir.

**Cədvəl 1.** Müxtəlif ekoloji populyasiyalardan toplanmış bir sıra dərman bitkilərində xromosom aberrasiyalarının tezliyi

| Bitki növləri | Xromosom aberrasiyaları, % |
|---|---|
| Hypericum perforatium L. | 3,65±0,41 |
| Coronilla Hyrcana Prilipko. | 3,09±0,35 |
| Foeniculum vulgare | 3,05±0,38 |
| Allium cemum | Allium cemum 4,38±0,56 |

**Şəkil 1.** Müxtəlif ekoloji populyasiyalardan toplanmış bir sıra dərman bitkilərində xromosom aberrasiyalarının tezliyi




Qeyd. 1- Hypericum perforatium L.
2 - Coronilla Hyrcana Prilipko.
3 - Foeniculum vulgare
4 - Allium cemum

Təcrübələrimizin ikinci hissəsində antioksidant fermentlər olan katalaza və peroksidazanın aktivliyi təyin edilmişdir. Bölgənin müxtəlif populyasıyalarından toplanmış bitikilərin nümunələri üzərində təcrübələr aparılaraq katalaza və peroksidazanın aktivliyi təyin edilmiş və alınmış nəticələr ümumiləşdirilərək 2-ci şəkildə təqdim edilmişdir. Təqdim olunmuş məlumatlardan aydın olmuşdur ki, antioksidant xarakterə malik olan hər iki fermentin aktivliyinin tədqiq olnan bitki nümunələrində müxtəlif olduğu və bəzilərində norma həddindən aşağı olduğu müəyyən edilmişdir. Belə ki, *Hypericum perforatium L, Foeniculum vulgare* və *Coronilla Hyrcana Prilipko* bitkilərində fermentlərin aktivliyi norma həddində olmuşdur. *Allium cemum* bitkisində isə bu fermentıərin aktivliyi nisbətən aşağı düşmüşdür.

**Şəkil 2.** Müxtəlif ekoloji populyasiyalardan toplanmış bir sıra dərman bitkilərində katalaza və peroksidazanın aktivliyi




***Qeyd.*** 1- Hypericum perforatium L.
2 - Coronilla Hyrcana Prilipko.
3 - Foeniculum vulgare
4 - Allium cemum

Aparılan araşdırmalardan belə qənaətə gəliriki ki, *Hypericum perforatium L, Foeniculum vulgare* və *Coronilla Hyrcana Prilipko* bitkilərində adaptasiya imkanları tam tükənməmişdir və davamlılıqları norma həddindədir. Onların yayılma arealının azalması yalnız antropogen faktorların hesabınadır. Yəni bu bitkilər vegetasiya müddətini başa çatıra bilmədikləri üçün, əkin sahələrinin və yaşayış sahələrinin genişlənməsi və s. səbəblər hesabına arealları azalmışdır. Digər bitkinin- *Allium cemumun* arealının azalmasında bu faktorla yanaşı, onların adaptasıya imkanlarının tükənməsini də göstərə bilərik. Bu bitkinin-vəcələnin uyğun adaptasiya sitemlərinin imklanları qismən zəifləmişdir. Ona görə də onun həm *ex situ*, həm də *in situ* mühafizə edilməsinə xüsusi bir ehtiyac vardır.

**İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT**

1. Лебедева Н.В., Дроздов Н.Н., Криволуцкий Д.А. Биологические разнообразие М., 2004, 432с
2. Мелехова О.П., Егорова Е.И., Евсеева Т.И. и др. Биологические контроль окружающей стеды. Москва., Издательский цент «Академия», 2007, 288 с.
3. Примак Р.Б. Основы сохранения биоразнообразияю М.Изд-во «Наука», 2002. 256 с.
4. Радюкина Н.Л. и др. Сравнительный анализ функционирования защитных систем у представителей галофитный и гликофитной форм в условиях прогрессирущего засоления. Ж. Физиол. Растений, 54, № 6, 2007, с. 902-912.
5. Hacıyev V.C., Musayev S.H. Azərbaycanın "Qırmızı" və "Yaşıl" kitablarına tövsiyyə olunan bitki və bitki formasiyaları. Bakı, Elm, 1996, 40 s.
6. Əliyev Ə.A., Məcidov M.M,, Əsgərov İ.T., Ələkpərov U.K. Mutagenez və mutasiyanın analiz üsulları. Bakı, BDU nəşriyyatı, 1992, 164 s.
7. Лукаткин А.С., Голованова В.С. Интенсивность перекисного окисления липидов в охлажденных листьях теплолюбивых растений. Ж. Физиология растений, том 35, вып.4, с. 773-780. ?il
8. Плешков В.П. Практикум по биохимии растений. Москва, «Колос», 1985.
9. Лакин Т. Биометрия.// М., 1990, 250 с.

10. Xi Zhu-mei et al. Влияние водного стресса на главные физиологические индексы листа винограда. // Agr.Res. Arid Areas, 25 N 3, 2007, p.146-149.
11. Li Zhong, Gong Ming. Участие антиоксидантных систем в индуцируемой термошокам жараустойчивости проростков кукрызы. Acta bot. yunnanica, 29, N9, 2007, p.231-236.
12. Bai Song Влияние загрязнения воды кадмием на проницаемость клеточных мембран и активность некоторых антиокислительных ферментов в зародышах прорастающего риса. //J. Jilin Agr.Univ., 28,N3, 2006, p.237-240.
13. Кузнецов Вл.В., Общие системы устойчивости и трансдукции стрессорного сигнала при адаптации растений к абиотическим факторам // Вестн. Нижегородск. ун-та им. Н.И. Лобачевского. Сер. биол. / 2001. Н. Новгород: Изд-во ННГУ. С. 64–68.
14. Z.Ming-sheng et al. Physiological indices and selection of methods on rapid indetification for swwet potato drounght resistanse. Agr.Sci.China. 2005, 4, N 11, p. 826-832.
15. Абилов З.Г., Рагимова Г.К., Шаммедов Р.З., Велиева Л.С., Набиева Н.А. Эколого-генетический мониторинг широкораспростраnненых и исчезающих близкородственных видов растений в некоторых регионах Азербайджана. // Материалы VIII Межд. Симпозиума «Новые и нетрадиционные растения и преспективы их использования», Москва 22-26 июня 2009, стр.237-239.

*JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY - CHEMISTRY AND BIOLOGY*

***2017. Volume 1, Number 2*** ***Pages 216-221***

***UOT: 665.541.48-143:542.61***

# ЭКОЛОГИЧЕСКИ ЧИСТОЕ ДИЗЕЛЬНОЕ ТОПЛИВО, ПОЛУЧЕННОЕ МЕТОДОМ ИОННО-ЖИДКОСТНОЙ ЭКСТРАКЦИОННОЙ ОЧИСТКИ

**С.А. СЕИДОВА, Г.Д. ГУСЕЙНОВ, В.А. НАГИЕВ, М.Д. ИБРАГИМОВА, С.Г. АЛИЕВА, А.Б. ХАЛИЛОВ, Х.А. АБДУЛЛАЕВА, Э.М. КУЛИЕВА**

Институт Нефтехимических Процессов им. Ю.Г.Мамедалиева НАН Азербайджана, г. Баку

*minaver-ibrahimova@rambler.ru*

**РЕЗЮМЕ**

В статье приведены результаты исследований одностадийной и постадийной очистки смеси прямогонной дизельной фракции и вторичных продуктов переработки нефти - легкого газойля коксования и легкого газойля каталитического крекинга с использованием в качестве избирательного растворителя ионной жидкости на основе N-метилпирролидона и уксусной кислоты. Был приведен сравнительный анализ селективной очистки исходной смеси N-метилпирролидоном.

**Ключевые слова:** дизельный дистиллят, экстракционная очистка, N-метилпирролидонацетат, рафинат, экстракт, топливо, ионная жидкость, продукты вторичной переработки нефти

**ECOLOGICALLY CLEAN DIESEL FUEL RECEIVED BY THE IONIC-LIQUID EXTRACTION METHOD**

**ABSTRACT**

The article presents the results of the studies of one-stage and step-by-step methods for purification of the mixture of a straight-run diesel fraction and secondary products of oil refining - light gasoil of delayed coking and light gas oil of catalytic cracking by the ionic liquid on the bases N-methylpyrrolidone and acetic acid as the selective solvent. It is carried out comparative analysis of the selective purification of used mixture with N-methylpyrrolidone.

**Key words:** diesel distillate, extraction purification, N-methylpyrrolidone acetate, raffinate, extract, fuel, ionic liquid, refined petroleum products.

**İON MAYE EKSTRAKSİYA ÜSULU İLƏ TƏMİZLƏNMİŞ EKOLOJİ ZƏRƏRSİZ DİZEL YANACAĞI**

**XÜLASƏ**

Məqalədə bir başa qovulma dizel fraksiyasının neftin ikinci emal məhsulları- kokslaşma və ya katalitik krekinq prosesindən alınan yüngül qazoyl fraksiyası ilə qarışıqlarının seçici həll edici kimi N-metilpirrolidon və sirkə turşusu əsasında alınmış ion maye tərkiblə bir mərhələli və mərhələli təmizlənmə prosesinin nəticələri verilmişdir. Məqalədə müqaisə üçün götürülmüş dizel fraksiyaları qarışıqlarının N-metilpirrolidonla seçici təmizlənməsi prosesi də əks olunmuşdur.

**Açar sözlər:** dizel distillatı, ekstraksiya üsulu təmizlənmə, N-metilpirrolidonasetat, rafinat, ekstrakt, yanacaq, ion mayesi, neftin ikinci emal məhsulları.

Проблема охраны окружающей среды одна из глобальных проблем, стоящих перед человечеством в XXI веке и создание «чистых» производств и технологий, отвечающих требованиям «зеленой химии» является актуальной задачей химической промышленности.

Развитие нефтеперерабатывающей промышленности, что является стратегической задачей отечественной экономики, определяется как глубиной переработки нефти, так и качеством выпускаемых нефтепродуктов, в частности базовых моторных масел и топлив. Известные методы получения высококачественных нефтяных масел и топлив основываются как на гидрогенизационные процессы, так и на экстракционные методы очистки [1-5].

Преимущество экстракционного метода очистки определяется тем, что процесс осуществляется в мягких условиях и химическая структура сырья при этом не меняется. При этом, эффективность и перспективность экстракционной очистки нефтяных фракций определяется как высокой избирательной способностью выбранного экстрагента, так и экологичностью и легкостью регенерации, обеспечивающий возможность повторного использования.

Для получения базовых масел и топлив различного назначения в процессах селективной очистки нефтяных фракций в качестве экстрагента в основном используют органические реагенты: фенол, фурфурол, N-метилпирролидон, сульфолан, морфолин, этиленгликоль и т.д. Однако все указанные растворители, несмотря на достаточно высокую эффективность, в качестве экстрагента имеют ряд недостатков, в частности взрывоопасны, токсичны, неэкологичны и всевозрастающие жесткие требования к охране окружающей среды требуют применения более экологичных растворителей.

В этом аспекте огромный интерес вызывают так называемые ионные жидкости, применение которых в процессах экстракции взамен традиционно используемым органическим растворителям, пагубно влияющим на окружающую среду, является перспективным и активно развивающим подходом к решению существующих экологических проблем.

Ионные жидкости, это сложные органические соли, состоящие из органического катиона и органического или неорганического аниона, которые характеризуются комплексом специфических свойств: высокой химической и физической стабильностью, низкой температурой плавления (менее 373 K), жидким состоянием в широком интервале температур (373-730K), хорошей растворяющей способностью широкого круга полярных и неполярных органических, неорганических соединений, а также полимерных материалов, невысокой склонностью к возгоранию и низким давлением насыщенных паров и следовательно могут быть регенерированы и многократно использованы [6-8].

Благодаря перечисленным свойствам, ионные жидкости считаются экологичными, то есть дружественны к окружающей среде и нашли широкое применение во многих областях химической промышленности в качестве каталитических систем, реакционной среды, избирательного растворителя и т.д. [1, 2, 9-12].

Перспективность применения ионных жидкостей в качестве избирательного растворителя в процессах селективной очистки различных нефтяных фракций с получением базовых масел и топлив установлено также и систематическими исследованиями, проведенными в ИНХП НАН Азербайджана [13-19].

В частности, показано возможность селективной очистки масляных фракций с вязкостью 6,89% мм$^2$/с и 8,5 мм$^2$/с при 100°C, нефтяных фракций полученных компаундированием десяти градусных фракций нефти с месторождения «Балаханы» и «Нефт Дашлары», дистиллята трансформаторного масла из Балаханской нефти с пределом выкипания 250-405°C, 50°C масляных фракций, выделенных из нефти месторождения Гюнешли, бензина каталитического крекинга и риформинга, а также дизельного дистиллята, вырабатываемого Бакинским нефтеперера-батывающим заводом им Г.Алиева. Проведенным циклом исследований установлено, что при использовании в качестве экстрагента ионных жидкостей на основе муравьиной кислоты и морфолина или анилина при равных соотношениях экстрагента к сырью, температуры экстракции 40-45°C и времени контакта 90 мин степень деароматизации составляет 39,4% масс, а десульфирования 61,8% масс при селективной очистке дизельного дистиллята, характеризующегося содержанием 16,5% масс ароматических углеводородов и 0,0890% серосодержащих соединений.

В последнее время с целью увеличения объема дизельного топлива в состав перерабатываемого сырья прямогонной дизельной фракций (ПДФ) первичной переработки нефти вовлекаются среднедистиллятные фракции вторичной переработки нефти- легкий газойль каталитического крекинга (ЛГКК) и лёгкий газойль коксования (ЛГК) [20].

В данной статье изложены результаты экстракционной очистки смеси ПДФ со среднедистиллятными продуктами вторичной переработки нефти - ЛГКК и ЛГК отличающихся по содержанию ароматических углеводородов. Массовое соотношение ПДФ и легкого газойля вторичной переработки нефти составляет 70:30% масс. Состав дистиллятов используемых в качестве сырья приведен в таблице 1.

**Таблица 1.** Физико-химические показатели смеси прямогонной дизельной фракции с легким газойлем вторичной переработки нефти

| Показатели | ПДФ+ЛГКК | ПДФ+ЛГК |
|---|---|---|
| Плотность при 20°С, кг/м$^3$ | 857,3 | 840,7 |
| Фракционный состав : Н.К. | 184 | 195 |
| К.К. | 337 | 350 |
| Температура вскипания 50% | 256 | 279 |
| Содержание серы, % масс | 0,1132 | 0,1265 |
| Содержание ароматических углеводородов, % масс | 29 | 25 |
| Кинематическая вязкость, мм$^2$/с, при 20°С | 4,10 | 4,50 |
| Показатель преломления, $n_D^{20}$ | 1,4915 | 1.4733 |
| Температура вспышки в закрытом тигле, °С | 78 | 76 |
| Цетановое число | 23 | 41 |

В проводимых исследованиях в качестве экстрагента использована ионная жидкость-N-метилпирролидонацетат, синтезированная взаимодействием N-метилпирролидона с уксусной кислотой.

Процесс экстракции дизельных дистиллятов осуществлен при массовых соотношениях ионной жидкости к сырью равных 1-2:1 и температуре экстракции 20-25°С. Установлено, что в зависимости от соотношения компонентов, а также от осуществления процесса экстракции в одну стадию или постадийно степень деароматизации смеси ПДФ+ЛГК колеблется в пределах 60-80% масс, степень десульфирования 61,6-77,5% масс при выходе рафината 72,3-84,4% масс на сырье (табл. 2).

В случае осуществления процесса экстракции в одну стадию с использованием двукратного избытка ионной жидкости и времени контакта компонентов 1 час остаточное содержание ароматических углеводородов в рафинате, полученного выходом 76,57% масс составляет 6 % масс, серосодержащих углеводородов – 0,0364% масс.

При поэтапной очистке смеси ПДФ с ЛГК с использованием равного количество новой порции экстрагента по отношению к сырью на каждом этапе и времени контакта компонентов 1 час на каждой стадии остаточное содержание ароматики в составе рафината составляет 10% масс против 25% масс в исходном сырье. После второй стадии селективной очистки количество ароматики снижается до 8% масс. То есть при двухстадийной очистке степень извлечения ароматических углеводородов составляет 68% масс, серосодержащих углеводородов 74,3%, что говорить о более глубокой сероочистке при осуществлении процесса постадийно. Выход рафината при этом составляет 75,6% на сырье.

**Таблица 2.** Характеристика рафината полученного на основе смеси прямогонной дизельной фракции и легкого газойля вторичной переработки нефти

| Соотнош. ИЖ: сырье, % масс | Время контакта компонентов, мин | Выход рафината, % масс | Выход экстракта, % масс | Остаточное содержание, % масс | | Степень очистки, % масс от | | $n_D^{20}$ | Кинем. вязкость, при 20°С мм²/с | Плотность при 20°С, кг/м³ | Цетановое число |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Аромат. | серы | Аромат. | серы | | | | |
| 2:1 [а] | 60 | 76,57 | 23,43 | 6,0 | 0,0364 | 76,0 | 72,2 | 1,4654 | 5,11 | 822 | 54,59 |
| Постадийно I этап[б] 1:1 | 60 | 84,4 | 15,6 | 10 | 0,0486 | 60,0 | 61,6 | | | | |
| II этап 1:1 | 60 | 75,6(на сырьё) | 10,4 | 8,0 | 0,0325 | 68,0 | 74,3 | 1,4604 | 5,11 | 826 | 53,2 |
| I этап[в] 2:1 | 60 | 78,5 | 21,5 | 6,0 | 0,0373 | 76,0 | 67,1 | | | | |
| II этап 1:1 | 60 | 72,3(на сырьё) | 9,7 | 5,0 | 0,0285 | 80 | 77,5 | 1,4586 | 4,97 | 820 | 54,4 |
| 2:1[г] | 60 | 62,34 | 37,66 | 6,0 | 0,0313 | 79,3 | 72,4 | 1,4662 | 5,20 | 837 | 50,38 |

Примечание: а)- результаты одностадийной очистки смеси ПДФ+ ЛГК

б, в) результаты постадийной очистки ПДФ+ ЛГК

г) результаты одностадийной очистки смеси ПДФ+ ЛГКК

Основываясь на полученные результаты постадийная экстракционная очистка сырья осуществлена в аналогичных условиях с использованием на первой стадии двукратного избытка экстрагента, а на второй стадии равным количеством экстрагента. При этом на первой стадии, как было и отмечено, наблюдается относительно глубокая деароматизация и остаточное содержание ароматики составляет 6% масс, после второй стадии очистки остаточное содержание ароматических углеводородов рафината снижается до 5% масс, серосодержащих угледоводородов до 0,0285% масс при выходе рафината 72,3% масс на сырье.

В исследуемых условиях осуществлена экстракционная очистка смеси ПДФ и ЛГКК содержащего 29% масс ароматики и 0,1132% масс серосодержащих углеводородов. Показано, что при избирательной очистке сырья двукратным избытком ИЖ при 20-25°С и времени контакта 1 час выход рафината составляет 62,34% масс. Степень деароматизации в указанных условиях составляет 79,3% при остаточном содержании ароматики в рафинате 6%. При этом содержание серосодержащих соединений снижается с 0,1132% масс до 0,0313% и степень десульфирования составляет 72,4% масс. Цетановое число очищенного дистиллята увеличивается с 23 до 50,38.

С учетом того, что синтез указанного ионно-жидкостного состава осуществлен с использованием в качестве аминного компонента N-метилпирролидона, который в свою очередь является промышленно применяемым избирательным растворителем в процессах экстракционной очистки нефтяных фракций, нами была исследована селективная очистка указанных дизельных дистиллятов с использованием в качестве экстрагента самого

N-метилпирролидона. Показано, что при селективной очистке смеси ПДФ+ЛГКК N-метилпирролидоном в аналогичных условиях, в частности с использованием двукратного избытка экстрагента, при температуре экстракции 20-25°С и времени контакта компонентов 1 час выход рафината составляет всего 54,43% масс на сырья против 62,34% масс в случае экстракционной очистки соответствующего сырья ионной жидкостью. При этом необходимо отметить, что остаточное содержание ароматических углеводородов (8% масс) и серосодержащих соединений (0,0392% масс) в рафинате несколько выше и степень деароматизации составляет всего 72,5%, десульфирования- 65,4 против 79,3% и 72,4% масс, соответственно в случае экстракции с ионной жидкостью, синтезированной на основе N-метилпирролидона и уксусной кислоты.

При селективной очистке ЛГК также наблюдается относительно высокая растворяющая способность N-метилпирролидона при низкой его избирательности. При этом выход рафината составляет 61% масс против 76,57% при очистке указанного сырья ИЖ. Остаточное содержание ароматики в рафинате при степени очистки 72,0% составляет 7% масс, серы- 0,0398 % при степени очистки 68,46% масс против 72,2% масс ионно-жидкостной очисткой.

Таким образом, полученные результаты указывают на эффективность применения ионной жидкости на основе N-метилпирролидона и уксусной кислоты в качестве избирательного растворителя в процессах очистки дизельных дистиллятов с различным содержанием ароматических углеводородов.

Преимущество ионно-жидкостного состава определяется как высоким выходом рафината по сравнению с экстракционной очисткой исследуемых дистиллятов дизельного топлива в аналогичных условиях органическим растворителем- N-метилпирролидоном, а также их экологичностью.

**СПИСОК ЛИТЕРАТУРЫ**

1. Ф.И.Самедова. Применение гидрогенизационных процессов в производстве масел. Издательство – Элм, 2008, 256 с.
2. Р.Ш.Кулиев. История науки и производства смазочных масел в Азербайджана – Баку: Элм, 2007, 244 с.
3. Яковлев А.А. Эффективность производства экологически чистых дизельных топлив с применением технологии экстракции ароматических углеводородов// Международный форум «ТЭК России» С.Петербург, 2002, с.122-123
4. Jonchen E., Wasserscheid P., Jess A. Deep desulfiration of oil refinery streams by extraction with ionic liquids // Green Chem., 2004, № 7, p. 316-322.
5. Wan Mokhtar W., Abu Bekar W., Rusmidah A. Deep desulfurization of model diesel by extraction with N,N-dimethylformamid : Optimization by Box – Behnken desing // Journal of the Taiwan Institute of chemical Engineers, 2014, V.135, p.314-319.
6. Азизов А.Г.,Асадов З.Г., Ахмедова Г.А. Ионные жидкости и их применение. Баку, Элм, 2010, 578 с
7. Zhang S.G., Zhang Q.,L., Zhang Z.C. Extractive desulfurization and denitrogenation of fuels using ionic liquids: applications in catalysis //İnd.Eng. Chem. Res., 2004., v.43, p.614-622
8. Wasserscheid P. Ionic Liquids in Synthesis // P. Wassercheid ,T. Welton, Weinheim: Wiley-VCN 2003.705 p
9. Zhang S., Zhang Z.C. Novel properties of ionic liquids in selective sulfur from fuels at room temperature // Green Chem., 2002, v. 4, p. 373-379.
10. Naydenov D., Bart H.J. Ternary liquid –liquid equilibra for Six systems containing ethylacetate + ethanol or acetic acid+an imidazolum- baced ionic liquid with a hydrogen sulfate anion at 313.2 K //J.Chem. Eng. 2007, v.52.p.2375-2391.

11. Alonso L., Arce A., Francisco M, Soto A. Liquid-liquid eqiilibria of [$C_8$ min] [$NTf_2$] ionic liquid with a sulfur-component and hydrokarbonc //J.Chem. Thermodynamies. 2008,v.40, p.285-270.
12. С.А.Решетов, А.К.Фролкова Ионные жидкости как разделяющие агенты // Теоретические основы химической технологии. Вестник МИТХТ, 2009, т.4 № 3,с. 27-44.
13. Азизов А.Г., Султанов С.А., Нагиев В.А. и др. Селективная очистка дизельного топлива с применением в качестве экстрагента ионно-жидкостного состава на основе муравьиной кислоты и морфолина // Мир нефтепродуктов, 2009, № 3, с. 20.
14. Ибрагимова М.Д., Азизов А.Г., Гусейнова А.Д. и др. Исследование процесса селективной очистки бензина реформинга морфолинформиатной жидкостью // Процессы нефтехимии и нефтепереработки, 2011, № 12(3)(47), с.189-194.
15. Самедова Ф.И., Азизов А.Г., Мамедов Р.Б. и др. Подбор оптимальных условий селективной очистки масляного дистиллята с использованием в качестве избирательного растворителя морфолинформиата // Нефтепереработка и нефтехимия, 2010, №12, с. 35-38
16. Азизов А.Г., Самедова Ф.И., Ибрагимова М.Д. и др. Ионная жидкость высокоэффективный экологический растворитель для селективной очитки масляных фракций // Мир нефтепродуктов, 2008, № 6, С. 22-24.
17. Ибрагимова М.Д., Нагиев В.А., Саидова С.А. и др. Селективная очистка нефтяной фракции, выделенной из смеси нефтей Азербайджана с использованием в качестве избирательного растворителя ионных жидкостей // Нефтепереработка и нефтехимия, 2016, № 10, С. 27-32.
18. Ибрагимова М.Д., Аббасов В.М., Алиева С.Г. и др. Селективная очистка дистиллята АМГ-10 ионно-жидкостным экстрагентом // Нефтепереработка и нефтехимия, 2016, № 12, С. 82-85.
19. V.M. Abbasov, S.Q. Aliyeva, V.A. Nagiyev, A.B.Xalilov et al. Investigation of hydrocarbon group composition of hydraulic liquid AMG-10 prepared from oil rocks // International Journal of Scientific Engineering and Applied Science (IJSEAS) – Volume-3, Issue-10, October, 2017, p. 29-31.
20. Кузова И.Е., Дубровский Д.А., Черепанов В.Д. Дьячкова С.Г. Использование среднедистиллятных продуктов вторичной переработки нефти для увеличения производства дизельного топлива ЕВРО // Мир Нефтепродуктов, 2016, № 3, с. 18-24.

*2017. Volume 1, Number 2* *Pages 222-225*

*UOT: 633: 15; 5811 / 1*

# QARĞIDALI NÜMUNƏLƏRİNİN QURAQLIQ VƏ DUZLULUQ STRESİNƏ DAVAMLILIĞININ FİZİOLOJİ PARAMETRLƏR ƏSASINDA DİAQNOSTİKASI

**R.T. MİKAYILOVA, G.S. MƏCİDOVA, X.Ş. ABIŞOVA, F.R. KƏRİMOVA**

AMEA Genetik Ehtiyatlar İnstitutu

Bakı / AZƏRBAYCAN

*mikailova.71@ mail.ru*

**XÜLASƏ**

Laboratoriya şəraitində qarğıdalı nümunələrinin quraqlıq və duz stresinə davamlılığı təyin edilmişdir. Müxtəlif qatılıqlı şoran torpaqda cücərdilmiş toxumların yarpaqlarında duzun qatılığı artdığı zaman, xlorofil (a+b)-nin miqdarı azalır. Quraqlıq şəraitində cücərdilmiş toxumların yarpaqlarında isə xlorofil (a+b)-nin miqdarı artmış olur. Belə nümunələrin quraqlığa davamlılıq göstəricisi yüksək olur.

**Açar sözlər:** qarğıdalı, stres, quraqlıq, duzluluq.

**ДИАГНОСТИКА СТРЕССА ЗАСУХО И СОЛЕУСТОЙЧИВОСТИ НА ОСНОВЕ ФИЗИОЛОГИЧЕСКИХ ПАРАМЕТРОВ У ОБРАЗЦОВ КУКУРУЗЫ**

**РЕЗЮМЕ**

Влабораторных условиях была исследована засухо- и солеустойчивость у образцов кукурузы.В результате увелечения концентрации соли, в листьях семян, выращенных в почвах с разными солевыми концентрациями, количество хл( а+б) уменьшается.

В листьях же семян, выращенных в условиях засухи, количество хл( а+б) увеличивается. У этих образцов показатель засухоустойчивости бывает высоким.

**Ключевые слова:** кукуруза, стресс, засуха, засоленность.

**THE SAMPLES OF MAIZE ARIDITY AND SALTNESI STRESSION DURABLES IS DIAGNOSTICS BASED ON PHYSIOLOGICAL PARAMETERS**

**ABSTRACT**

In laboratory conditions was appointed maize samples′ aridity and salt stress durability. In different concentration salty soils spronted seeds of leaves when salt concentrat is thrown, chlorophyll (a+b)’s mass is decrease. But in aridity condition sprouted seeds’ leaves while chlorophyll (a+b)’ mass have been thrown.In such examples aridity durability indicator rose.

**Key words:** maize, stress, aridity, salty.

## Giriş

Son onilliklər ərzində dünya birliyi tərəfindən əhalinin artmaqda olan tələbatlarını ödəməkdə mühüm rol oynayan bitki genetik ehtiyatlarının bu günkü vəziyyətinə, inkişafına və mövcud olan təxirə salınmaz problemlərin həllinə ciddi təsir edə biləcək beynəlxalq miqyaslı sənədlər qəbul edilmişdir. Bu sənədlərdə qarşıya qoyulan məsələlər və qaldırılan problemlərin aktuallığını nəzərə alaraq Azərbaycan Respublikasında genetik ehtiyatların toplanması, öyrənilməsi, sənədləşdirilməsi, bərpası, çoxaldılması sahəsində uğurlar əldə edilmişdir. Torpaqlardan səmərəli istifadənin mümkün yollarından biri stres amillərə davamlı, eyni zamanda iqtisadi əhəmiyyət kəsb edən bitki sort və formalarının aşkar edilməsi, onlara uyğun bölgələrdə becərilməsinin təmin olunması, daha davamlı yeni bitki sortlarının yaradılmasıdır [1,2].

## Tədqiqat metodu

Tədqiqat obyekti olaraq 4 qarğıdalı nümunəsi götürülmüşdür.Təcrübə zamanı iki nümunə (K-247; 250 ) müxtəlif qatılıqlı məhlullarda (NaCl, saxaroza) cücərdilmiş, iki nümunə isə ( KF-31; 485) müxtəlif dərəcədə şoranlaşdırılmış torpaqda əkilmişdir.

Birinci təcrübə K- 250 (Zaqatala- partlayan) və K- 247 ( Zaqatala – partlayan) nümunələri ilə aparılmışdır. Hər nümunənin 40 dənəsi üzərinə distilə suyu əlavə edilərək 28$^0$C temperaturda termostatda cücərdilmişdir.Sonra 7 günlük cücərtilər stres məhlullara keçirilmişdir.Stres məhlul kimi 1və 2 atm. NaCl ,1 və2 atm. saxaroza götürülmüşdür. Yenidən 21$^0$C temperaturda termostata qoyulmuşdur.5 gündən sonra nümunələr termostatdan çıxardılaraq cücərdilməsi adi otaq temperaturunda davam etdirilmişdir.

Saxarozada cücərdilən nümunələr hər iki atmosferdə cücərti vermiş, amma NaCl stresində cücərdilən dənlər yalnız 2atm-də cücərmişdir.

## Tədqiqat işinin müzakirəsi və onun nəticələri

Stres verilmiş cavan bitkilərin yarpaqlarından dairəciklər götürülmüş (1-2 təkrar) və 96%-li spirtə keçirilmişdir. 5 gündən sonra spektofotometrdə baxılmışdır [3].Alınan nəticələr cədvəl 1-də öz əksini tapmışdır.

**Cədvəl 1.** Müxtəlif qatılıqlı məhlullarda cücərdilmiş qarğıdalı nümunələrinin yarpaqlarında xlorofil (a+b)-nin miqdarında baş verən dəyişikliklər.

| **Kataloq №-si** | **Nümunənin adı** | **Variantlar** | **Xlorofilin miqdarı (vahid yarpaq sahəsində Mkq-larla)** | | | | **Ca+Cb göstəriciləri (nəzarətə görə %-lə)** | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | **Nəzarət** | | | | **Quraqlıq** | **Duzluluq** |
| | | | **a** | **b** | **a+b** | **a/b** | **a+b** | **a+b** |
| 247 | Zaqatala part.-sort | Nəzarət | 2,62 | 0,92 | 3,54 | 2,85 | | |
| | | Quraqlıq 1atm | 2,48 | 1,00 | 3,48 | 2,48 | 98 | |
| | | Quraqlıq 2 atm | 3,22 | 1,15 | 4,37 | 2,80 | 123 | |
| | | Duzluluq 2 atm | 2,93 | 0,86 | 3,79 | 3,40 | | 107 |
| 250 | Zaqatala part.sort | Nəzarət | 3,26 | 0,86 | 4,12 | 3,79 | | |
| | | Quraqlıq 1atm | 3,25 | 0,76 | 4,01 | 4,27 | 97 | |
| | | Quraqlıq 2 atm | 3,59 | 0,86 | 4,45 | 4,17 | 108 | |
| | | Duzluluq 2 atm | 3,06 | 0,74 | 3,80 | 4,13 | | 92 |

Cədvəldən göründüyü kimi 1atm. quraqlıq stresinin təsirindən K- 247 (Zaqatala-partlayan) sortunda xlorofildə azalma 2%, 2atm. quraqlıq stresinin təsirindən isə 23% artım, 2atm. duz stresinin təsirindən isə 7% artım müşahidə edilmişdir.

Zaqatala partlayan (K-250) sortunun nümunələrində də 1atm quraqlıq stresinin təsirindən 3% azalma, 2atm.-də isə 8% artım, 2atm. duzluluq stresində isə 8% azalma müşahidə edilmişdir.

Cədvəl 2-də 247 və 250 nümunələrinin yarpaqlarında karotinoidlərin miqdarındakı dəyişikliklər göstərilib.

247 nömrəli nümunədə 1 atm. quraqlıqda 81%; 2 atm.-də 96%, duzluluq 2 atm.-də 154% qeydə alınmışdır.

250 nömrəli nümunədə olan karotinoidin miqdarı isə quraqlıq 1 atm. və 2 atm.-in hər ikisində 96%, duzluluq 2 atm.-də isə 84% müşahidə edilmişdir.

Karotinoidlərin tədqiqi zamanı 247(Zaqatala-partlayan) sortunda quraqlıq stresinin təsirindən 1 atm. qatılıqda karotinoid göstəricisi nəzarətə görə azalmış (N-0,27;K-0,22); 2 atm. qatılıqda karotinoid göstəricisi nəzarətə yaxın olmuşdur ( N-0,27; K-0,26).

Zaqatala-partlayan (250) sortunda isə quraqlıq stresinin təsiri nəticəsində 1və 2 atm. Qatılıqda karotinoidlər nəzarətə yaxın olmuşlar ( N-0,33; K-1 atm- 0,32; 2 atm-0,32).

**Cədvəl 2.** Müxtəlif qatılıqlı məhlullarda cücərdilmiş iki qarğıdalı nümunəsinin yarpaqlarında karotinoidin miqdarında gedən dəyişikliklər.

| Kataloq №-si | Nümunənin adı | Variantlar | Karotinoid ( litrdə mkq-la) | Nəzarətə nisbətən %-lə | |
|---|---|---|---|---|---|
| | | | | Quraqlıq | Duzluluq |
| 247 | Zaqatala part.-sort | Nəzarət | 0,27 | | 247 |
| | | Quraqlıq 1atm | 0.22 | 81 | |
| | | Quraqlıq 2 atm | 0,26 | 96 | |
| | | Duzluluq 2 atm | 0,34 | | |
| 250 | Zaqatala part.-sort | Nəzarət | 0,33 | | 250 |
| | | Quraqlıq 1atm | 0,32 | 96 | |
| | | Quraqlıq 2 atm | 0,32 | 96 | |
| | | Duzluluq 2 atm | 0,28 | | |

Beləliklə, laboratoriya şəraitində müxtəlif qatılıqlı məhlullarda aparılan tədqiqatdan belə nəticə çıxarmaq olar ki, saxarozanın qatılığı artdıqca həm xl (a+b) –nin miqdarı nəzarətə nisbətən artmış, həm də həmin nümunələrin quraqlığa davamlılıq göstəricisi yüksək olmuşdur.

İkinci təcrübə zamanı KF-31 (Miravari-dişvari) və 485 (Zaqatala-dişvari) nümunələrindən petrə qablarına 50 ədəd dən tökülüb, üzərinə distilə suyu əlavə edilərək termostatda 26$^{0}$C-də cücərdilib. Cücərtilər NaCl vasitəsi ilə 0,25 və 0,03%-ə qədər şoranlaşdırılmış torpağa əkilib.

16 gün şoran torpaqda əkilən toxumlar cücərdikdən sonra yarpaqlardan dairəciklər götürülərək spirtə keçirilib və 7 gündən sonra spektofotometrdə baxılıb.

**Cədvəl 3.** Müxtəlif qatılıqlı şoran torpaqda cücərdilmiş iki qarğidalı nümunəsinin yarpaqlarında baş verən dəyişikliklər.

| Kataloq №-si | Nümunənin adı | Variantlar | Xlorofilin miqdarı (vahid yarpaq sahəsində Mkq-larla) | | | | Karoti-noid (litrdə mkq-la) | Ca+Cb göstəri-ciləri. (nəzarətə görə %-lə) |
|---|---|---|---|---|---|---|---|---|
| | | | a | b | a+b | a/b | | |
| KF-31 | Mirvari dişvari sort | Nəzarət | 3,98 | 0,88 | 4,86 | 4,52 | 0,21 | |
| | | Zəif şoran 0,25%-li | 2,81 | 0,43 | 3,24 | 6,53 | 0,16 | 67 |
| 485 | Zaqatala dişvari sort | Nəzarət | 3,69 | 0,70 | 4,39 | 5,27 | 0,21 | |
| | | Zəif şoran 0,25%-li | 3,40 | 0,88 | 4,28 | 3,86 | 0,16 | 97 |
| | | Zəif şoran 0,03%-li | 2,56 | 0,99 | 3,55 | 2,59 | 0,46 | 81 |

3-cü cədvəldən göründüyü kimi KF-31 nümunəsində karotinoidlərin miqdarı 0,25%-li zəif şoran torpaqda əkilən bitkidə nəzarətə görə azalmışdır (N-0,21;K- 0,16) .

485 nömrəli nümunədə isə 0,25% -li şoran torpaqda əkilən bitkilərdə nəzarətə nisbətən karotinodin miqdarı azalmış (N-0,21;K-0,16), 0,03%-li zəif şoran torpaqda əkilən bitkilərdə isə artmışdır ( N-0,21;K-0,46).

Şoran torpaqda bitən bitkilərdə xlorofil (a+b)-nin miqdarı isə nəzarətlə müqayisədə azalmış, 0,25 %-li torpaqda Mirvari-dişvari sortunda azalma dərəcəsi 23%-ə, Zaqatala-dişvari sortunda 0,25%-li torpaqda 3%-ə , 0,03 %-li torpaqda isə 9%-ə bərabər olmuşdur.

Tədqiqat göstərdi ki, torpaqda duzun qatılığı artdıqca xlorofilin azalma dərəcəsi də artır.

**Nəticə:** Beləliklələlaboratoriya şəraitində qarğıdalı bitkisi üzərində aparılan təcrübələr nəticəsində duzun müxtəlif qatılaqlarının təsirindən yarpaqlarda xl (a+b)-nin miqdarında müxtəlif dərəcədə dəyişikliklər müşahidə olunmuşdur ki, bu da onların düşdükləri mühütə uyğunlaşması ilə əlaqədardır.

Tədqiqatlar göstərdi ki, torpaqda duzun qatılığı artdıqca yarpaqlarda xlorofilin miqdarı azalır. Aparılan təcrübələrin nəticəsinə əsaslanaraq demək olar ki, quraqlıq artdıqca həm xlorofil (a+b)-nin miqdarı nəzarətə nisbətən artmış, həm də həmin nümunələrin quraqlığa davamlılıq göstəricisi yüksək olmuşdur.

**ƏDƏBİYYAT**


1. Əliyev R.T.,Axundova E.M.,Hacıyeva Ş.İ.. *Buğdanın müxtəlif genotiplərinin quraqlıq stresinə davamlılığının fizioloji göstəricilərinə görə qiymətləndirilməsi. Azərbaycan Aqrar Elmi. № 1-3,2007, s.86-88*
2. Cavadova L.H., Hacıyeva Ş.İ. və b. *Müxtəlif buğda sortlarının abiotik streslərə davamlılığının qiymətləndirilməsi. Pedoqoji Universitet xəbərləri. Təbiət elmləri seriyası. Bakı. № 3,2008, s.38-40*
3. Гончарова Э.А. *Оценка устойчивости к разным стрессам плодово-ягодных и овощных культур. В.Кн,Диагностика устойчивости растений к стрессовым воздействиям (методические указание). Л.1988.стр.46-62* (Qonçarova E.A. *Otsenka ustoyçivosti k raznım stresam plodovo-yaqodnıx i ovoşnıx kultur.V.Kn.Diaqnostika ustoyçivasti rasteniy k stresovm vozdeystviyam (metodiçeskiye ukazaniye). L.1988.str.46-62)*

*JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY - CHEMISTRY AND BIOLOGY*
**2017. Volume 1, Number 2** **Pages 226-230**

*UOT 633:11:547.979.7*

# BƏRK BUĞDANIN (*T.DURUM* DESF.) YERLİ VƏ İNTRADUKSİYA OLUNMUŞ NÖVMÜXTƏLİFLİKLƏRİNİN QURAQLIQ VƏ DUZ STRESLƏRİNƏ DAVAMLILIĞI VƏ KEYFİYYƏT GÖSTƏRİCİLƏRİ

**R.T. ƏLIYEV, Ş.İ. HACIYEVA, X.Ş. ABIŞOVA, R.T. MIKAYILOVA, Q.Ə. MƏMMƏDOVA, E.S. HACIYEV**

AMEA Genetik Ehtiyatlar İnstitutu

Bakı / AZƏRBAYCAN

*aramiz@box.az*

**XÜLASƏ**

Laboratoriya şəraitində stres amillərin fizioloji proseslərə, xüsusilə də xlorofil "a" və xlorofil "b"-nin depressiya dərəcəsinə təsiri, xlorofil (a+b)-nin miqdarı və a/b-nin nisbəti hesablanmış və bu diaqnostik metodla 39 bərk buğda növmüxtəlifliklərinin quraqlıq və duzluluq streslərinə davamlılıq dərəcələri və keyfiyyət göstəriciləri təyin edilmişdir. Hər iki stresə davamlılığına görə fərqlənən 3 nümunə seçilmişdir.

**Açar sözlər:** buğda, quraqlıq, duzluluq, xlorofil, kleykavina, şüşəvarilik.

**ОЦЕНКА РАЗНОВИДНОСТЕЙ ТВЕРДОЙ ПШЕНИЦЫ (T.DURUM DESF.) УСТОЙЧИВОСТИ К АБИОТИЧЕСКИМ СТРЕССОВЫМ ФАКТОРАМ (ЗАСОЛЕНИЕ, ЗАСУХОУСТОЙЧИВОСТЬ) И СТЕПЕНИ КАЧЕСТВЕННОСТИ**

**РЕЗЮМЕ**

В лабораторных условиях изучено действие стрессовых факторов на физиологические процессы, особенно степень депрессии хлорофилла «а» и «б». Также было определено содержание хлорофилла а+б и их соотношение.С помощью этого диагностического метода определено засухо и солеустойчивость у 39 разновидност твердой пшеницы. Установлено что из них 3 разновидност является устойчивыми ко всем стресс факторам.

**Ключевые слова:** пшеница, засуха, соленость, хлорофилл клейковина, стекловидность.

**EVALUATION OF HARD WHEAT (*T.DURUM* DESF.) BOTANICAL VARIETIES FOR RESISTANCE TO ABIOTIC STRESSES (SALT AND DROUGHT RESISTANCE) AND THEIR LEVEL OF QUALITY**

**ABSTRACT**

Physiological processes, especially the degree of depression in chlorophyll "a" and "b", to the stresses were studied in the laboratory conditions. It was also determined the chlorophyll ("a+b") content (substance) and calculated their ratio. By using this diagnostic method the resistance to drought and salinity stress conditions of 39 durum wheat accessions was evaluated. It was revealed, that among of studied material the 3 botanical varieties were resistant to both stress factors.

**Key words:** wheat, drought, salinity, chlorophyll, gluten, hardness/vitrescence.

## Giriş

Bitkilər stres amillərə müqavimət göstərmək üçün müxtəlif müdafiə mexanizimlərinə malikdirlər. Bu müdafiə mexanizimləri stres genlərin ekspresiyasının dəyişilməsi ilə tənzimlənir. Quraqlıq stresi fotosintetik membranın piqment və zülalların tərkib və miqdarlarında, spektral xüsusiyyətlərində və xloroplastların fotokimyəvi fəallığında mühüm dəyişikliklərə səbəb olur. Quraqlığa davamlı genotiplər yüksək fotosintetik fəallıq saxlamaqla stresin təsirindən qoruna bilirlər [2]. Bitkilərin stresə adaptasiyası membranın zülal sistemi ilə bilavasitə əlaqədar olub stresə qarşı kəmiyyət və keyfiyyətcə yenidən qurulma ilə cavab verir [1].

Quraqlığa qarşı əmələ gələn ilk cavablardan biri xloroplastlara $CO_2$–nin diffuzyasını azaldan ağızcıqların bağlanması hadisəsidir. Quraqlıq zamanı bitkilərin ağızcıqlarını bağlanmasına səbəb olan iki əsas təsir müvafiq olaraq hidrolitik siqnallar (yarpaq su potensialı hüceyrə turqoru) və kimyəvi siqnallardır (apsis turşusu). Köklərdə sintezlənən və transpirasiya axını ilə qoruyucu hüceyrələrə daşınan absis turşusu (ABT) oksigen radikallarının bu xlorofil protein kompleksinə təsirinin qarşısını ala bilir [6].

## Material və metodlar

Tədqiqat işi, yerli və intraduksiya olunmuş 39 bərk buğda (*T.durum* Desf) nümunələrinin üzərində aparılmışdır.

Buğda genotiplərinin duzluluq və quraqlıq streslərinə davamlılığı ilə xlorofilin miqdarı arasındakı əlaqəni öyrənmək məqsədilə tarla təcrübələrindən yarpaq nümunələri (yuxarıdan ikinci yarpaq) laboratoriyaya gətirilərək onlara duz və quraqlıq stresi verilmişdir. Bu məqsədlə sahədən gətirilmiş yarpaqlardan kiçik dairəciklər kəsilərək üç hissəyə ayrılmışdır. Hər təcrübə variantından sınaq şüşələrinə 5 dairəcik yerləşdirilmişdir. Birinci hissəyə su, digərinə isə 2%-li NaCl məhlulu, 3-cü hissəyə 20 atm. təzyiqli saxaroza məhlulu əlavə edilərək, $24^0$C temperaturda 1 gün saxlanılmışdır. Sonra dairəcikər məhluldan çixarılaraq filtr kağızı ilə qurudulmuş və 10 ml-lik sinaq şüşəsinə keçirilərək üzərinə spirt əlavə edildikdən sonra bir neçə dəqiqə qaynadılmışdır (dairəciklərin rəngi ağarana qədər).

Soyuduqdan sonra sınaq şüşəsində spirtin həcmi 10 ml-ə çatdırılmış və xlorofilin miqdarı spektrofotometrdə xlorofil "a" 665 nm, xlorofil "b" isə 649 nm dalğa uzunluğunda ölçülmüşdür. Duz və quraqlıq variantındakı piqment qatılığının su variantına nisbəti tapılmış və bu nisbət duza, quraqlığa davamlı formaların seçilməsi üçün bir ölçü meyarı kimi qəbul olunmuşdur. Alınmış nəticələr nə qədər yüksək olarsa, o nümunə bir o qədər davamlı forma kimi qəbul edilmişdir [3]. Bundan əlavə tədqiqat obyekti olan nümunələrin dənlərində fiziki göstəricilər-kleykavinanın miqdarı seqmentasiya və keyfiyyəti, srdimentasiya çöküntüsü təyin edilmişdir [4]. Dənin şüşəvariliyi, 1000 dənin kütləsi qəbul edilmiş metodlarla (DS-10842-64, 10840-64), kleykovinanın miqdarı və keyfiyyəti (DC-9406-60) əsasında öyrənilmiş, kleykovinanın keyfiyyəti unun müqaviməti və uzanma qabiliyyətinə görə qiymətləndirilmişdir (müqavimət KDƏ-1 cihazı vasitəsilə ölçülür). Sedimentasiya göstəricisi makrometod əsasında sirkə turşüsu vasitəsi ilə təyin edilmişdir [5].

## Nəticə və onların müzakirəsi

Bərk buğda nümunələrinin yarpaqlarındakı xlorofilin miqdarının öyrənilməsi üzrə tədqiqatların nəticələri 1 saylı cədvəldə verilmişdir. 1 №-li cədvəldə göstərilən tədqiqat nəticələri quraqlıq və duz stresinə məruz qalmış buğda növmüxtəlifliklərinin yarpaqlarında xlorofil "a" , "b" –ni,"a" və "b"-nin cəmini, "a"-nın "b"-yə nisbətini göstərir.

Piqmentlər fotosintez prosesində oksigen daşınmasında, oksidləşdirici və fotosintetik fosforlaşmada, bir sözlə bitki orqanizmində ümumi maddələr mübadiləsində iştirak edirlər. Məlumdur ki, xlorofillər (xüsusən "b" xlorofili) bitkinin xarici mühitin əlverişsiz amillərinə qarşı uyğunlaşmasında böyük rol oynayır. Uyğunlaşma zamanı xlorofil "a"-nın "b"-yə nisbətinin bir qədər azalması və ya çoxalması bitkidə gedən fizioloji proseslərdə ciddi sürətdə öz əksini tapır.

Bu faktorlardan istifadə edərək seleksiya prosesində istər başlanğıc materialın seçilməsində, istərsədə alınmış yeni hibrid, xətt və sortların qiymətləndirilməsində perspektiv formaların aşkar edilməsində istifadə etmək mümkündür.

**Cədvəl 1.** Bərk buğda (*T. durum* Desf.) nümunələrinin yarpaqlarında xlorofilin miqdarının dəyişməsinə görə quraqlığa və duzluluğa davamlılığının göstəriciəri

| Nümunələrin adı və Kataloq №-si | Xorofilin miqdarı (vahid yarpaq sahəsində Mkq-larla) | | | | | | a+b və a/b göstəriciləri (nəzarətə görə %-lə) | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Nəzarət | | Quraqlıq | | Duzluluq | | Quraqlıq | | Duzluluq | |
| | a | b | a | b | a | b | a+b | a/b | a+b | a/b |
| Qarabağ St 1 | 8.61 | 3.02 | 5.26 | 1.66 | 6.42 | 2.09 | 110- | 59≡ | 107- | 73≡ |
| Bərəkətli St 2 | 6.09 | 2.48 | 7.84 | 3.11 | 8.84 | 3.22 | 102= | 127- | 111- | 140- |
| *Mutico.hordeiforme* 14 | 8.37 | 2.88 | 7.52 | 2.73 | 7.70 | 2.48 | 94≡ | 91≡ | 106 | 90≡ |
| *Mutico.hordeiforme* 15 | 9.06 | 3.27 | 7.96 | 2.94 | 8.69 | 3.02 | 97≡ | 88≡ | 103= | 94≡ |
| *Murcience* 19 | 7.37 | 2.59 | 6.02 | 2.25 | 7.34 | 2.50 | 94≡ | 83≡ | 103= | 98≡ |
| *Erythromelan* 35 | 7.21 | 2.81 | 6.46 | 2.42 | 6.68 | 2.45 | 103= | 88≡ | 106- | 91≡ |
| *Affine* 27 | 5.28 | 2.27 | 4.56 | 1.79 | 6.37 | 2.51 | 109- | 84≡ | 108- | 117- |
| *Affine* 29 | 7.06 | 2.70 | 7.11 | 2.72 | 7.28 | 2.58 | 100= | 100= | 107- | 100= |
| *Murcience* 24 | 9.82 | 3.44 | 7.51 | 2.85 | 10.6 | 3.53 | 92≡ | 78≡ | 106- | 107= |
| *Melanopus* 39 | 7.89 | 3.10 | 7.17 | 2.80 | 9.43 | 3.17 | 100= | 90= | 111= | 110- |
| *Mutico.melanopus* 42 | 5.86 | 2.01 | 6.30 | 2.30 | 6.84 | 2.37 | 93≡ | 109- | 98= | 117- |
| *Mutico.melanopus* 43 | 8.30 | 2.89 | 7.66 | 2.85 | 8.48 | 2.85 | 93≡ | 93≡ | 103= | 101= |
| *Coerulescens* 46 | 9.48 | 3.21 | 9.82 | 3.43 | 9.96 | 3.33 | 97≡ | 104- | 101= | 104= |
| *Coerulescens* 47 | 8.17 | 2.90 | 6.09 | 2.17 | 8.70 | 2.85 | 99≡ | 74= | 108- | 104= |
| *Provinciale* 67 | 7.22 | 2.61 | 6.76 | 2.57 | 7.85 | 2.73 | 95≡ | 94= | 103= | 108= |
| *Albo.provinciale* 70 | 8.10 | 2.93 | 7.68 | 2.82 | 8.25 | 2.85 | 98≡ | 95= | 104= | 100= |
| *Alexsandrinum* 73 | 4.55 | 1.93 | 5.25 | 1.92 | 6.43 | 2.31 | 115- | 126- | 135- | 114- |
| *Reishenbashii* 74 | 8.06 | 2.85 | 8.42 | 2.88 | 10.3 | 3.40 | 103= | 103= | 126- | 107- |
| *Dordeiforme* 85 | 4.69 | 2.05 | 3.40 | 1.52 | 4.91 | 2.25 | 73≡ | 97= | 106- | 95≡ |
| *Leucurum* 87 | 7.96 | 2.93 | 7.33 | 2.72 | 8.62 | 2.95 | 98≡ | 92= | 106- | 107- |
| *Hordeiforme* 89 | 8.52 | 3.03 | 7.52 | 2.58 | 8.33 | 2.70 | 87≡ | 103= | 95= | 109- |
| *Murciense* 90 | 7.80 | 2.90 | 7.73 | 2.94 | 8.24 | 2.89 | 97= | 99= | 106- | 104= |
| *Murciense* 92 | 7.63 | 2.84 | 6.67 | 2.54 | 8.49 | 3.13 | 88≡ | 97= | 100= | 110- |
| *Apulicum* 93 | 7.81 | 2.61 | 6.32 | 2.12 | 8.06 | 2.76 | 81≡ | 103= | 99= | 97= |
| *Melanopus* 94 | 9.02 | 3.45 | 7.95 | 2.98 | 7.95 | 2.98 | 87≡ | 87≡ | 102= | 101= |
| *Melanopus* 96 | 6.14 | 2.38 | 6.32 | 2.66 | 7.06 | 2.68 | 105- | 114- | 92= | 101= |
| *Apulicum* 97 | 5.76 | 2.41 | 5.43 | 2.30 | 6.95 | 2.36 | 98= | 117- | 94= | 110- |
| *Niloficum* 98 | 7.66 | 2085 | 7.26 | 2.68 | 7.07 | 2.47 | 94= | 91= | 100= | 106- |
| *Murciense* 99 | 6.23 | 2.31 | 6.88 | 2.83 | 7.59 | 2.79 | 113- | 121- | 90= | 101= |
| *Apulicum* 100 | 6.50 | 2.50 | 6.18 | 2.40 | 7.20 | 2.58 | 95= | 108- | 98= | 106- |
| *Murciense* 101 | 8.68 | 2.98 | 5.98 | 2.04 | 9.48 | 3.06 | 69≡ | 107- | 100= | 106- |
| *Apulicum* 107 | 7.21 | 2.83 | 6.73 | 2.68 | 6.56 | 2.28 | 94= | 88= | 98= | 112- |
| *Hordeiforme* 108 | 7.73 | 2.74 | 7.60 | 2.72 | 8.55 | 2.80 | 98= | 108- | 98= | 108- |
| *Apulicum* 111 | 9.39 | 3.49 | 8.85 | 3.29 | 10.0 | 3.53 | 94= | 105= | 100= | 106- |
| *Melanopus* 115 | 8.61 | 2.81 | 7.88 | 2.45 | 7.71 | 2.40 | 90= | 88= | 105= | 105- |
| *Hordeiforme* 114 | 7.71 | 2.59 | 8.48 | 2.78 | 8.87 | 2.81 | 109- | 113- | 102= | 105- |
| *Melanopus* 116 | 9.90 | 3.43 | 9.82 | 3.28 | 10.2 | 3.35 | 98= | 101= | 103= | 106- |
| *Mutico.melanopus* 117 | 7.97 | 2.47 | 7.81 | 2.49 | 9.37 | 2.83 | 98= | 116- | 97= | 102= |
| *Hordeiforme* 150 | 10.5 | 3.44 | 0.77 | 3.63 | 11.5 | 3.67 | 103= | 108- | 96= | 102= |
| *Hordeiforme* 151 | 8.88 | 3.09 | 9.42 | 3.27 | 12.5 | 4.15 | 106= | 139- | 100= | 105- |
| *Zerdabi* 200 | 8.96 | 2.94 | 9.25 | 3.12 | 9.86 | 3.21 | 104= | 109- | 97= | 100= |
| *Apulicum* 120 | 8.18 | 3.07 | 7.66 | 2.85 | 8.52 | 3.09 | 93= | 103= | 100= | 103= |

Şərti işarələr : - davamlı; = orta davamlı; ≡ davamsız

1 №-li cədvəldə ki, xlorofil "a+b"-nin göstəricilərinə əsasən tədqiqat obyekti olan nümunələr içərisindən quraqlığa davamlı 5 nümunə, duza davamlı isə 11 nümunə seçilmişdir ki, onlar cədvəldə (-) işarəsi ilə göstərilmişdir.

Seçilmiş sortnümunələr içərisində xloroplastların yüksək fotokimyəvi fəallığına görə cədvəldə 73 kataloqunda göstərilən *Alexsandrinum* nümunəsini göstərmək olar. Bu nümunədə xlorofil "a" nəzarət variantında 4.55 Mkq quraqlıq variantında həmin vahid 5.25, duz variantında isə 6.43 Mkq olmuşdur. Xlorofil "b"-nin göstəricilərinə nəzər salsaq, nəzarətdə 1.93, quraqlıqda 1.92, duz variantında isə 2.31 Mkq olmuşdur. Göstərilən nəticələrə əsasən bu nümunədə xlorofil (a+b)-nin nəzarətə görə faiz göstəricisi 115, duz variantında isə 135 olmuş və bu nümunənin yarpaqlarının yüksək fotokimyəvi fəallığı olduğu üçün həmin nümunə davamlı nümunə kimi seçilmişdir.

Məlumdur ki, bitkilərin quraqlığa, istiliyə və duza davamlılığının qiymətləndirilməsində yarpaqlardakı xlorofil "a"-nın "b"-yə nisbəti müəyyən əhəmiyyətə malikdir. Xlorofil "a"-nın xüsusən də "b"-nin miqdarının artması onların günəş işığının müəyyən uzunluqlu dalğalarından enerji udma imkanlarını genişləndirir. Tədqiqat obyekti olan nümunələr icərisindən quarqlıq və duz stresindən sonra xlorofil "a"-nın "b"-yə olan yüksək nisbəti 10 nümunədə: Bərəkətli; kataloq nömrəsi 42-də olan *mutico.melanopuda;* kataloq nömrəsi 46 olan *coerulescens*-də*;* kataloq nömrəsi 73-də olan *alexsandrinum*-da; kataloq nömrəsi 97-də və kataloq nömrəsi 100 olan *apulicum* –da; kataloq nömrəsi 101 olan *murciense*-də; kataloq nömrəsi 108 və kataloq nömrəsi 151-də olan *hordeiforme*-də müşahidə edilmişdir.

Hər iki stresə (quraqlıq, duz) davamlılığına görə 3 nümunə fərqlənmışdır: Göstərilən standart Qarabağ; kataloq nömrəsi 27 olan göstərilən *affine*; kataloq nömrəsi 73 olan *alexsandrium*dur (Cədvəl 1).

Bu nümunələr başqaları ilə müqayisədə daha fəal piqment kompleksinə malikdir. Onlar fotosintezedici piqmentin yüksək miqdarı ilə seçilirlər (Cədvəl 1). Ədəbiyyat məlumatlarına əsaslanaraq demək olar ki, bu nümunələrin fotosintez aparatı böyük fəallığa malikdir və onlarda işıq enerjisinin kimyəvi enerjiyə (ATF və HADF formalarına) çevrilməsi prosesi daha intensiv gedir.

Bundan əlavə tədqiqat obyekti olan nümunələrin dənlərdə texnoloji göstəricilər olan kleykavinanın miqdarı və keyfiyyəti, srdimentasiya çöküntüsü təyin edilmişdir. Şüşəvarilik və 1000 dənin kütləsinə görə alınan nəticələr qənaətbəxşdir. Standart kimi götürülmüş Bərəkətli-95 və Qarabağ 1000 dənin kütləsinə görə xeyli yeksək olmuşdur. Tədqiq olunan bəzi nümunələrdə 1000 dənin kütləsi v.mürciense (67.6qr) v.provisiale (64.0 qr) v.hordeiforme (62.8 qr) olmuşdur. Şüşəvarilik əsasən 87-100% arasında dəyişmişdir. Öyrənilən 42 nümunədən 10 nümunədə şüşəvarilik 100% olmuşdur (cədvəl 2).

Kleykavinanın miqdarı, tədqiq olunan nümunələrdə yüksək olmasına baxmayaraq (32-47%), keyfiyyət göstəricilərinə (KDƏ və sedimentasiya çökuntüsünə) xeyli aşağı olmuşdur. Növmüxtəlifliklərindən fərqli olaraq standart kimi ğötürülmüş sortlarda KDƏ yüksək olmuşdur. Kleykavinanın miqdarı 22 nümunədə 40% -dən yüksəkdir.

Araşdırmalara əsasən ən yüksək göstəricilərə malik olan 4 növmüxtəlifliyi seçilmiş, standart kimi götürülmüş Qarabağ və Bərəkətli 95 sortlarının göstəricilərinin nəticələri ilə birlikdə cədvəl 2-də verilmişdir.

**Cədvəl 2.** Bərk buğda nümunələrinin yerli və intraduksiya olunmuş növmüxtəlifliklərinin yüksək göstəricilərinə görə seçilmiş nümunələri

| Nümunənin adı və katoloq №-si | Fiziki göstəricilər | | Kleykovinanın miqdarı və keyfiyyəti | | |
|---|---|---|---|---|---|
| | Şüşəvarilik %-lə | 1000 dənin kütləsi qr-la | Miqdar %-lə | KDƏ | Sedmentasiya ml |
| *var.murcience* 19 | 100 | 67.6 | 43.0 | 90 | 11 |
| *var.erythromelan*35 | 98 | 58.0 | 46.2 | 90 | 14 |
| *var.courulescens*47 | 98 | 60.4 | 40.3 | 100 | 20 |
| *var.hordeiforme*114 | 100 | 60.0 | 46.4 | 100 | 15 |
| Bərəkətli-95 St | 76 | 72.8 | 27.0 | 95 | 15 |
| Qarabağ St | 87 | 57.2 | 33.5 | 95 | 16 |

Öyrənilən tetraploid buğda genotiplərinin əlamətləri seleksiya proqramlarına daxil edilərək, yüksək məhsuldar nümunələrə nail olmaq üçün seleksiyaçılara kömək məqsədi daşıyır.

Beləliklə, yarpaqların plastid aparatında baş verən dəyişmələrə əsaslanaraq müəyyən edilmişdir ki, öyrənilən bərk buğda nümunələrindən Qarabağ sortu, *affine* (K27) və *alexsandrium* (K73) növmüxtəliflikləri hər iki steresə davamlı nümunələrdi və onlardan davamlılıq istiqamətində aparılan seleksiya proseslərində donor kimi istifadə etmək olar. Muesiense (K-19), courulescens (K-47), hordeiforme (K-114) növmüxtəlifliklərinin və Bərəkətli-95, Qarabağ sortlarının isə ən yüksək keyfiyyət göstəricilərinə malik olduqları aşkar edilmiş və onlardan da keyfiyyət istiqamətində aparılan seleksiya proqramlarında istifadə oluna bilər.

**ƏDƏBİYYAT SİYAHISI**


1. R.T.Əliyev. Bitkilərin stres amillərə davamlılığının fizioloji metodlarla diaqnostikası. Genetik Ehtiyatlar İnstitutunun elmi əsərləri, Bakı, I cild, s. 504-512, 2009
2. Б.Б.Гиясидинов, Б.А.Солиева, Х.А.Абдуллаев, Х.Х.Каримов. Интенсивность фотосинтеза в зависимости от расположения листьев на кусте тонковолокнистого хлопчат- ника / Достижения современной физиологии растений: теоретические и прикладные аспекты. Душанбе, 2008, с.21-22 (B.B.Qiyasiddinov, B. A.Saliyeva, X.A.Abdullayev, X.X.Karimov. İntensivnost fotosinteza v zavisimosti ot raspolojeniya listyev na kuste tonkovoloknistovo xlapçatnika / Dostijeniya sovremennoy fiziologii rasteniy teoriteçeskiye i prikladneye aspektı. Duşanbe, 2008, str. 21-22 )
3. Э.А. Гончарова. Оценка устойчивости к разным стрессам плодово-ягодных и овощных культур. В. кн. «Диагностика устойчивости растений к стрессовым воздействиям (методические указание)». Л., с.46-62, 1988 (E.A.Qançarovaş Otsenka ustoyçivosti k raznım stressam plodovo-yaqodnıx u ovoşnıx kultur. V. Kn. Diaqnostika ustoyçivosti rasteniy k stressovım vozdeystiviyam (metodiçeskiye ukazaniye). L., 1988, str.46-62)
4. В. П. Данильченко, Л.Р. Торжинская. Оценка качества зерна в хозяйствах и на хлебоприемных предприятиях: Киев: Урожай, С. 82-83, 1990 (V.P.Donilçenko, L.R.Torjinskaya. Otsenka kaçestva zerna v xozyastvax i na xlebopriyemnıx predpriyatiyax: Kiyev:Urajay, 1990, str.82-83)
5. В.Н.Васхнил, И.И.Созинов, и.д. Методы Оценки технологических качеств зерна. Москва с.72-73, 1971 (V.N.Vasxnil, İ.İ.Sozinov, i.d., Metodı otsenki texnoloqiçeskix kaçestv zerna. Moskva 1971, str. 72-73)
6. M. Shiri, R.T.Aliyev, R. Choukan. Water stres effects on combining ability and gene action of yield and genetic properties of drought tolerance indices in Maize // Research Journal of Environment Sciences, v. 4, p.75-84, 2010.

2017. Volume 1, Number 2 Pages 231-234

UOT.574.2

# İMİŞLİ, ZƏRDAB, AGCABƏDİ BÖLGƏLƏRİNDƏ NEŞTƏRLİ ARILARIN (*HYMENOPTERA, VESPIDAE, SPHECIDAE*) NÖV TƏRKİBİ VƏ BİOTOPLAR ÜZRƏ YAYILMASINA DAİR

**Ə.M. HÜMBƏTOV, M.Q. ƏLİYEVA**

Bakı Dövlət Universiteti

Bakı / AZƏRBAYCAN

*sudaba_mamedova@mail.ru*

**XÜLASƏ**

Neştərli arıların növ tərkibi və biotoplar üzrə yayılmasına dair elmi-tədqiqat işi İmişli, Zərdab, Agcabədibölgələrində aparılmışdır. Toplanan materialda l2 fəsiləyə və 10 cinsə mənsub olan 15 növ vespoid və 20 növ sfesid arıları aşkar edilmişdir. Vespoidea fəsiləustluyundən 7 növü Vespidae, 8 növü isə Eumenidae fəsiləsinə, Sphecidae və Scoliidae fəsiləsinə isə 14 cinsə aid 20 növ aşkar edilmişdir. Bunlardan ikisi Scoliidae digərləri isəSphecidae fəsiləsinə aiddir.Hər 3 rayonda ən geniş yayılan növlər Sceliphrondestillatorium, Ammophilasabulosa, Sphexpoludosus və Podaloniatydei-dir.Vespidae fəsiləsindəngeniş yayılan və çoxluq təşkil edən növlərdən Polistes gallicus., Paravespula germanica, Paravespula vulqaris, Eumenes pomiformis, Eumenes arbustorum-u qeyd etmək olar. Meyvə bağlarının faunası daha zəngindir. 10 növ vespid məhz bu biotopda qeyd edilmişdir. Vespidae fəsiləsinə aid olan növlərdən - Vespa crabro, Polistes qallicus, Paravespula qermanica, Eumenidae fəsiləsindən isə E.dubius, E.pomiformis, Odunerus reniformis meyvə baglarında çoxluq təşkil edir.Sfesidlərdənisə20 növdən 18-i. meyvə baglarında toplanmışdır. Sayca çoxluq təşkil edən növlərdən Sceliphron destillatorium, Lestica clypeata, Cerceris lunata, Philanthus triangulum-u növləridir.

**Acar sözlər**: Neştərli arılar, Hymenoptera , Vespidae, Sphecidae, Scoliidae.

## ВИДОВОЙ СОСТАВ И РАСПРОСТРАНЕНИЕ ЖАЛЯЩИХ ПЕРЕПОНЧАТОКРЫЛЫХ (*HYMENOPTERA, VESPIDAE, SPHECIDAE*) В ИМИШЛИНСКОМ, ЗАРДАБСКОМ И АГДЖАБЕДИНСКОМ РАЙОНАХ

**РЕЗЮМЕ**

Научно-исследовательская работа по видовому составу и распространениюжалящих перепончатокрылых была проведена в Имишлинском, Зардабском и Агджабединском районах. Из собранных материалов было зафиксировано 15 видов веспоидных ос, относящихся к 2 семействам и 10 родам. И 20 видов сфекоидных ос, относящихся к 14 родам, из коих 2 вида отнесены к семейству *Scoliidae*.. Из надсемейства *Vespoidea* 7 видов были отнесены*Vespidae*, а евменид 8 видов. Во всех трех районах наибольшее распространение из сфецид получили виды *Sceliphron destillatorium, Ammophila sabulosa, Sphex poludosus* и *Podaloniatydei*. Из семейства *Vespidae* наиболее распространенными были виды *Polistes gallicus., Paravespula germanica, Paravespula vulqaris, Eumenes pomiformis, Eumenes arbustorum.*Фауна фруктовых садов наиболее благоприятное. 10 видов веспид были обнаружены в этом биотопе. Изних*Vespacrabro, Polistesqallicus, Paravespulaqermanica,* а из семейства *Eumenidae E.dubius, E.pomiformis, Odunerusreniformis*. Из 20 видов сфецид 18 были обнаружены во фруктовых садах. Массовое распространение имеют такие виды как *Sceliphrondestillatorium, Lesticaclypeata, Cercerislunata, Philanthustriangulum.*

**Ключевыеслова**: Aculeata hymenoptera, *Hymenoptera* , *Vespidae*, *Sphecidae*, *Scoliidae.*

## SPECIES COMPOSITION AND DISTRIBUTION OF STINGING HYMENOPTERA (*HYMENOPTERA, VESPIDAE, SPHECIDAE*) IN IMISHLI, ZARDAB AND AGJABADI DISTRICTS

**ABSTRACT**

Research work on the species composition and distribution *Aculeata* was held in Imishli , Zardab and Agjabadi regions. From the materials collected it was recorded 15 species of wasps vespoidnyh belonging to 2 families and 10 genera. And 20 kinds sfekoidnyh wasps , belonging to 14 genera , of which 2 species classified as family *Scoliidae*..

7 species were classified *Vespidae*, and evmenid 8 species from the superfamily *Vespoidea*. In all three areas, the most widely used types of sfetsid got *Sceliphron destillatorium, Ammophila sabulosa, Sphex poludosus* and *Podalonia tydei*. From *Vespidae* family were the most common species *Polistes gallicus., Paravespula germanica, Paravespula vulqaris,*

*Eumenes pomiformis, Eumenes arbustorum.* Fauna orchards the most favorable. 10 species of vespid were found in this biotope. Of these, *Vespa crabro, Polistes qallicus, Paravespula qermanica,* and from the family *Eumenidae E.dubius, E.pomiformis, Odunerus reniformis*. Of the 20 species of sfetsid 18 were found in orchards. Mass distribution have such species as *Sceliphron destillatorium, Lestica clypeata, Cerceris lunata, Philanthus triangulum.*

**Key words**: Hymenoptera ,Vespidae, Sphecidae, Scoliidae.

## Giriş

Bu mövzunun aktuallığını onunla izah etmək olar ki, neştərli arıların qida obyektləri mədəni bitkilərə zərər vuran həşəratlardır vəarılar ziyanverici həşəratlarla və onun sürfələri ilə, hörümçəklərlə, ikiqanadlılar, kəpənək sürfələri, milçəklərlə qidalanaraq bir entomofaq kimi təbiətdə qeyd etdiyimiz buğumayaqlıların sayının azalmasında böyük rol oynayır. Bunu nəzərə alaraq onları zərərvericilərə qarşı bioloji mübarizə üsullarında istifadə etmək olar. *Vespoidea* və *Specoidea*fəsiləsinə daxil olan arılar bioqeosenozlarda mühüm entomofaq roluna malik olmalarından başqa, çiçəklibitkilərin tozlanmasında da müəyyən dərəcədə iştirak edirlər.

Digər tərəfdən, vespidlərin bəzinövləri məsələn, *Vespa crabro, Polistes qallicus,* sfesidlərdən isə *Philanthus trianqulum*bal arılarını ovlamaqla arıçılıq təsərrüfatlarına ciddi ziyan vurur. Zərərverən növlərdən *Cerceris* və *Palarus* –u da qeyd etmək olar. Biogeosenozlarda mühüm rol oynayan bu arılar Azərbaycanda kifayət qədər öyrənilməyib. [1, 2, 3].

## Material və metodika

Materialın toplanması2013 cü ildə (yetkin fərd) İmişli, Zərdab, Agcabədi bölgələrində müxtəlif landşaftlarda və biotoplarda (meyvə bağları, bostan əraziləri, üzümlüklər, yem bitkiləri əkinləri, çəmənliklər, çay ətrafı, meşəlik və s.) aparılmışdır. Toplanmış faunistik material qəbul edilmiş metodika ilə təyin edilmişdir[4, 5].

Neştərli zarqanadlıların növ tərkibi Bakı Dövlət Universitetinin Onurgasızlar zoologiyası kafedrasında təyin edilmişdir. Bununla yanaşı Azərbaycanın EA Zoologiya institutunun kolleksiya fondundan da yararlanmışıq. Növlərin yetgin fərdlərinin təyin edilməsində təyinat kitabından istifadə etmişik [6]. Hər il arıları toplamışıq, onların fenologiyasını, inkişaf dinamikasını, qişlama xüsusiyyətlərini öyrənmişik. Sistematik olaraq təbiətdə koloniyalar üzərində müşahidələr aparmışıq. Əlavə qidanın tərkibini öyrənmək üçün çiçəkli bitkilərin üzərində müşahidələr aparmışıq və bura uçan neştər arıları toplayıb qeydlər aparmışıq. Bəzi növlərin sutka ərzində olan aktivliyini, sürfələrinin qida tərkibini bilmək üçün yuvalar üzərində müşahidələr aparmışıq.

## Alınan nəticələr

İmişli, Zərdab, Agcabədi bölgələrində 2 fəsiləyə və 10 cinsə mənsub 15 növ aşkar edilmişdir. İmişli rayonunda *Vespidae* fəsiləsinin 8 növündən yalnız 5 növü (*Vespa crabro, Polistes qallicus, Polistes chinensis, Paravespula vulqaris, Paravespula germanica, )*, evmenidlərdən isə bir növ – *Katamenes arbustorum* qeyd edilmişdir. *Paravespula vulqaris*, *Polistes qallicus* və *Vespa crabro* hər 3 rayonda daha geniş yayılmışlar və çoxluq təşkil edirdilər.

Zərdab rayonunda 10 növ aşkar edilmişdir ki, bunlardan da 7 növ *Vespidae* fəsiləsinin nümayəndələridir. *Eumenidae* fəsiləsindən *Eumenes dubius*, *Eumenes coarctatus,Eumenes arbustorum* qeyd edilmişdir. Yüksəkliklər üzrə araşdırmalara əsasə növ tərkibi dağətəyi zonada (10 növ) daha zəngindir. Düzənlik zonada vespidlərin 11 növü, dağlıq zonada isə 4 növ aşkar edilmişdir. *Vespidae* fəsiləsindən *Polistes qallicus, Polistes chinensis, Paravespula germanica* və *Vespa crabro* dağətəyi zonada, *Eumenidae* fəsiləsindən isə geniş yayılanlardan *Eumenes dubius, Eumenes coarctatus* meşə zolağında çoxluq təşkil edir.

Ağcabədi bölgəsində aşkar edilən 15 növdən 12 növü bu ərazidə qeydə alınmışdır. Bunlardan – 7 növü *Vespidae,* 5 növü isə *Eumenidae* fəsiləsinə aiddir. Geniş yayılan və çoxluq təşkil edən növlərdən *Polistes gallicus., Paravespula germanica, Paravespula vulqaris, Eumenes pomiformis, Eumenes arbustorum*-uqeyd etmək olar. Dagətəyi zonada növ tərkibi daha zəngindir – 8 növ. Bunlardan *Vespa crabro, Vespa germanica, Polistes chinensis, Eumenes coarctatus, Odynerus parvulus, Odynerus reniformis, Euodynerus dantici* çoxluq təşkil edir. *Vespa crabro, Polistes qallicus, Paravespula vulqaris, Dolichovespula sylvestris* və *Paravespula germanica* hər 3 bölgədə qeyd edilir. *Paravespula* cinsindən olan 2 növ , *Polistes* cinsindən olan bir növ *Polistes qallicus.* hər üç bölgədə kütləvi halda qeydə alınıb. *Dolichovespula sylvestris* və *Paravespula vulqaris.* meşə zolağında kütləvi halında, *Allodynerus rossi* isə az sayda rast gəlinir.

Çöllük biotopunda *Eumenes* cinsi üstünlük təşkil edir 7 növdən – *E. dubius,E.coarctatus,E. Pomiformis, E.arbustorum* dahacoxdur.

Çay ətrafında 9 növdən üstünlük təşkil edən növlərdən iki növ *Polistes qallicus* və *Polistes chinensis*-i qeyd etmək olar.

Çəmənliklərdə 11 növdən 3-ü - *Polistes qallicus, Polistes nimpha, Polistes qallicus, Odynerus* cinsindən isə*O.parvulus* və *O.reniformis* növləri qeyd edilib, çoxluq təşkil edən növlər isə *Polistes gallicus* və*Eumenes pomiformis*-dir.

Meyvə bağlarının faunası daha zəngindir. 10 növ məhz bu biotopda qeyd edilmişdir. *Vespidae* fəsiləsinə aid olan növlərdən - *Vespa crabro, Polistes qallicus, Paravespula qermanica, Eumenidae fəsiləsindən* isə*E.dubius, E.pomiformis, Odunerus reniformis* meyvə baglarında çoxluq təşkil edir.

*Sphecidae* fəsiləsi növ tərkibinə görə üstünlük təşkil edir – 18 növ. Hər 3 rayonda ən geniş yayılan növlər *Sceliphron destillatorium, Ammophila sabulosa, Sphex poludosus və Podalonia tydei*-dir. Bunların hər biri ərazidə çoxluq təşkil edir.Ən az növ İmişlidə qeyd edilib – 10, ən çoxu isə Zərdabda– 20 növ. Ağcabədidə çoxluq təşkil edən cins *Ammophila*-dır ki, aşkar edilən 3 növdən ikisi bu bölgədə tapılmışdır.*Scoliidae* fəsiləsindən aşkar edilən hər iki növdə (*Scolia maculata, Scolia hirta*) bu bölgədə qeyd edilib. Növ tərkibinə görə *Sphecidae* fəsiləsi üstünlük təşkil edir. *Cerceris, Oxybellus, Bembix, Ammophila* və b. cinslər geniş yayılıblar, say tərkibinə görə isə *Palarus, Podalonia* cinslərini qeyd etmək olar. Kələm tarlalarında kütləvi halda *Sceliphron destillatoriumKlüg.*-a rast gəlinib. Bundan əlavə bu növü südləçə, yonca, yulğun və başqa çiçəkli bitkilərin nektarı ilə qidalandığını müşahidə etmişik. Aşkar edilmiş növlərdən 7-si – *Sceliphron destillatorium, Cerceris sabulosa, C.rybyensis, Ammophila heydeni, A.sabulosa., Philanthus trianqulum., Lestica clypeata* daha çox rast gəlinib. *Cerceris* cinsindən olan *Cerceris flavicornis* və *Lestica* cinsindən olan *Lestica clypeata* meşə zolağında daha geniş yayılmışlar.

*Ammophila heydeni., A.sabulosa., Cerceris rybiensis, Podalonia tydei, Sphex poludosus* bütün müşahidə edilən biotoplarda aşkar edildiyindən, onlar evritop növlərə aid edilir. *Sceliphron destillatorium* kimi növlər su kənarlarındakı torpaqlarda yuva tikirlər və müşahidələrimiz bir daha göstərmişdir ki, bu növlər əsasən südləyən, yonca ilə qidalanırlar.

*Philanthus trianqulum* bütün müşahidə edilən yüksəkliklərdə qeydə alınmışdır. Sayca dağ ətəklərində çoxluq təşkil edir, üzümçülüyə və arıçılığa böyük ziyan vurur.

Çöllük biotopunda 16 növ aşkar edilmişdir. Bunlardan da 6 növdən 5-i *Cerceris* cinsinə aiddir (*Cerceris rybyensis, Cerceris rossica, Cerceris lunata, Cerceris sabu-losa, Cerceris flavicornis).*

Ən çox növ müxtəlifliyi meyvə bağlarında qeyd edilir – 20 növdən 18-i. Sayca çoxluq təşkil edən növlərdən *Sceliphron destillatorium, Lestica clypeata, Cerceris lunata, Philanthus triangulum-u* növləridir.

Bostan və yem bitkiləri əkinləri sahələrində 11 növ qeyd edilib. Bu ərazilərdə sayca çoxluq təşkil edən növlərdən *Sceliphron destillatorium, Ammophila heydeni, Bembix rostrata* və *Scolia hirta*-nı göstərmək olar.

Beləliklə, aparılan elmi-tədqiqat işləri nəticəsində yuxarıda qeyd edilən bölgələrdə 2 fəsiləyə və 10 cinsə aid 20 növ sfekoid arısı aşkar edilmişdir. Vespoid arıların biotoplar üzrə yayılmasını analiz edərək müəyyən etmişik ki, vespoid arıları ən çox meyvə bağlarında– 10 növ, ən az isə meşə zolağında (5 növ) qeydə alınmışdır. *Polistesnimpha* Christ göstərilən bütün biotoplarda qeyd edilmişdir.

**ƏDƏBİYYAT**


1. Qədimov V. Ə., Əsgərzadə X. Z. Abşeronda *Paravespula germanica F.* arısının bioekoloji xüsusiyyətləri. Azərbaycan MEA Zoologiya İnstitutunun əsərləri. 2006. XXVIII, s. 408-414
2. Алиев Х. А., Камарли В. П., Гусейнзаде Г. А. Жалящие перепончато- крылые (*Hymenoptera, Aculeata*) Исмаиллинского заповедника. Тр. Ин-та Зооло- гии АН Азербайджана. 2006. XXYIII, с. 77-87.
3. Алиева М. Г., Гумбатов А. М. Жалящие перепончатокрылые (*Hymenoptera: Vespidae, Sphecidae*) и их хозяйственное значение. Azərbaycan Zooloqlar cəmiyyətinin əsərləri. I cild. Bakı «Elm», 2008, с. 206-210
4. Палий В.Ф. Методика изучения фауны и фенологии насекомых. – Воронеж: «Центр. Черноземное» кн. изд. 1970. 191 с.
5. Песенко Ю.А. Принципы и методы количественного анализа в фаунистических исследованиях. М. Наука. 1982, 288 с.
6. Тобиас В.И. Надсемейство Vespoidea – складчатокрылые осы. В кн. : Определитель насекомых Европейской части СССР. III. 2. 1. Наука. Л. 1978. с. 147-173

# INSTRUCTIONS FOR AUTHORS

1. "The Baku Engineering University Journal-Chemistry and Biology" accepts original unpublished articles and reviews in the research field of the author.
2. Articles are accepted in English.
3. File format should be compatible with **Microsoft Word** and must be sent to the electronic mail (**journal@beu.edu.az**) of the Journal. The submitted article should follow the following format:

- Article title, author's name and surname
- The name of workplace
- Mail address
- Abstract and key words

4. The title of the article should be in each of the three languages of the abstract and should be centred on the page and in bold capitals before each summary.
5. **The abstract** should be written in **9 point** type size, between **100** and **150** words. The abstract should be written in the language of the text and in two more languages given above. The abstracts of the article written in each of the three languages should correspond to one another. The keywords should be written in two more languages besides the language of the article and should be at least three words.
6. . **UDC** and **PACS** index should be used in the article.
7. The article must consist of the followings:

- Introduction
- Research method and research
- Discussion of research method and its results
- In case the reference is in Russian it must be given in the Latin alphabet with the original language shown in brackets.

8. **Figures, pictures, graphics and tables** must be of publishing quality and inside the text. Figures, pictures and graphics should be captioned underneath, tables should be captioned above.
9. **References** should be given in square brackets in the text and listed according to the order inside the text at the end of the article. In order to cite the same reference twice or more, the appropriate pages should be given while keeping the numerical order. For example: [7, p.15].

Information about each of the given references should be full, clear and accurate. The bibliographic description of the reference should be cited according to its type (monograph, textbook, scientific research paper and etc.) While citing to scientific research articles, materials of symposiums, conferences and other popular scientific events, the name of the article, lecture or paper should be given.

**Samples:**

a) ***Article:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and electronic structure af monomerrik and dimeric conapeetes of carnosine üith zinc,* Journal of structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Book:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, p.386-398, 2002

c) ***Conference paper:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ.. Appligation of Information – Commu-nication Technologies in Science and education. II International Conference."*Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

References should be in 9-point type size.

10. The margins sizes of the page: - Top 2.8 cm. bottom 2.8 cm. left 2.5 cm, right 2.5 cm. The article main text should be written in Palatino Linotype 11 point type size single-spaced. Paragraph spacing should be 6 point.
11. The maximum number of pages for an article should not exceed 15 pages
12. The decision to publish a given article is made through the following procedures:

- The article is sent to at least to experts.
- The article is sent back to the author to make amendments upon the recommendations of referees.
- After author makes amendments upon the recommendations of referees the article can be sent for the publication by the Editorial Board of the journal.

# YAZI VƏ NƏŞR QAYDALARI

1. "Journal of Baku Engineering University-Kimya və Biologiya"- əvvəllər nəşr olunmamış orijinal əsərləri və müəllifin tədqiqat sahəsi üzrə yazılmış icmal məqalələri qəbul edir.
2. Məqalələr İngilis dilində qəbul edilir.
3. Yazılar **Microsoft Word** yazı proqramında, (**journal@beu.edu.az**) ünvanına göndərilməlidir. Göndərilən məqalələrdə aşağıdakılara nəzərə alınmalıdır:

- Məqalənin başlığı, müəllifin adı, soyadı,
- İş yeri,
- Elektron ünvanı,
- Xülasə və açar sözlər.

4. **Məqalədə başlıq hər xülasədən əvvəl** ortada, qara və böyük hərflə xülasələrin yazıldığı hər üç dildə olmalıdır.
5. **Xülasə** 100-150 söz aralığında olmaqla, 9 punto yazı tipi böyüklüyündə, məqalənin yazıldığı dildə və bundan əlavə yuxarıda göstərilən iki dildə olmalıdır. Məqalənin hər üç dildə yazılmış xülasəsi bir-birinin eyni olmalıdır. Açar sözlər uyğun xülasələrin sonunda onun yazıldığı dildə verilməklə ən azı üç sözdən ibarət olmalıdır.
6. Məqalədə UOT və PACS kodları göstərilməlidir.
7. Məqalə aşağıdakılardan ibarət olmalıdır:

- Giriş,
- Tədqiqat metodu
- Tədqiqat işinin müzakirəsi və onun nəticələri,
- İstinad ədəbiyyatı rus dilində olduğu halda orjinal dili mötərzə içərisində göstərməklə yalnız Latın əlifbası ilə verilməlidir.

8. **Şəkil**, **rəsm**, **grafik** və **cədvəllər** çapda düzgün, aydın çıxacaq vəziyyətdə və mətn içərisində olmalıdır. Şəkil, rəsm və qrafiklərin yazıları onların altında yazılmalıdır. Cədvəllərdə başlıq cədvəlin üstündə yazılmalıdır.
9. **Mənbələr** mətn içərisində kvadrat mötərizə daxilində göstərilməklə məqalənin sonunda mətn daxilindəki sıra ilə düzülməlidir. Eyni mənbəyə iki və daha cox istinad edildikdə əvvəlki sıra sayı saxlanmaqla müvafiq səhifələr göstərilməlidir. Məsələn: [7,səh.15].

Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans, və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir.

**Nümunələr:**

a) ***Məqalə:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and electronic structure af monomeric and dimeric complexes of carnosine with zinc,* Journal of structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Kitab:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, 2002

c) ***Konfrans:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ.. Appligation of Information-Communication Technologies in Science and education. II International Conference. "*Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

Mənbələr 9 punto yazı tipi böyüklüyündə olmalıdır.

10. **Səhifə ölçüləri:** üstdən 2.8 sm, altdan 2.8 sm, soldan 2.5 sm və sağdan 2.5 sm olmalıdır. Mətn 11 punto yazı tipi böyüklüyündə, **Palatino Linotype** yazı tipi ilə və tək simvol aralığında yazılmalıdır. Paraqraflar arasında 6 punto yazı tipi aralığında məsafə olmalıdır.
11. Orijinal tədqiqat əsərlərinin tam mətni bir qayda olaraq 15 səhifədən artıq olmamalıdır.
12. Məqalənin nəşrə təqdimi aşağıdakı qaydada aparılır:

- Hər məqallə ən azı iki ekspertə göndərilir.
- Ekspertlərin tövsiyələrini nəzərə almaq üçün məqalə müəllifə göndərilir.
- Məqalə, ekspertlərin tənqidi qeydləri müəllif tərəfindən nəzərə alındıqdan sonra Jurnalın Redaksiya Heyəti tərəfindən çapa təqdim oluna bilər.

# YAZIM KURALLARI

1. “Journal of Baku Engineering University- Kimya ve Bioloji" önceler yayımlanmamış orijinal çalışmaları ve yazarın kendi araştırma alanın-da yazılmış derleme makaleleri kabul etmektedir.
2. Makaleler İngilizce kabul edilir.
3. Makaleler Microsoft Word yazı programında, (**journal@beu.edu.az**) adresine gönderilmelidir. Gönderilen makalelerde şunlar dikkate alınmalıdır:
- Makalenin başlığı, yazarın adı, soyadı,
- İş yeri,
- E-posta adresi,
- Özet ve anahtar kelimeler.
4. **Özet** 100-150 kelime arasında olup 9 font büyüklüğünde, makalenin yazıldığı dilde ve yukarıda belirtilen iki dilde olmalıdır. Makalenin her üç dilde yazılmış özeti birbirinin aynı olmalıdır. Anahtar kelimeler uygun özetin sonunda onun yazıldığı dilde verilmekle en az üç sözcükten oluşmalıdır.
5. Makalede UOT ve PACS tipli kodlar gösterilmelidir.
6. Makale şunlardan oluşmalıdır:
- Giriş,
- Araştırma yöntemi
- Araştırma
- Tartışma ve sonuçlar,
- İstinat Edebiyatı Rusça olduğu halde orjinal dili parantez içerisinde göstermekle yalnız Latin alfabesi ile verilmelidir.
7. **Şekil, Resim, Grafik** ve **Tablolar** baskıda düzgün çıkacak nitelikte ve metin içerisinde olmalıdır. Şekil, Resim ve grafiklerin yazıları onların alt kısımda yer almalıdır. Tablolarda ise başlık, tablonun üst kısmında bulunmalıdır.
8. **Kullanılan kaynaklar**, metin dâhilinde köşeli parantez içerisinde numaralandırılmalı, aynı sırayla metin sonunda gösterilmelidir. Aynı kaynaklara tekrar başvurulduğunda sıra muhafaza edilmelidir. Örneğin: [7,seh.15].

Referans verilen her bir kaynağın künyesi tam ve kesin olmalıdır. Referans gösterilen kaynağın türü de eserin türüne (monografi, derslik, ilmî makale vs.) uygun olarak verilmelidir. İlmi makalelere, sempozyum, ve konferanslara müracaat ederken makalenin, bildirinin veya bildiri özetlerinin adı da gösterilmelidir.

**Örnekler:**

a) ***Makale:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and Electronic Structure of Monomerik and Dimeric Conapeetes of Carnosine Üith Zinc*, Journal of Structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Kitap:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, p.386-398, 2002

c) ***Kongre:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ. Appligation of Information-Communication Technologies in Science and education. II International Conference. “*Higher Twist Effects In Photon- Proton Collisions”, Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

Kaynakların büyüklüğü 9 punto olmalıdır.

9. **Sayfa ölçüleri**; üst: 2.8 cm, alt: 2.8 cm, sol: 2.5 cm, sağ: 2.5 cm şeklinde olmalıdır. Metin 11 punto büyüklükte **Palatino Linotype** fontu ile ve tek aralıkta yazılmalıdır. Paragraflar arasında 6 puntoluk yazı mesafesinde olmalıdır.
10. Orijinal araştırma eserlerinin tam metni 15 sayfadan fazla olmamalıdır.
11. Makaleler dergi editör kurulunun kararı ile yayımlanır. Editörler makaleyi düzeltme için yazara geri gönderilebilir.
12. Makalenin yayına sunuşu aşağıdaki şekilde yapılır:
- Her makale en az iki uzmana gönderilir.
- Uzmanların tavsiyelerini dikkate almak için makale yazara gönderilir.
- Makale, uzmanların eleştirel notları yazar tarafından dikkate alındıktan sonra Derginin Yayın Kurulu tarafından yayına sunulabilir.
13. Azerbaycan dışından gönderilen ve yayımlanacak olan makaleler için,(derginin kendilerine gonderilmesi zamani posta karşılığı) 30 ABD Doları veya karşılığı TL, T.C. Ziraat Bankası/Üsküdar-İstanbul 0403 0050 5917 No’lu hesaba yatırılmalı ve makbuzu üniversitemize fakslanmalıdır.

# ПРАВИЛА ДЛЯ АВТОРОВ

1. «Journal of Baku Engineering University» - Химии и биологии публикует оригинальные, научные статьи из области исследования автора и ранее не опубликованные.
2. Статьи принимаются на английском языке.
3. Рукописи должны быть набраны согласно программы **Microsoft Word** и отправлены на электронный адрес (**journal@beu.edu.az**). Отправляемые статьи должны учитывать следующие правила:

- Название статьи, имя и фамилия авторов
- Место работы
- Электронный адрес
- Аннотация и ключевые слова

4. **Заглавие статьи** пишется для каждой аннотации заглавными буквами, жирными буквами и располагается по центру. Заглавие и аннотации должны быть представлены на трех языках.
5. **Аннотация**, написанная на языке представленной статьи, должна содержать 100-150 слов, набранных шрифтом 9 punto. Кроме того, представляются аннотации на двух других выше указанных языках, перевод которых соответствует содержанию оригинала. Ключевые слова должны быть представлены после каждой аннотации на его языке и содержать не менее 3-х слов.
6. В статье должны быть указаны коды UOT и PACS.
7. Представленные статьи должны содержать:

- Введение
- Метод исследования
- Обсуждение результатов исследования и выводов.
- Если ссылаются на работу на русском языке, тогда оригинальный язык указывается в скобках, а ссылка дается только на латинском алфавите.

8. **Рисунки, картинки, графики и таблицы** должны быть четко выполнены и размещены внутри статьи. Подписи к рисункам размещаются под рисунком, картинкой или графиком. Название таблицы пишется над таблицей.
9. **Ссылки** на источники даются в тексте цифрой в квадратных скобках и располагаются в конце статьи в порядке цитирования в тексте. Если на один и тот же источник ссылаются два и более раз, необходимо указать соответствующую страницу, сохраняя порядковый номер цитирования. Например: [7, стр.15]. Библиографическое описание ссылаемой литературы должно быть проведено с учетом типа источника (монография, учебник, научная статья и др.). При ссылке на научную статью, материалы симпозиума, конференции или других значимых научных мероприятий должны быть указаны название статьи, доклада или тезиса.

**Например:**

**a**) ***Статья:*** Demukhamedova S.D., Aliyeva I.N., Godjayev N.M. *Spatial and electronic structure of monomeric and dimeric complexes of carnosine with zinc,* Journal of Structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Книга:*** Christie on Geankoplis. *Transport Processes and Separation Process Principles.* Fourth Edition, Prentice Hall, 2002

c) ***Конференция:*** Sadychov F.S, Fydin C,Ahmedov A.I. Appligation of Information-Communication Nechnologies in Science and education. II International Conference. *"Higher Twist Effects In Photon-Proton Collision",* Bakı,01-03 Noyabr, 2007, ss.384-391

Список цитированной литературы набирается шрифтом 9 punto.

10. **Размеры страницы:** сверху 2.8 см, снизу 2.8 см, слева 2.5 и справа 2.5. Текст печатается шрифтом **Palatino Linotype**, размер шрифта 11 punto, интервал-одинарный. Параграфы должны быть разделены расстоянием, соответствующим интервалу 6 punto.
11. Полный объем оригинальной статьи, как правило, не должен превышать 15 страниц.
12. Представление статьи к печати производится в ниже указанном порядке:

- Каждая статья посылается не менее двум экспертам.
- Статья посылается автору для учета замечаний экспертов.
- Статья, после того, как автор учел замечания экспертов, редакционной коллегией журнала может быть рекомендована к печати.